# Bakı Dövlət Universitetinin

# Kitab Yayım Mərkəzi



Bakı Dövlət Universitetinin
nəşrləri
Bakı Dövlət Universiteti
professor və müəllimlərinin
elmi əsərləri
Bakı Dövlət Universitetinin
tədris və metodiki ədəbiyyatı
Azərbaycan, ingilis və rus dillərində

BAKI UNİVERSİTETİ NƏŞRİYYATI

Z.Xəlilov 23
Tel: +994 12 438-50-16




ISSN 2219-5882

# KİTABXANAŞÜNASLIQ VƏ İNFORMASİYA

Elmi-nəzəri və praktiki jurnal

№3





2010

# KİTABXANAŞÜNASLIQ VƏ İNFORMASİYA

## ELMİ-NƏZƏRİ VƏ PRAKTİK JURNAL

*"Kitabxanaşünaslıq və informasiya" jurnalı*
*08.10.2010-cu il tarixində Beynəlxalq ISSN*
*Mərkəzi (Paris, Fransa) tərəfindən*
*2219-5882 saylı nömrə ilə ardı davam edən*
*nəşrlərin beynəlxalq reyestrinə daxil edilmişdir.*

**№3**

**2010**

**“KİTABXANAŞÜNASLIQ VƏ İNFORMASİYA”**
**ELMİ-NƏZƏRİ VƏ PRAKTİK JURNAL**

| | |
|---|---|
| **Təsisçi və Baş redaktor:** | **Abuzər XƏLƏFOV** *Əməkdar elm xadimi, BMT yanında Beynəlxalq İnformasiyalaşdırılma Akademiyasının akademiki, tarix elmləri doktoru, professor* |
| **Baş redaktor müavini:** | **Knyaz ASLAN** *Fəlsəfə doktoru (Pedaqoji elmlər üzrə), dosent* |
| **Məsul katib:** | **Pərviz KAZİMİ** |

**Redaksiya heyəti:** **Bayram Allahverdiyev**, *tarix elmləri doktoru, professor*
**Xəlil İsmayılov**, *tarix elmləri doktoru, professor*
**Aybəniz Əliyeva-Kəngərli**, *filologiya elmləri doktoru*
**Kərim Tahirov**, *fəlsəfə doktoru (Tarix elmləri üzrə)*
**Mayıl Əhmədov**, *Prezident Kitabxanasının direktoru*
**Lətifə Məmmədova**, *fəlsəfə doktoru (Tarix elmləri üzrə)*
**Sahib Rzayev**, *fəlsəfə doktoru (Filologiya elmləri üzrə), dosent*
**Əli Rüstəmov**, *fəlsəfə doktoru (Pedaqoji elmlər üzrə), dosent*
**Elçin Əhmədov**, *fəlsəfə doktoru (Pedaqoji elmlər üzrə), dosent*
**Nadir İsmayılov**, *fəlsəfə doktoru (Pedaqoji elmlər üzrə), dosent*

Jurnal Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydə alınmışdır.
Şəhadətnamə № 3135,16.03.2010.

---

Redaksiyanın ünvanı: Bakı şəhəri, Az1148., Z.Xəlilov küçəsi, 23
Bakı Dövlət Universiteti, 2 saylı tədris korpusu, mərtəbə 4, otaq № 410

Əlaqə telefonu: 439-03-66., (050) 365-48-41
№ 3 Oktyabr-Dekabr, 2010

© *“Kitabxanaşünasliq və informasiya”, 2010,№3.*

# LIBRARY SCIENCE AND INFORMATION

## SCIENTIFICO-THEORETICAL AND PRACTICAL JOURNAL

*The journal of «Library science and information» dates in 08.10.2010 was included to the international schedule by ISNN Centre (Paris, France) numbered 2219-5882 with the regulation of publications to be continued.*

**№3**

**2010**

“LIBRARY STUDY AND INFORMATION”
SCIENTIFIC-THEORETICAL AND PRACTICAL JOURNAL

**Founder and Editor-in-chief:** **Abuzar KHALAFOV**
*Honoured Science worker, Academician of International Information Academy by UNO, Doctor of Historical sciences, professor*

**Assistant editor-in-chief:** **Knyaz ASLAN**
*Doctor of Philosophy (of Pedagogical sciences), associate professor*

**Executive Secretary:** **Parviz KAZIMI**

**Editorial board:**
**Bayram Allahverdiyev,** *Doctor of Historical sciences, professor*
**Khalil Ismayılov,** *Doctor of Historical sciences, professor*
**Aybaniz Aliyeva-Kangarli,** *Doctor of Philological science*
**Karim Tahirov,** *Doctor of Philosophy (on Historical science)*
**Mayıl Ahmadov,** *Chief of the Presidential Library*
**Latifa Mammadova,** *Doctor of Philosophy (on Historical science)*
**Sahib Rzayev,** *Doctor of Philosophy (on Philological science)*
**Ali Rustamov,** *Doctor of Philosophy (on Pedagogical science)*
**Elchin Ahmadov,** *Doctor of Philosophy (on Pedagogical science*
**Nadir Ismayilov,** *Doctor of Philosophy (on Pedagogical science)*

Journals have been registered in the Justice Ministry of the Azerbaijan Republic.
Certificate 3135, 16.03.2010.

---

Address of the editorial office: Baku city, Az1148., Z.Xalilov street, 23
Baku State University, the 2th teaching building, the 4th floor, the 410th room

Connection telephone: 439-03-66; (050) 365-48-41
№ 3, Oktober-December, 2010

© *“Library study and Information”, 2010,№3.*

# БИБЛИОТЕКОВЕДЕНИЕ И ИНФОРМАЦИЯ

## НАУЧНО-ТЕОРЕТИЧЕСКИЙ И ПРАКТИЧЕСКИЙ ЖУРНАЛ

*Журнал «Библиотековедение и информация» включен
Международным Центром ISSN (Париж, Франция)
в продолжающиеся издание международного
реестра под номером 2219-5882 с 08.10.2010*

## №3

2010

# "БИБЛИОТЕКОВЕДЕНИЕ И ИНФОРМАЦИЯ"
# НАУЧНО-ТЕОРЕТИЧЕСКИЙ И ПРАКТИЧЕСКИЙ ЖУРНАЛ



**Учредитель и главный редактор:** **Абузар ХАЛАФОВ**
***Заслуженный деятель науки, Академик Международной Информационной Академии при ООН, доктор исторических наук, профессор***

**Зам. главного редактора:** **Князь АСЛАН**
***Доктор философии (по педагогическим наукам), доцент***

**Ответственный секретарь:** **Парвиз КАЗЫМИ**

**Редакционная коллегия:**

**Байрам Аллахвердиев,** ***доктор исторических наук, профессор***
**Халил Исмаилов,** ***доктор исторических наук,профессор***
**Керим Тахиров,** ***доктор философии(по историческим наукам)***
**Айбениз Алиева-Кенгерли ,*****доктор филологических наук***
**Маил Ахмедов,** ***Директор Президентской Библиотеки***
**Лятифа Мамедова,** ***доктор философии (по историческим наукам)***
**Сахиб Рзаев,** ***доктор философии (по филологическим наукам)***
**Али Рустамов,** ***доктор философии (по педагогическим наукам)***
**Эльчин Ахмедов,** ***доктор философии (по педагогическим наукам)***
**Надир Исмаилов,** ***доктор философии (по педагогическим наукам)***



Журнал регистрирован в Министерстве Юстиции Азербайджанской Республики.
Свидетельство № 3135,16.03.2010.


---


Адрес редакции: г. Баку, Az1148., улица З.Халилова, 23
Бакинский Государственный Университет, учебный корпус №2, 4-ый этаж, комната № 410

Телефоны связи: 439-03-66; (050) 365-48-41



№3 Октябрь-Декабрь, 2010



© *"Библиотековедение и информация", 2010,№3.*

## *BAŞ REDAKTORDAN*

***Əziz oxucular!***

***Bu günlərdə redaksiyamıza şad bir xəbər gəlmişdir:***

***"Kitabxanaşünaslıq və informasiya" jurnalı 08.10.2010-cu il tarixində Beynəlxalq ISSN Mərkəzi (Paris, Fransa) tərəfindən 2219-5882 saylı nömrə ilə ardı davam edən nəşrlərin beynəlxalq reyestrinə daxil edilmişdir. Bu xoş xəbər münasibətilə jurnalımızın bütün yaradıcı heyətini, müəlliflərini və oxucularını ürəkdən təbrik edirik!***

*"Kitabxanaşünaslıq və informasiya" elmi-nəzəri və praktik jurnalının 2010-cu il 3-cü nömrəsi Bakı Dövlət Universitetinin Kitabxanaçılıq-informasiya fakültəsinin Kitabxanaşünaslıq kafedrasının 2010-cu ildə apardığı elmi-tədqiqat işinin nəticələrinə həsr edilmişdir.*

*Kafedra 2010-cu ildə* ***"Azərbaycan Respublikasının müstəqilliyi şəraitində əhaliyə kitabxana xidmətinin təşkili (tarixi, müasir vəziyyəti, nəzəri problemləri və inkişaf perspektivləri)"*** *mövzusunu tədqiq etmişdir. Elmi-tədqiqat işində kafedranın 10 nəfər əməkdaşı ümumi problemə həsr edilmiş müvafiq mövzuları yerinə yetirmişdir. Kafedranın elmi-tədqiqat problemi kitabxanaşünaslığın elmi-nəzəri və praktik məsələlərinə həsr olunduğundan böyük əhəmiyyət kəsb edir. Tədqiqat işində müasir şəraitdə kitabxanaların təcrübi fəaliyyətinə tətbiq edilə bilən əməli nəticələr də öz əksini tapmışdır.*

*Məhz bunları nəzərə alan "Kitabxanaşünaslıq və informasiya" jurnalının redaksiya heyəti Kitabxanaşünaslıq kafedrasının 2010-cu ildə yerinə yetirdiyi elmi-tədqiqat işinin nəticələrinin çap olunmasını məqsədəuyğun hesab etmişdir.*

*Ümid edirik ki, humanitar elmlər sahəsində ilk dəfə tətbiq edilən bu təcrübə səmərəli bir ənənə kimi gələcəkdə elmi-tədqiqat işlərinin keyfiyyətinə müsbət təsir göstərəcəkdir.*

***Abuzər XƏLƏFOV***
***"Kitabxanaşünaslıq və informasiya"***
***jurnalının baş redaktoru, Əməkdar elm xadimi,***
***BMT yanında Beynəlxalq İnformasiyalaşdırma***
***Akademiyasının akademiki, tarix elmləri doktoru, professor***

# CƏMİYYƏT VƏ MƏDƏNİYYƏT

**A.A.XƏLƏFOV**
***Bakı Dövlət Universiteti***

*Məqalədə mədəniyyət anlayışı, onun mahiyyəti və funksiyası, tarixən meydana gəlməsi və inkişafı, həmçinin mədəniyyətin cəmiyyətdə tutduğu mövqe və rolu haqqında qısaca məlumat verilir.*

Cəmiyyət və mədəniyyət problemi, onların qarşılıqlı əlaqələrinin öyrənilməsi çox qədim dövrlərdən, cəmiyyətin erkən formalaşdığı dövrdən zəmanəmizə qədər tarixi bir inkişaf yolu keçmiş, cəmiyyət və mədəniyyət haqqında onların qarşılıqlı əlaqələri, mahiyyəti və anlayışları haqqında elmi nəzəriyyələr meydana gəlmişdir. Antropoloqların, filosofların, sosioloqların və kulturoloqların birgə səyi və elmi araşdırmaları nəticəsində cəmiyyət və onun mahiyyəti haqqında bəşəri xarakter daşıyan fundamental elm yaranmışdır. Beləliklə, bu elmin mühüm müddəalarına əsaslanaraq demək olar ki, cəmiyyət bir-biri üçün hər kəsin xeyrinə ümumi üsullarla hərəkət edən insanlardır (8, 62).

Başqa sözlə, cəmiyyət hər şeydən əvvəl ayrı-ayrı insanların cəmidir. Konkret insan, fərd olmasa cəmiyyət ola bilməz. Cəmiyyət ümumi məqsədi olan və bu məqsədə nail olmaq üçün biri digəri ilə əlaqə yaradan insan qruplarıdır. Cəmiyyəti təşkil edən insanlar xarakterik xüsusiyyətlərinə, baxışlarına, peşələrinə, psixoloji durumlarına və digər əlamətlərinə görə fərqli olsalar da, onlar birgə yaşamağa və fəaliyyət göstərməyə məhkumdurlar. İnsan fəaliyyətinin nəticəsi kimi meydana çıxan cəmiyyət öz mövcudluğu üçün bu fəaliyyətə borcludur.

Yaşayış uğrunda mübarizə aparan insanın tələbatları müxtəlif olduğu kimi, insan fəaliyyətinin motivləri də müxtəlifdir. İnsan bu tələbatları öz idealına çevirmək üçün şüurlu fəaliyyət göstərməyə çalışmalıdır. Öz-özlüyündə fərd olan insanın fəaliyyətini sosial qrupların fəaliyyəti ilə qovuşdurarkən mürəkkəb sistem yaranır. Sosioloqlar bu sistemi cəmiyyət adlandırırlar. Bu, olduqca mürəkkəb və müxtəlif əlaqələr sistemidir. Cəmiyyəti ayrı-ayrı fərdlərin mexaniki birləşməsi kimi başa düşmək, onların arasında qarşılıqlı münasibətləri, formalaşmış mürəkkəb sistemləri görməmək cəmiyyətin mahiyyətini təhrif etməyə gətirib çıxara bilər. Sosiologiyanın banisi O.Kont birinci olaraq cəmiyyətin tədqiqinə sistemli yanaşmanı təklif etmiş, onun bütövlük xarakterini, tərkib hissələrinin qarşılıqlı əlaqələrini və təsirini qeyd etmişdir (9, 230).

Cəmiyyəti təkcə hansı ünsürlərdən təşkil edilməsi ilə səciyyələndirmək düzgün olmaz. Cünki cəmiyyəti həmin ünsürlərin biri-biri ilə necə əlaqədə olması da xarakterizə edir. Bu əlaqələrin təşkili, formalaşdırılması, sistem ha-

lında idarə edilməsi cəmiyyətin möhkəm dayaqlar üzərində qurulmasına səbəb olmaqla onu dağılmaqdan qoruyur. Beləliklə, cəmiyyət onu dağılmağa qoymayan hər hansı bir əlaqələndirici qüvvə olmadan fəaliyyət göstərə, hətta dayana bilməz. Antropoloqlar bu qüvvəni mədəniyyət adlandırırlar (8, 62).

Özündə ümumbəşəri sərvətləri cəmləşdirən mədəniyyət bəşər tarixinin çox erkən dövrlərində meydana gəlmişdir. Meydana gəlib formalaşdığı ilk gündən mədəniyyət sosial hadisə kimi insanların həyat və fəaliyyəti ilə sıx bağlı olmuş, insanın əli və əqli ilə yaratdığı bütün nailiyyətləri ümumiləşdirmiş, qoruyub saxlamış, nəsildən-nəslə ötürülməsində yaxından iştirak etmişdir. Bəşəriyyət tarixində mədəniyyət haqqında olduqca çoxlu sayda müxtəlif nöqteyi-nəzərlər, fikirlər və anlayışlar vardır (4, 7).

Dünyanın böyük mütəfəkkirlərinin, filosoflarının, alimlərinin elm və incəsənət xadimlərinin fikirləri müxtəlif olsa da bəşər mədəniyyətinə xas olan xüsusiyyətlər ümumiləşdirilərkən fikir yaxınlığı və ümumi elmi anlayış meyli meydana çıxır, fikir birliyi, vahid ideya istiqaməti formalaşır.

"Kultur" – "mədəniyyət" anlayışı qədim Romada yaranmışdır. Bu termin etimoloji cəhətdən "torpağı əkib-becərmək" mənasını verirdi. Zaman keçdikcə "kultur" sözü yeni mənalar kəsb etməyə, insanların yaratdığı məhsul kimi başa düşülməyə başladı. Bu istilah uzun və mürəkkəb bir yol keçərək müxtəlif çalarlar kəsb etmiş, yeni-yeni mənalarda işlənmişdir (5, 340).

Şərq ölkələrində ərəb dilində işlədilən "mədəniyyət" istilahı "kultur" istilahına nisbətən geniş məzmuna malik, çoxmənalı funksiyaların yerinə yetirilməsinə müsbət təsir göstərmişdir. İslam Şərqində elmi dövriyyəyə daxil olan "mədəniyyət" istilahı insanın fiziki və əqli fəaliyyətinin bütün sahələrini əhatə edirdi. Orta əsrlərdə Şərqdə elmə, bədii ədəbiyyata, incəsənətə dair yaranan əsərlərdə "mədəniyyət" sözü insan fəaliyyətinə xas olmaqla, onların əxlaq və savad dərəcələrini, mədəni səviyyəsini, davranışını ifadə etməklə yanaşı, insanların maddi nemətlər yaratmaq, şəhər və kəndlər salmaq, onları idarə etmək, ticarət etmək, başqa xalqlarla əlaqələr yaratmaq qaydalarını da ifadə edirdi. Ən mühüm məsələ kimi isə yaradılmış, əldə edilmiş mədəni nailiyyətləri qoruyub saxlamaq, onları gələcək nəsillərə ötürmək kimi vəzifələr ön plana çəkilirdi. Orta əsrlərdə Şərq mütəfəkkirlərinin əsərlərində insan amilinə, onun intellektual səviyyəsinə, dünya hadisələrindən baş çıxarmaq məharətinə xüsusi diqqət yetirilir, bu anlayış eyni zamanda həm maddi, həm də mənəvi sahələrə şamil edilirdi.

İslam Şərqində sürətlə inkişaf edib yüksələn mədəniyyət Avropa mədəniyyətinə əhəmiyyətli təsir göstərmişdir. XVII əsr fransız maarifçiləri də cəmiyyətin inkişafında insanların xoşbəxt həyatını təmin edən onların zəkasına xüsusi diqqət yetirməyi ön plana çəkirdilər (4, 151-157). Onlara görə, insan zəkasının qarşısında duran əsas vəzifə insanların xoşbəxt həyatını təmin edən ədalətli quruluş yaratmaqdır.

Bəşəriyyətin tarixi inkişaf prosesində yaratmış olduğu mədəniyyət istilahı həmçinin xalqların, dövlətlərin, dövrlərin, formasiyaların maddi-mənəvi tərəqqisini səciyyələndirmək üçün işlədilir. Məsələn, Avropa mədəniyyəti, antik mədəniyyət, Çin mədəniyyəti, Şərq mədəniyyəti. "Mədəniyyət" termini həmçinin insanların həyat və fəaliyyətinin ayrı-ayrı sahələrini ifadə etmək üçün işlədilir. Məsələn, əkinçilik mədəniyyəti, istehsalat mədəniyyəti, məişət mədəniyyəti, nitq mədəniyyəti və s.

Avropada "kultura" terminini ilk dəfə Şotlandiya filosofu Ferkuson cəmiyyətin inkişafının vəhşilikdən və barbarlıqdan sonrakı dövrünü bildirmək üçün işlətmişdir. Məlumdur ki, bu dövr mədəniyyət tarixində sivilizasiya dövrü kimi qəbul edilmişdir. Bəzən "mədəniyyət" və "sivilizasiya" anlayışları sinonim kimi xarakterizə olunur. Bəs sivilizasiya ilə mədəniyyətin fərqi nədədir? Sivilizasiya ümumilikdə götürüldükdə insan cəmiyyətinin mədəni inkişaf mərhələsini göstərirsə, mədəniyyət onun daha da inkişaf etmiş dövrünü ifadə edir (5, 351).

Beləliklə, mədəniyyət sivilizasiyanın daha da inkişafı və təkmilləşməsidir, onun nailiyyəti və yüksəlişidir. Əvvəla, mədəniyyət böyük anlayış olub sivilizasiyanı da özündə birləşdirir. Həmçinin sivilizasiya məhfumu cəmiyyətin müəyyən bir tarixi inkişaf mərhələsini göstərir. Sivilizasiya daha tez parlayıb söndüyü halda mədəniyyət uzun ömürlü olur. Mədəniyyət sivilizasiyaya nisbətən daha geniş məfhumdur, bir neçə qolu, növü, şaxəsi olur. Məsələn, siyasi mədəniyyət, məişət mədəniyyəti, nitq mədəniyyəti, davranış mədəniyyəti, kitab və kitabxana mədəniyyəti, əkinçilik mədəniyyəti və s. halbuki nitq sivilizasiyası, davranış sivilizasiyası və s. sivilizasiyanı işlətmək mümkün deyildir. Bütün burada göstərdiklərimizə baxmayaraq sivilizasiya ilə mədəniyyət arasında dərin əlaqə və oxşarlıqlar, hətta eyniyyət təşkil edən tərəflər də mövcuddur. Məhz onların bu oxşar cəhətləri və xüsusiyyətləri onların birlikdə öyrənilməsini tələb edir.

Cəmiyyətin inkaşafında və təkmilləşməsində mühüm rol oynayan mədəniyyət bəşəriyyətin yaratmış olduğu ən böyük möcüzədir. Bəşəriyyətin zəkası, biliyi və tarixən yaradılmış təcrübəsi öz ifadəsini mədəniyyətdə tapır. Böyük alman filosofu Hegelin dediyi kimi, xalqların müdrikliyini öyrənməyin yeganə açarı mədəniyyətin əlindədir. Hegel yazır: "Mədəniyyətin sayəsində subyektiv iradə layiq olduğu obyektivlik əldə edir və bu obyektivlikdə ideya gercək ola bilər". Mədəniyyət prosesində özünüdəyişməsi yolu ilə ucaldığını göstərən Hegelə görə "mədəni insanlar" sözü altında daha çox başqalarının etdiyini edə bilən və öz xüsusiliyini gözə soxmayan insanları nəzərdə tutmaq olar, qeyri-mədəni insanlarda isə özünü gözə soxmaq xüsusiyyəti vardır, çünki onların davranışları şeylərin ümumi xassələrini izləmir. Mədəniyyətsiz insan başqaları ilə münasibətdə onları asanlıqla incidə bilər, cünki o, özünə iradə verir, ancaq keçirdiyi hisslər barəsində düşünmür. O, başqalarını təhqir etmək istəmir, an-

caq onun davranışı iradəsilə uzlaşmır. Deməli, mədəni olmaq xüsusiliyin cilalanmasıdır ki, o özünü predmeti yaradıcılığından ibarət olan həqiqi orijinallıq mədəni olmağı tələb edir, halbuki yalançı orijinallıq yalnız mədəniyyətsiz insanların başına gələn zövqsüz təzahürlər forması olur (1, 228).

Burada göstərdiklərimiz bir daha təsdiq edir ki, insan mədəniyyətdən ayrı mövcud deyildir. İnsanın fikirləri, hərəkəti, davranışı və münasibəti, həyat tərzi, mentaliteti – onun mədəni mahiyyətini aşkara çıxarır. Böyük filosofun bu qiymətli kəlamı mədəniyyətin bəşəriyyətin əsası olduğunu təsdiq edir.

İnsan cəmiyyətinin lap qədim dövrlərindən, dünyanın ən qədim xalqı olan Şumerlərdən başlamış bu günə kimi dünyanın bütün xalqları mədəniyyətin nəhəng binasını tikməyə başlamışdır. Bu nəhəng binanın hər mərtəbəsi böyük bir dövrün yadigarı kimi əsrdən-əsrə, nəsildən-nəslə ötürülmüş bəşər mədəniyyətini zənginləşdirmişdir.

Mədəniyyətin yaranması və inkişafı bəşər cəmiyyətinin təşəkkülü ilə sıx bağlı olmuşdur və cəmiyyətin inkişafının təməl daşıdır.

Mədəniyyət tarixinə nəzər saldıqda aydın olur ki, tarixdən əvvəl yaranıb təşəkkül tapan Qədim Şumer dövlətindən başlanan mədəni yüksəliş bütün əsrlər boyu davam etmiş, zənginləşmiş, dünyanın inkişaf etmiş xalqlarının yaratdığı mədəni yadigarlar geniş inteqrasiya prosesində vahid, bütöv bəşəri mədəniyyətə çevrilmişdir. Bəşər mədəniyyətinin beşiyi olan Şumer mədəniyyəti öz qədimiliyi, orijinallığı, rəngarəngliyi ilə fərqlənməklə dünya xalqlarının mədəniyyətinin tərəqqisi üçün bir örnək olmuşdur. Hazırda Şumer mədəniyyətinin xarakterik xüsusiyyətləri dünya alimlərinin diqqətini daha çox cəlb edir. Təsadüfi deyil ki, XIX əsrdən dünya tarixində yeni bir elm sahəsi – Şumerşünaslıq yaranmışdır. Dünya Şumerşünasları belə hesab edirlər ki, yer üzündə tarix elminə məlum olan ən qədim xalq Şumerlərdir. Şumerlər 10-12 min il əvvəl gil lövhəciklərdə bəşərin ilk əlifbası olan mixi əlifba ilə öz kitablarını yazmışlar. Məşhur amerikalı Şumerşünas Ş.H.Kramer "Tarix Şumerlərdən başlanır" kitabında yazır: "İlk məktəblər", "İlk ikipalatalı parlament", "İlk tarixçi", "İlk əxlaq ideyaları", "İlk atalar sözləri və məsəlləri", "Heyvanlar haqqında ilk təmsillər", "İlk ədəbi mübahisələr", "İlk matəm nəğmələri", "İlk ədəbi əxzetmə", "Bəşəriyyətin ilk qəhrəmanlıq əsəri", "İlk məhəbbət nəğməsi", "İlk kitabxana kataloqu", hər şeyin ilki, yeni tarixin başlanğıcı Şumerlərdən başlanır (7, 14-50).

Ş.H.Kramerin əsərindən gətirdiyimiz bu parçadan göründüyü kimi, Şumerlərdə dünya mədəniyyətinin inkişafı çox yüksək pilləyə qalxmış, məktəblər açılmış, müəllimlər, tarixçilər yetişmiş, elmin və ədəbiyyatın müxtəlif sahələrinə dair qiymətli kitablar meydana gəlmişdir. Şumerlərə məxsus "Bilqamıs" dastanı məhz belə bir güclü mədəniyyətin inkişaf etdiyi elmi və bədii zəmin üzərində yaranmışdır.

Bir sözlə, bəşəriyyətin ümumi mədəni inkişafında, bəşər mədəniyyətinin təşəkkül tapıb formalaşmasında Şumer xalqının özünəməxsus böyük yeri vardır. Onların yaratdığı ilkin mədəniyyət bəşər mədəniyyətinin sonrakı inkişafına, o cümlədən elmin, fəlsəfənin, ədəbiyyat və incəsənətin, bir sözlə, maddi və mənəvi mədəniyyətin bütün sahələrinin inkişafına böyük təsiri olmuşdur.

Qədim Şumer mədəniyyəti ilə qədim Azərbaycan mədəniyyəti arasındakı əlaqə və yaxınlıqlar, Şumer və Azərbaycan miflərinin bir-birinə oxşaması, bu oxşarlığın Azərbaycan dilində və fəlsəfəsində özünü göstərməsi qədim Şumer xalqını bizimlə doğmalaşdırır.

Şumerlərlə yanaşı olaraq Qədim Şərqdə, Hindistanda, Çində və Avropada da mədəniyyət böyük inkişaf yolu keçmişdir. Orta əsrlərdə və XIX-XX əsrlərdə isə dünyanın ayrı-ayrı xalqlarının mədəniyyətinin inkişafı və bu mədəniyyətlərin inteqrasiyası bəşər mədəniyyətinin yaranıb formalaşmasına şərait yaratmışdır. Beləliklə, mədəniyyət bəşəriyyətin ictimai tarixi inkişaf prosesində yaratmış olduğu maddi və mənəvi sərvətlərin məcmusudur.

Mürəkkəb ictimai hadisə olan mədəniyyətin iki növü vardır: 1) Maddi mədəniyyət. 2) Mənəvi mədəniyyət. Maddi mədəniyyət cəmiyyətin maddi istehsalından – texnikadan, maddi nemətlər istehsalına xidmət edən vasitələrdən, tarixi abidələrdən, muzeylərdən və s. ibarətdir. Yaşayış vasitələri – binalar, paltar, memarlıq nümunələri, körpülər, kanallar, meşə zolaqları, bitki və heyvan növləri də maddi mədəniyyətə daxildir. Mənəvi mədəniyyət isə cəmiyyətin müəyyən inkişaf pilləsində meydana gəlib inkişaf edən xalq maarifindən, elmi işlərdən, fəlsəfədən, əxlaqdan, ədəbiyyat və incəsənətdən, elmi tədqiqat institutlarından, elmi mərkəzlərdən, məktəblərdən, teatrlardan, kitabxanalardan və digər mədəni-maarif müəssisələrindən ibarətdir.

Mədəniyyət insanın tərbiyə və təhsilində, intellektual inkişafında, biliklərə yiyələnməsində, cəmiyyətin əldə edib topladığı biliklərin, təcrübənin, vərdişlərin, habelə mənəvi sərvətlərin gələcək nəsillərə çatdırılmasında mühüm rol oynayır. Təhsil, tərbiyə, xalq maarifinin inkişafı, mədəni quruculuq sahəsində görülən işlər cəmiyyətin mədəni səviyyəsinin mühüm göstəricisidir. Mədəniyyətin yaradıcısı olan insan həm də onun məhsulu kimi meydana çıxır.

Mədəniyyət problemi bütün dövrlərdə dünyanın görkəmli alimlərinin, mütəfəkkirlərinin, filosoflarının, tarixçilərinin, ədəbiyyat və incəsənət xadimlərinin diqqət mərkəzində olmuşdur. O, geniş və hərtərəfli tədqiq olunmuş, təxmini hesablamalara görə ona 400-dən artıq tərif verilmişdir. Bu təriflərinın ümumiləşdirilməsi əsasında mədəniyyətə təxmini də olsa belə bir tərif vermək olar: Mədəniyyət cəmiyyətin tarixi inkişaf prosesində əldə etdiyi maddi və mənəvi sərvətlərin məcmusudur, həmçinin onların yaradılması qabiliyyəti və bəşəriyyətin tərəqqisi üçün onlardan istifadə etmək, qoruyub saxlamaq və onları nəsildən-nəslə ötürmək bacarığıdır. Mədəniyyət insanın sirli-sehirli dünyasıdır. Onun özünü dərk etməsi və şəxsiyyətin mövcudluq üsuludur (4, 18).

Cəmiyyətin və insanın həyatında mühüm yer tutan mədəniyyət çoxşaxəli mürəkkəb bir fenomen olduğundan sistem kimi özünü göstərir. O, bir çox xüsusiyyətlərə və funksiyalara malikdir. Qısa da olsa bu funksiyalardan bəzilərini nəzərdən keçirək:

1. Mədəniyyət formaca milli, məzmunca beynəlmiləl, ümumbəşəri xarakter daşıyır. Dünya xalqlarının ayrı-ayrılıqda yaratdığı mədəniyyət eyni zamanda dünya mədəniyyətini zənginləşdirir. Odur ki, ümumdünya mədəniyyətini heç də bir xalqın sərvəti hesab etmək olmaz. Bu mədəniyyət ümumdünya xarakteri daşıyan bəşəriyyətə məxsusdur.

2. Mədəniyyətin insan amilinin formalaşmasında iştirakı funksiyası. Mədəniyyət cəmiyyətin tələbinə müvafiq olaraq insanların davranışını tənzimləyən mexanizmlər yaradaraq, insanın formalaşmasında yaxından iştirak edir. Mədəniyyətin mənimsənilməsi prosesində fərd şəxsiyyətə çevrilir.

3. Mədəniyyətin ən fərqləndirici və yerdə qalan bütün funksiyalara təsir göstərən funksiyası humanistlikdir. İnsan mədəniyyət və onun problemlərinin mərkəzində dayandığından yaradıcı insanı və yaxud humanist funksiyasını mədəniyyətin əsas funksiyası kimi səciyyələndirmək zəruridir.

4. Mədəniyyətin normativ (nizamlayıcı) funksiyası. İnsanların ictimai və şəxsi fəaliyyətinin müxtəlifliyinin nizamlanması ilə əlaqədar əxlaqi və hüquqi sistemlərə söykənərək qaydalar yaradır.

5. Mədəniyyətin varislik funksiyası cəmiyyətin inkişaf prosesində özündən əvvəl yaranmış mədəniyyətin ən yaxşı cəhətlərindən bəhrələnərək, onu qoruyub saxlaması və gələcək nəsillərə çatdırılması ilə səciyyələnir.

6. Mədəniyyətin funksiyalarından biri də onun sinkretizmi, yəni bölünməzliyidir. Mədəniyyətin inkişafının ilk mərhələlərində baş verən bu proses sonrakı mərhələlərdə də davam edir, biri-birini zənginləşdirirlər.

7. Mədəniyyətin semiotik (işarələr) funksiyası mədəniyyətin ümumbəşəri inkişafına geniş təsir göstərən amillərdən biridir. Müasir şəraitdə işarə sistemini mənimsəmədən mədəniyyətin nailiyyətlərinə yiyələnmək qeyri mümkündür. Ədəbi dil milli mədəniyyətə qovuşmağın mühüm şərtidir. Təbiət elmlərinin də özünün xüsusi işarələr sisteminin olması işarələr sisteminin öyrənilməsini zəruri edir.

8. İnsan yaradıcı funksiya – mədəniyyətin mənimsənilməsi prossesində fərd şəxsiyyətə çevrilir. Mədəniyyət sosial münasibətlərə xidmət etməklə insanların davranışını tənzimləyən mexanizmlər yaradır (2, 417).

Mədəniyyətin göstərilən funksiyalarının hərtərəfli tədqiq edilib öyrənilməsi onun ümumdünya mədəniyyətinin zənginləşməsində əhəmiyyətini aşkara çıxarır. Bəşəriyyətin əldə etmiş olduğu maddi və mənəvi sərvətlərin məcmusu olan mədəniyyətin bir çox sahələri, növləri, formaları və tərkib hissələri mövcuddur. Mədəniyyət öz əməli fəaliyyətini bir çox mühüm və ayrılmaz tərkib hissələri vasitəsi ilə həyata kecirir.

Mədəniyyətin ayrılmaz tərkib hissələrindən biri də kitab və kitabxanalardır. Cəmiyyətin inkişafının çox qədim dövrlərində yaranmış kitab və kitabxanalar bəşər mədəniyyətinin inkişafına, zənginləşməsinə çox böyük töhfələr vermişdir. Mədəni sərvətlərin qorunub saxlanmasında və nəsildən-nəslə ötürülməsində, mədəniyyətin varislik funksiyasının təmin edilməsində kitabxanaların xüsusi yeri və mövqeyi vardır. Ona görə də kitab, kitabxana və cəmiyyət problemlərinin öyrənilməsi xüsusi zərurət kəsb edir.

## ƏDƏBİYYAT

1. *Hegel. Hüquq fəlsəfəsi. – Bakı, 2007. 374 s.*
2. *İmanov H. Fəlsəfənin əsasları. Bakı, 2007. 442 s.*
3. *Əlibəyzadə E. Azərbaycan xalqının mənəvi mədəniyyət tarixi. Bakı, 1998. 222 s.*
4. *Şükürov A. Kulturologiya. Bakı, 1998. 254 s.*
5. *Fəlsəfə. Bakı, 1997. 374 s.*
6. *Qolenkova Z.T., Akuliç M.M., Kuznetsov V.N. Ümumi sosiologiya. Bakı: Diplomat, 2007. 494 s.*
7. *Kramer S.. Tarix Şumerdən başlanır. Bakı, 2009. 280 s.*
8. *Шира Дж.Х. Введение в библиотековедение. Москва,1983. 256 с.*

## THE SOCIETY AND THE CULTURE

A.A.KHALAFOV

***SUMMARY***

*The article deals with the concept of culture, its essence and functions, historical emergence and development as well as the position and the role of culture in the society.*

## ОБЩЕСТВО И КУЛЬТУРА

А.А.ХАЛАФОВ

***РЕЗЮМЕ***

*В статье раскрывается понятие культуры, ее сущность и функции, историческое возрождение и развитие, а также излагается ее позиция и роль в обществе.*

# İNFORMASİYA CƏMİYYƏTİ ŞƏRAİTİNDƏ GƏNCLƏRƏ KİTABXANA XİDMƏTİNİN MÜASİR PROBLEMLƏRİ

**Knyaz ASLAN**
***Bakı Dövlət Universiteti***

*Məqalədə "Dövlət gənclər siyasəti haqqında" prezident fərmanına uyğun olaraq informasiya cəmiyyəti şəraitində gənclərə kitabxana xidmətinin müasir problemləri araşdırılır. Daha əyani təsəvvür yaratmaq məqsədi ilə C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasının iş təcrübəsi əsas götürülür, uğurlar sadalanır, qüsurlar göstərilir, tövsiyələr veriliir.*

Son illərdə ölkəmizdə gedən demokratik dəyişikliklər və görülən tədbirlər gənclərin hərtərəfli inkşafının təmin olunması üçün ictimai-siyasi, sosial-iqtisadi, təşkilati-hüquqi şəraitin yaradılmasını sürətləndirmiş, onların fəallığının artmasına müsbət təsir göstərmişdir. Hələ 1999-cu ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin imzaladığı "Dövlət gənclər siyasəti haqqında" fərmanı uşaq və gənclərlə işləyən kadrların hazırlanmasına, gənc nəslin həyatında baş verən proseslərin elmi şəkildə öyrənilməsinə, ayrı-ayrı dövlət orqanlarının gənclərlə iş sahəsində əlaqəli və məqsədyönlü fəaliyyət göstərməsinə, uşaq, yeniyetmə və gənclərin üzləşdikləri problemlərin həlli istqamətində əməli tədbirlərin görülməsinə şərait yaratmışdır. Həmin fərmanla müəyyənləşdirilmiş vəzifələrin icrasını təmin etmək məqsədi ilə 1999-2004-cü illər ərzində bir sıra məqsədyönlü tədbirlər həyata keçirilmiş, o cümlədən bir sıra normativ hüquqi aktlar qəbul edilmiş, Gənclər və İdman Nazirliyinin nəzdində Gənclərin Problemləri üzrə Elmi Araşdırmalar Mərkəzi, Respublika Uşaq İstirahət və Sağlamlıq Mərkəzi yaradılmışdır.

Uşaq və gənclərin hərtərəfli inkşafını təmin etmək, onların problemlərinin həlli və hüquqlarının müdafiəsi sahəsində daha təsirli tədbirlər görmək, həyata keçirilən gənclər siyasətini tənzimləmək məqsədi ilə 2002-ci ildə "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Qanunda gənclər siyasətinin əsas prinsipləri öz əksini tapmış, gənclərin vətənpərvərlik, azərbaycançılıq, dövlətçilik, dünyəvilik prinsipləri əsasında, Azərbaycan xalqının tarixinə, mədəni irsinə, adət-ənənələrinə, dövlət dilinə və rəmzlərinə, milli-mənəvi və ümumbəşəri dəyərlərə hörmət ruhunda tərbiyə olunması, onların yaradıcılıq potensialının ölkənin inkişafına və ümummilli problemlərin həllinə səfərbər olunması, hüquq və azadlıqların hər hansı

şəkildə məhdudlaşdırılmasının yolverilməzliyi əsas istiqamətlər kimi müəyyənləşdirilmişdir (4).

Azərbaycanda dövlət gənclər siyasətini daha da inkişaf etdirmək, gəncləri dövlət idarəçiliyində aparıcı yerlərdən birini tutan qüvvəyə çevirmək və onların sosial-iqtisadi problemlərinin həllini təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 30 avqust 2005-ci ildə "Azərbaycan Gəncliyi Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında sərəncam imzalamışdır.

2005-2009-cu illər üçün nəzərdə tutulmuş Azərbaycan Gəncliyi Dövlət Proqramının məqsədi gənclərin hərtərəfli inkişafını, cəmiyyətin həyatında onların fəal iştirakını təmin etmək üçün sosial-iqtisadi və təşkilati-hüquqi şərait yaratmaqdır. Dövlət Proqramında bilavasitə Mədəniyyət və Turizm Nazirliyi tərəfindən icrası nəzərdə tutulan bir sıra məsələlər öz əksini tapıb. Buraya gənclərin vətənpərvərlik tərbiyəsinin aktual məsələləri üzrə elmi-praktik konfransların, müşavirələrin, dəyirmi masaların, mədəni-kütləvi tədbirlərin keçirilməsi; yeniyetmə və gənclərin vətənpərvərlik tərbiyəsinə xidmət edən bədii-tərtibat işlərinin aparılması; yeniyetmə və gənclərin hərbi xidmətə həvəsləndirilməsi məqsədi ilə mədəni-kütləvi tədbirlərin keçirilməsi; gənclərə sağlam həyat tərzi aşılayan bədii tərtibat materiallarının, əyani vəsaitlərin hazırlanması və s. daxildir.

Dövlət Proqramında qarşıya qoyulan bütün bu və digər məsələlərin yerinə yetirilməsində Mədəniyyət və Turizm Nazirliyinin mühüm tərkib hissəsi olan kitabxanalar mühüm rol oynamalıdırlar. Bu cəhətdən Azərbaycan Mədəniyyət və Turizm Nazirliyinin tərkibində müstəqil qurum kimi fəaliyyət göstərən C.Cabbarlı adına Respublika Dövlət Gənclər Kitabxanası daha böyük imkanlara malikdir.

Azərbaycan Mədəniyyət və Turizm Nazirliyinin 5 fevral 1976-cı il tarixli 54 №-li əmrinə əsasən yaradılmış C.Cabbarlı adına Respublika Gənclər Kitabxanası gənc nəslin ideya-siyasi, əmək və mənəvi tərbiyəsində, elmi-texniki səviyyəsinin yüksəldilməsində, şəxsiyyətin hərtərəfli inkişafında, tədris işində mühüm rol oynayır. Bu iş əsasən kitabxana-biblioqrafiya, informasiya xidməti ilə həyata keçirilir. O, həmçinin respublikada gənclərə kitabxana xidmətini təkmilləşdirmək sahəsində təşkilati-metodik baza rolunu oynayır. C.Cabbarlı adına Respublika Gənclər Kitabxanası ölkənin gənclər kitabxanaları, kütləvi kitabxanaların gənclər şöbəsi, orta ixtisas məktəblərinin kitabxanaları üzrə elmi-metodik mərkəz funksiyasını yerinə yetirir (17).

Müstəqillik illərində Respublika Gənclər Kitabxanasında aparılan quruculuq işləri qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsinə tam zəmanət verir. Belə ki, kitabxana 2003-cü ildə Mədəniyyət və Turizm Nazirliyinin göstərişi ilə tam təmir olunmuş və bu məqsədlə son 5 ildə kitabxanaya 90 milyon manat vəsait ayrılmışdır. Kitabxananın girişi, sərgi salonu, dövri mətbuat fon-

du və oxu zalları yüksək səviyyədə təmir olunmuş, mebellərlə təchiz edilmiş və oxucuların istifadəsinə verilmişdir.

Son illərdə Mədəniyyət və Turizm Nazirliyinin kitabxana işinə və onun fondunun lazımi ədəbiyyatla müntəzəm şəkildə komplektləşdirilməsi məsələlərinə xüsusi diqqət verilməsinin nəticəsi olaraq kitabxananın fonduna hər il təxminən l000 nüsxədən çox ədəbiyyat daxil olur. Ölkə Prezidenti İlham Əliyevin 12 yanvar 2004-cü il tarixli 56 saylı "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" sərəncamına müvafiq olaraq təkcə 2005-ci ildə kitabxanaya 7 min nüsxə ədəbiyyat alınmışdır.

C.Cabbarlı adına Respublika Gənclər Kitabxanası fondunun komplektləşdirilməsi üçün ayrılan maliyyə vəsaiti ildən-ilə artır. Müqayisə üçün qeyd edək ki, əgər 2001-ci ildə kitabxana fondunun komplektləşdirilməsi üçün ayrılan maliyyə vəsaiti 800 min manat idisə, 2005-ci ildə bu rəqəm 55 milyon manat olmuşdur.

2005-ci il yanvarın 1-də C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasının fondunda 130.571 nüsxə kitab və başqa nəşrlər olmuş, 7.311 nəfər oxucu qeydə alınmışdır. Fondun dil üzrə bölgüsündə 77.345 nüsxəni rus dilində, 50.440 nüsxəni isə Azərbaycan dilində olan ədəbiyyat təşkil edir. Kitabxana fondunda saxlanılan ədəbiyyatın çox hissəsinin rus dilində olmasının əsas səbəbi sovet hakimiyyəti illərində kitabxananın rus abonementi şöbəsinə daha çox diqqət yetirilməsi olmuşdur (17).

Kitabxanaya ayrılan maliyyə vəsaitinin bir hissəsi də dövri nəşrlərin alınmasına xərclənir. Məlum olduğu kimi, dövri nəşrlər ən operativ informasiya forması olub oxucular tərəfindən daha çox istifadə olunur. Bunu nəzərə alaraq kitabxananın rəhbərliyi hər il 20-25 dövri və ardı davam edən nəşrlərə abunə yazılır. Hazırda kitabxana 16 adda qəzet və 7 adda jurnal alır.

C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasında oxuculara xidmət sisteminin modernləşdirilməsi məqsədi ilə yeni informasiya texnologiyasının tətbiqi sahəsində də bəzi işlər görülmüşdür. Kitabxana Soros Fondunun yerli Açıq Cəmiyyət İnstitutu – Soros Fondu ilə müqavilələr bağlamış və 2003-cü ildə "Puşkin Kitabxanası" layihəsi çərçivəsində 88 nüsxə kitab alaraq fonda daxil etmişdir (17).

Son illərdə C.Cabbarlı adına Respublika Gənclər Kitabxanası Soros Fonduna iki layihə təqdim etmişdir. "Soraq-biblioqrafiya aparatının yenidən təşkili" adlı layihə kitabxanada soraq-biblioqrafiya aparatının qısa müddət ərzində yenidən qurulması məqsədilə tərtib edilmişdir. Layihədə biblioqrafiya şöbəsi üçün mebel, kompüter, printer və digər avadanlıqların alınması nəzərdə tutulmuşdur.

2002-ci ilin dekabr ayından başlayaraq Biblioqrafiya şöbəsi kitabxananın öz vəsaiti hesabına əsaslı təmir edilmişdir. 2003-cü ilin yanvar ayından layihənin icrasına başlanmış, ilk növbədə şöbə üçün 2.496.000 manat həcmində

3 ədəd kitab şkafı, 3 ədəd kompüter, 1 ədəd printer və surətçıxarma aparatı alınmışdır.

Açıq Cəmiyyət İnstitutu – Soros Fondu layihənin həyata keçirilməsi üçün 2525 ABŞ dolları məbləğində vəsait ayırmışdır (17).

Mövcud layihə əsasında kitabxananın Web səhifəsinn yaradılması və kitabxana fondunda mövcud olan Azərbaycan dilində ədəbiyyatın MS Word proqramının köməyi ilə kompüter yaddaşına keçirilməsi prosesinə başlanmışdır. Lakin sonralar maliyyə çatışmazlığından bu iş müvəqqəti olaraq dayandırılmışdır.

C.Cabbarlı adına Respublika Gənclər Kitabxanası 2003-cü ilin sonunda Açıq Cəmiyyət İnstitutu – Soros Fondunun elan etdiyi müsabiqədə yardımçı təşkilat kimi iştirak etmişdir. Müsabiqənin nəticəsinə əsasən ACIYF bu layihənin həyata keçirilməsini məqsədəuyğun hesab etmiş, 2003-cü ilin noyabr ayının 20-dən 2004-cü ilin noyabr ayının 20-dək icrası nəzərdə tutulan bu layihə üçün öz maliyyə dəstəyini elan etmişdir (17).

C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasının kitab fondunun əsas hissəsini kitablar, kitabçalar, dövri nəşrlər və başqa sənədlər təşkil edir. Kitabxana kartoqrafiya materialları, notlar, izoiqrafik materiallar və s. ilə də təchiz edilir. Həmin çap məhsullarının hər bir növü öz növbəsmində oxucu istiqamətinə, mətnin dilinə nəşr tərtibatına (çoxcildli, seriyalı və s.) görə bir-birindən fərqlənir. Oxucuların bu və ya digər sənədlərdən səmərəli istifadə etməsi üçün materialların fotosurəti çıxarılır. Audiovizual sənədlərdən (mikrofilmlər, qrammofon valları, diafilmlər, slaydlar) texniki vasitələrin köməyi ilə istifadə edilir.

2005-ci ildə C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasının fondunda cəmi 130.571 nüsxə ədəbiyyat olmuşdur ki, onların da 48.382 nüsxəsini (32 faiz) ictimai-siyasi, 13.039 nüsxəsini (8,6 faiz) təbiətşünaslıq, 9.321 nüsxəsini (6,1 faiz) texniki, 527 nüsxəsini (0,3 faiz) kənd təsərrüfatı, 9.000 nüsxəsini (6 faiz) incəsənət və idman, 53.984 nüsxəsini (35,6 faiz) bədii, 17.088 nüsxəsini (11,3 faiz) digər ədəbiyyatın təşkil etmişdir (31). Bu ədəbiyyatın 75.104 nüsxəsi rus, 50.237 nüsxəsi Azərbaycan dilində olmuş, 1.686 nüsxəsi isə not kimi qeydə alınmışdır. Bu rəqəmlər kitab fondunun yeni ədəbiyyatla tamamlanmasının və yeniləşdirilməsinin hansı səviyyədə olduğunu, onun müasir oxucuların tələblərinə və sorğularına necə cavab verə bildiyini aydın şəkildə göstərir.

Kitab fondunun sahəvi bölgüsündə ir sıra nöqsanlar mövcuddur. Yenə də əvvəllər olduğu kimi, ictimai-siyasi ədəbiyyat bütövlükdə kitab fondun əsas hissəsini tutur və 33 faiz təşkil edir. Halbuki bu göstərici cəmi 21-22 faiz olmalıdır. Bu qüsuru aradan qaldırmaq məqsədi ilə ciddi tədbir görülməli, ilk növbədə istifadə olunmayan, öz əhəmiyyətini itirən və mənəvi cəhətdən köhnələn ictimai-siyasi kitabları fonddan çıxarılıb təmizlik işləri aparılmalıdır.

Kitab fondunda bədii ədəbiyyatın miqdarı da tələb olunan səviyyəyə uyğun gəlmir. Doğrudur, son illərdə bu kitabların sayı müəyyən qədər artmışdır. Başqa sözlə, bədii ədəbiyyatın çəkisi 2002-ci ildə 32,5 faizə, 2005-ci ildə isə 34,5 faizə çatmışdır. Halbuki buradakı kitab fondunda bədii ədəbiyyatın norması ən azı 50-60 faiz təşkil etməlidir.

Kitab fondunda ədəbi tənqidə və ədəbiyyatşünaslığa dair kitablar da azdır, yəni 2005-ci ildə bu sahəyə dair ədəbiyyat cəmi 12,8 faiz olmuşdur ki, bu da tələb olunan normanı ödəmir: 30,5 faiz üstəgəl 12,8 faiz bərabərdir 43,3 faiz. Əslində isə bu rəqəm ən azı 55,5 olmamalıdır.

Kitabxananın fondunda estetikaya və incəsənətə, xüsusilə diyarşünaslıq xarakterli incəsənət ədəbiyyatına kəskin ehtiyac hiss olunur. Azərbaycan dilində incəsənətin demək olar ki, bütün sahələrinə dair ədəbiyyatın həddindən az olması oxuculara xidmət işini xeyli çətinləşdirir. Müqayisə üçün deyək ki, respublika əhəmiyyətli gənclər kitabxanası üçün kitab fondunda incəsənətə dair kitabların ümumi çəkisi 8 faiz təşkil etməlidir.

Bunlardan fərqli olaraq, kitabxana fondunda təbiətşünaslıq və texniki elmlər sahələrinə dair kifayət qədər çap əsərləri toplanmışdır. Belə ki, son üç ildə bu sahəyə dair rəqəmlər belə dəyişmişdir: təbiətşünaslıq elmləri üzrə: 2001-ci ildə – 12.503 nüsxə (9,6 faiz); 2002-ci ildə - 12.494 nüsxə (9,7 faiz): texniki elmələr üzrə – 2003-cü ildə – 8.818 nüsxə (6,8 faiz); 2004-cü ildə – 8.819 nüsxə (6,7 faiz); 2005-ci ildə – 8.790 nüsxə (6,8 faiz).

Oxucuların kitabxana kitabı ilə təmin olunmasında müəyyən uğurlar qazanılmışdır. Əgər 2001-ci ildə hər bir oxucuya düşən kitabların sayı 17 nüsxə, 2002-ci ildə 18 nüsxə təşkil edirdisə, 2003-cü ildə bu rəqəm orta hesabla 19 nüsxə, 2004-cu ildə isə 21 nüsxə, 2005-ci ildə isə 23 olmuşdur. Göründüyü kimi, bu göstərici bütün illər ərzində respublika gənclər kitabxanaları üçün müəyyənləşdirilmiş normativdən 2 dəfə çoxdur.

Kitab fondunun sahəvi bölgüsü üzrə hər bir oxucunun kitabla təminatında isə başqa mənzərə mövcuddur. Belə ki, yalnız təbiətşünaslıq elmləri və texniki elmlər üzrə ədəbiyyat ideal dərəcədə hər bir oxucunun təminatını ödəməyə qadirdir. İncəsənətə və idmana dair dəbiyyat normadan az, ictimai-siyasi ədəbiyyat isə normadan 2 dəfə çoxdur (17).

Qeyd edək ki, kənd təsərrüfatı ədəbiyyatı fondda cəmi 411 nüsxə, yəni 0,2 faiz olduğundan onun oxucuları təmin edməsi aşağı səviyyədədir. Fondda coğrafiyaya, turizma, idmana dair kitablar da çox azdır. Dilçilik və ədəbiyyatşünaslıq üzrə kitablar isə normativdən aşağıdır.

Beləliklə, C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasının kitab fondunun təhlili belə bir nəticəyə gəlməyə əsas verir ki, kitabxana fondunun komplektləşdirlməsi işi qənaətbəxş deyil. Kitab fondunun fiziki, mənəvi və məzmun cəhətdən göhnəlmiş, əhəmiyyətini itirmiş və oxucuların istifadəsindən kənarda qalmış ədəbiyyatdan təmizlənməsi prosesi sanki unudulmuşdur.

Həm keyfiyyət, həm də kəmiyyət baxımından kitabların korlanması halları müşahidə olunmaqdadır. Bunları nəzərə alaraq, C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasının kitab fondunu tələb olunan vəziyyətə gətirmək üçün bu işləri təxirəsalmadan həyata keçirmək lazımdır:

– lazımsız ədəbiyyatın fonddan çıxarılması və silinməsi işini gücləndirmək;

– eyni zamanda yeni oxucuları cəlb etmək məqsədi ilə effektli tədbirlər keçirmək;

– kitab fondunu yeni aktual nəşrlərlə komplektləşdirmək.

Son illərdə maliyyə çatışmazlığı ucbatından kitabxana bir sıra dövri nəşrlərə abunə yazıla bilmir. Bu isə öz növbəsində oxucularla aparılan işə mənfi təsir göstərir. Ona görə də Mədəniyyət və Turizm Nazirliyinin bu vacib amili nəzərə alaraq imkan daxilində kitabxanaya vəsait ayırması məqsədəuyğun olar.

Bütün bunlardan başqa, C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasında ayrı-ayrı illər ərzində müxtəlif elm sahələri üzrə kitab oxunuşu və kitab dövriyyəsinin orta göstəriciləri bir-birinə yaxın olan rəqəmlər arasında dəyişmiş, bəzən isə hətta sabit qalmışdır. Məsələn, əgər 2001-ci ildə ümumi kitab verilişinin orta göstəricisi 27, 3 nüsxə təşkil etmiş, dövriyyə isə 1,5 olmuşdursa, 2002-ci ildə ümumi kitab verilişində orta oxunuş 27, dövriyyə 1,6, 2003-cü ildə orta oxunuş 26,4, dövriyyə 1,3; 2004-cü ildə oxunuş 25,6, dövriyyə 1,3, nəhayət, 2005-ci ildə oxunuş 25,5, dövriyyə isə 1,3-dür. Göründüyü kimi, hər iki orta göstərici əsasən azalan xətt üzrə oxunuşda və dövriyyədə də göstərmişdir. Bu amil özünü müxtəlif elm sahələrinə üzrə oxunuşda və dövriyyədə də göstərmişdir. Belə ki, ictimai-siyasi ədəbiyyatın, habelə coğrafiya, turizm, idman və incəsənət ədəbiyyatının orta oxunuş və dövriyyə göstəriciləri ildən-ilə aşağı düşmüşdür. Maraqlıdır ki, bu göstəricilər içərisində yalnız bədii ədəbiyyata dair rəqəmlər yüksələn xəttlə inkişaf etmiş, digər elm sahələri ilə müqayisədə bir növ rekord nəticəyə nail olmuşdur. Əgər 2001-ci ildə bədii ədəbiyyatın orta oxunuşu 13,3, dövriyyəsi isə 2,3 idisə, 2005-ci ildə orta oxunuş 14,4, dövriyyəsi isə 2,5 təşkil etmişdir (17). Ümumiyyətlə isə bütövlükdə kitab fondunun dövriyyəsini və orta kitab oxunuşu tam qənaətbəxş hısab etmək olmaz.

Müasir şəraitdə gənclərə kitabxana kitabı ilə xidmət göstərilməsi problemi cidi diqqət tələb edir. Gənc nəslə kitabxana xidmətinin məqsədi bütün gəncləri müntəzəm mütaliəyə və kitabxanalardan səmərəli istifadəyə cəlb etməkdən ibarət olmalıdır. Lakin gənclərin kitabxanalardan istifadəyə cəlb edilməsi təsadüfi vəzifə hesab edilə bilməz Bu vəzifənin uğurla həll edilməsi, hər şeydən əvvəl, kitabxanaların tərbiyə işinin vəziyyətindən və səviyyəsindən, xidmət prosesinin təşkilindən, kitabxananın öz oxucuları üçün yaratdığı rahatlıqdan asılıdır. Buradan da gənclər kitabxanasını hər vasitə ilə möhkəm-

ləndirmək, gənc nəslin tərbiyəsi ilə məşqul olan içtimaiyyətlə onun əlaqəsini genişləndirmək, iş metodlarını daim təkmilləşdirmək zərurəti irəli cəlir.

Bu vəzifələri əməli surətdə həyata keçirən C.Cabbarlı adına Respublika Gənclər Kitabxanası son illərdə oxuculara xidmət sahəsində gərgin iş aparır. Müqayisə üçün deyək ki, əgək 2001-ci ildə kitabxanaya cəmi 6.051 oxucu üzv yazılmışdırsa, 2002-ci ildə bu rəqəm 6.841, 2003-ci ildə 7.018, 2004-cu ildə 6696, 2005-ci ildə isə 7.311 olmuşdur. 1990-cı illərin əvvəllərində oxucuların ümumi sayı sonrakı illərdən bir qədər çox olmuş, axır zamanlar isə çoxalma meylləri müşahidə edilmişdir (17).

Göründüyü kimi, oxucuların sayca ən çoxu abonementlərdə və oxu zalında qeydə alınmışdır. Müqayisə nəticəsində aydın olur ki, rus abonementində və oxu zalında oxucuların miqdarı çoxalan xətlə inkişaf etmiş, yəni 2001-ci ilə nisbətən 2003-cü ildə 117 oxucu, 2004-cü ilə nisbətən isə 2005-ci ildə isə 18 oxucu artmışdır. 2001-ci ildə rus abonementinin 1380 oxucusu (12,5 faiz), 2005-ci ildə isə 1263 oxucusu (14,4 faiz) olmuşdur.

Rəqəmlərdən aydın olur ki, Azərbaycan abonementinin göstəriciləri sabit deyildir. Oxucuların sosial tərkibi də bu illər ərzində xeyli dəyişmişdir. Əvvəlki illərdə olduğu kimi, ümumi oxucuların içərisində ən azı yerə işləyən gənclər və texniki peşə məktəbinin şagirdləri malikdirlər: cəmi 4 faiz. Qeyd etmək lazımdır ki, kitabxananın əsas oxucuları bir qayda olaraq Yasamal rayonu ərazisində yerləşən ali məktəblərin, orta ixtisas məktəblərinin tələbə və şagirdlərindən ibarətdir.

Maraqlıdır ki, ötən illər ərzində oxucuların milli tərkibi də xeyli dəyişmişdir. Əgər 2001-ci ildə ümumi oxucuların – 6.231 nəfərin 5.100-ü azərbaycanlı, 787-si rus, qalanları isə başqa millətlərin nümayəndələri idisə, 2003-cü ildə bu göstərici belə dəyişmişdir: 6.571 azərbaycanlı, 565 rus, qalanları digər millətlərin nümayəndəsi (cəmi 7.241 oxucu).

2005-ci ilin məlumatına görə isə kitabxanaya üzv yazılmış 7.311 oxucudan 6.560 nəfəri Azərbaycan, 787 nəfəri rus, qalanları isə başqa xalqların nümayəndələri olmuşlar (17). 2001-ci illə müqayisədə 2005-ci il üçün həm ümumi oxucuların, həm də ayrı-ayrı millətlərin nümayəndələrinin sayı xeyli azalmışdır. Əlbəttə, bu bair tərəfdən kitabxana fondunun yeni ədəbiyyatla komplektləşdirilməsi, dövri mətbuata abunə yazılmaması ilə bağlıdırsa, digər tərəfdən oxucuların özlərinin fəallığının azalması ilə əlaqələndirilməlidir.

Oxuculara xidmət prosesində kitab verilişi xüsusi əhəmiyyət kəsb etdiyindən son illərdə kitab verlişinin vəziyyətini nəzərdən keçirək. Əgər 2001-ci ildə kitabxananın fonduna 128.760 nüsxə ədəbiyyat vardısa və oxucuların sayı 6.231 nəfər idisə, onlara bir il ərzində 173.838 ədəd kitab verilmişdisə (2000-ci ildə olduğundan 6.302 nüsxə çox), 2005-ci ildə fonddakı kitabların sayı 130.571 nüsxə, oxucuların sayı 7.311 nəfər, ümumi kitab verilişi isə 189.386 nüsxə olmuşdur. Görüdüyü kimi, bu ötən ildəkindən təxminən 20 min nüsxə

artıqdır. Kitab verilişinin artımı oxucuların sayının çoxalması və respublikamızda təhsil prosesinin sabitləşməsi ilə bağlıdır.

2005-ci ildə kitabxana üzrə orta oxunuş 25 nüsxəyə bərabər olmuşdur ki, bu göstərici oxucuların yüksək fəallığından, C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasının gənclər arasında yaxşı tanınmasından xəbər verir. Bununla belə, kitab fondunun dövriliyi göstəricisi o qədər də yüksək deyil. Yəni 2005-ci ildə bu göstərici 1,3 dəfə təşkil etmşdir ki, bu da kitab fondunda istifadəyə yaramayan çap əsərlərinin çoxluğundan irəli gəlir. Ümumiyyətlə, kitabxananın ayrı-ayrı xidmət şöbələrində oxuculara kitab verilişi cədvəldə göstərildiyi kimi olmuşdur.

C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasının 2001-2005-ci illərə dair hesabatları göstərir ki, oxucular abonement şöbəsinin xidmətindən səmərəli şəkildə istifadə etməyə çalışmış, onlara lazım olan ədəbiyyatı əsasən ala bilmiş, çox az hallarda rədd cavabı ilə qarşılaşmışlar. Əgər 2001-ci ildə Azərbaycan abonementindən 1896; 2003-cü ildə 1084; 2005-ci ildə 1252 oxucu; rus abonementindən 2001-ci ildə 1263; 2003-cü ildə 1187; 2005-ci ildə isə 1205 oxucu istifadə etmişdirsə, oxu zalının oxucuları müvafiq olaraq həmin illərdə bu cür dəyişmişdir: 2001-ci ildə – 1933; 2003-cü ildə –1068; 2005-ci ildə – 1225 nəfər oxucu (17).

C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasının iş təcrübəsinin təhlili göstərir ki, abonement şöbəsində kitabxananın ümumi fondunun məzmununun oxucular üçün açılmasına xidmət edən kataloq-kartoteka sistemi təşkil edilmişdir. Bu kataloq-kartoteka sistemi yalnız oxuxular üçün deyil, həm də böyük şöbələrin işçiləri üçün də eyni dərəcədə vaçibdir. Kitabxananın işçiləri bu məsələyə ciddi əhəmiyyət verir, hətta kataloqların yanında oxucularla qrup halında söhbətlər aparırlar. Məsələn, 2005-ci ildə orta ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdləri ilə 3 dəfə, dövlət və özəl ali məktəblərin tələbələri ilə 5 dəfə, texniki peşə məktəblərinin, kolleclərin və liseylərin şagirdləri ilə 4 dəfə qrup halında söhbət aparılmışdır. Bu söhbətlərin əsas mövzusu “Abonement şöbəsinin xidmətindən istifadə qaydaları”, “Abonemetdən alınan kitabların ev şəraitində mütaliəsi zamanı onlarla davranış qaydaları”, “Sistemli kataloqun məzmunu və ondan istifadə üsulları”, “Əlifba kataloqunun quruluşu və ondan istifadə qaydaları”, “Universal Onluq Təsnifat (UOT) haqqında nə bilirsiniz?” və s. olmuşdur.

C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasının son illərdəki hesabatlarından aydın olur ki, abonementdə müxtəlif oxucu qrupları ilə kataloq-kartoteka sistemindən istifadə qaydaları barədə aparılan hər bir söhbətdən sonra oxucuların kitabxanaya gəlişində müəyyən artım hiss edilməklə bərabər, sorğuların da çoxalmasında və düzgün verilməsində xeyli irəliləyiş nəzərə çarpır. Qeyd etmək lazımdır ki, katoloq-kartoteka sistemindən istifadə qaydalarına dair söhbətlər 2005-ci illdə keçən illərə nisbətən daha müntəzəm

xarakter almışdır. Bunun nəticəsidir ki, həmin ildə oxuculara kitab verilişində müəyyən artım vardır. Məsələn, əgər 2000-ci ildə Azərbaycan abonementində kitab verlişinin ümümi miqdarı 33.449 nüsxə olmuşdursa, müvafiq söhbətlərin müntəzəm keçirildiyi 2002-ci ildə həmin rəqəm artaraq 36.607 nüsxəyə, 2004-cu ildə isə 38.246 nüsxəyə çatmışdır (17).

C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasının həm abonement şöbəsinin, həm də oxu zalının əməkdaşları kütləvi tədbirlərin təşkilində yaxından iştirak etmişlər. Məsələn, onlar "M.Ə.Rəsulzadə", "Xocalı şəhidləri", "Novruzum, yazım mənim", "Novruz lövhələri", "C.Məmmədquluzadə-130", "Qəhrəmanlıq və qələbə", "Sabir dünyası, həqiqətin aynası", "Əliağa Vahid", "Azərbaycan Ordusu", "Azərbaycan döyüşür", "Bəxtiyar Vahabzadə", "Azadlıq və inqilab qurbanı M.Ə.Rəsulzadə", "Şəhidlər", "Xocalı şəhidləri", "Səməd Vurğun", "Novruz şənlikləri", "El bilir ki…", "Mirzə İbrahimov", "Süleyman Rüstəm", "Əmir Mustafayev" və başqa kitab sərgilərinin, fotosərgilərin, fotomontajların təşkilində olduqcafəaliş görmüşlər (17).

Bundan başqa, Bakıdakı 1 nömrəli riyaziyyat təmayüllü litseydə, 1 nömrəli fizika təmayüllü litseydə, M.Ə.Sabir adına məktəbəqədər pedaqoji məktəbdə, 1 nömrəli Bakı Baza Tibb Məktəbində, 21 nömrəli orta məktəbdə, 172 nömrəli orta məktəbdə və başqa müəssisələrdə 1996-2004-cü illərdə keçirilmiş "Tarixin qanlı yaddaşı" (Xocalı faciəsi), "Şerimizin Vahidi", "El bilir ki, sən mənimsən…", "Novruz gəlir, yaz gəlir", "Mübariz Azərbaycan ordusu", "Şeir fədaisi" adlı musiqili ədəbi-bədii gecələri, "Sevinc", "Pakizə" və "Gənc vətənpərvər" klublarının hazırlayıb həyata keçirdiyi müxtəlif kütləvi tədbirlərin uğur qazanmasında da onlar səmərəli şəkildə kömək göstərmişlər.

2001-2005-ci illərdə C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasının abonement şöbəsində və oxu zallarında oxuculara xidmət sahəsində mühüm uğurlar qazanılmış, həm oxucuların kitabxanaya cəlb edilməsində, həm kitab verilişində, həm də xidmətin səviyyəsinin yüksəldilməsində ciddi irəliləyişlər olmuşdur. Doğrudur, bu sahədə bir sıra nöqsanlar vardır ki, bu da kitabxananın maddi-texniki bazasının zəif olmasından, binanın darısqallığından, oxuculara xidmət üçün əlverişli şəraitin olmamasından və s. irəli gəlir.

Beləliklə, C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasının hesabatlarının və digər sənədlər qovluqlarının təhlili əyani şəkildə təsdiqləyir ki, kitabxana son dövrlərdə istər fondun formalaşması, istər oxuculara xidmətin təşkili, istər kütləvi tədbirlərin keçirilməsi, istərsə də gənclərin kitabxanaya cəlb edilməsi istiqamətlərində müəyyən nailiyyətlər qazanmışdır. Eyni zamanda kitabxananın maliyyə vəsaitinin çatışmaması ilə bağlı bir sıra tədbirlərin həyata keçirilməsində çətinliklər meydana çıxmış, eləcə də müxtəlif sahələrə dair yeni kitabların, jurnalların, qəzetlərin alınmaması oxucularla işin səmərəliliyinə ziyan vurmuşdur. Təcrübə göstərir ki, oxucu sorğularına rədd cavabı verilməsi onların fəallığını azaldır, ixtisas hazırlığı

səviyyələrinə mənfi təsir edir. Tələbələr və şagirdlər müxtəlif elmlərin yeni istiqamətləri üzrə ədəbiyyatı kitabxanada tapa bilməyərək uzaqlaşırlar. Eyni zamanda kitabxana fondundan köhnəlmiş və yararsız kitabların çıxarılması işi də qeyri-qənaətbəxşdir.

Hazırda C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasının müasir tipli yeni bina ilə təchiz olunmasına, əgər hələlik bu mümkün olmasa, onda indiki binasının təmirinə və maddi-texniki bazasının möhkəmləndirilməsinə ciddi ehtiyacı vardır. Gənclər Kitabxanasının yüksək ixtisaslı kitabxanaşünas-biblioqraf kadrlarla təmin edilməsi də günün ən vacib tələblərindəndir.

Ümumiyyətlə, C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasının oxuculara daha yaxşı xidmət göstərməsi üçün ən vacib olan bu məsələlər öz həllini tezliklə tapmalıdır:

– kitabxana binasının əsaslı təmir edilməsi;

– kitabxananın lazımi səviyyədə maliyyələşdirilməsi;

– kitab fondunun vaxtında yeni ədəbiyyatlarla komplektləşdirilməsi;

– kitab fondundan məzmunca və fiziki cəhətdən köhnəlmiş, yararsız ədəbiyyatın çıxarılması;

– kitabxananın dövri nəşrlərə abunə yazılmasının təşkili;

– yüksək ixtisaslı kitabxanaşünas-biblioqraf kadrların kitabxanada işə götürülməsi və s.

– XXI əsrin informasiyalaşdırma əsri olduğu nəzərə alınaraq kitabxananın müasir texniki vasitələrlə, o cümlədən kompüterlərlə təchiz edilməsi;

– kitab fondunun mümkün qədər qısa müddətdə elektron kataloqda əks etdirilməsi;

– oxuculara daha səmərəli kitabxana-informasiya xidməti göstərmək məqsədilə kitabxananın INTERNET şəbəkəsinə qoşulması və s.

## ƏDƏBİYYAT

1. *Azərbaycan Respublikası gənclərinin I forumunda ölkə Prezidenti Heydər Əliyevin nitqi // Azərbaycan. 1996. 3 fevral.*

2. *Azərbaycan Gəncliyi Dövlət Proqramı (2005-2009) // Azərbaycan. 2005. 1 sentyabr.*

3. *Azərbaycan kitabxanaları XXI əsrin informasiya məkanında: I cild. Bakı, 2007. 104 s.*

4. *"Dövlət gənclər siyasəti haqqında" Azərbaycan Respublikası Prezidentinin fərmanı // Azərbaycan. 2004. 3 iyul.*

5. *Xələfov A. Kitabxanaşünaslığa giriş: 3 cilddə: c.1-2. Bakı: Bakı Universiteti Nəşriyyatı, 2001. 400 s.*

6. *Xələfov A. Kitabxanaşünaslığa giriş: 3 cilddə: c.3. Bakı: Bakı Universiteti Nəşriyyatı, 2003. 314 s.*

7. *Xələfov A. Heydər Əliyev və Azərbaycanda kitabxana isi. Bakı: Azərnəşr, 2006. 324 s.*

8. *Sadıqov T. C.Cabbarlı adına Respublika Gənclər Kitabxanası müstəqillik illərində // Kitabxanaşünaslıq və informasiya. 2010. №2. s.38-46.*

9. *C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasının 2001-2009-cu illərə dair hesabatları.*

## MODERN PROBLEMS OF THE LIBRARY-INFORMATION SERVICE TO THE YOUNG IN THE CONDITION OF INFORMATION SOCIETY

**Knyaz ASLAN**

***SUMMARY***

*The present article deals with the establishment, history of Republican Youth Library named after J.Jabbarli,as wellas its working principles based on decrees, orders by the President of the Republic of Azerbaijan. The main subyect of mentionet article is event which library practies, according to the President's direction "Of the state about politics of connected with young".*

## СОВРЕМЕННЫЕ ПРОБЛЕМЫ БИБЛИОТЕЧНО-ИНФОРМАЦИОННОГО ОБСЛУЖИВАНИЯ ЮНЫМ ЧИТАТЕЛЯМ В УСЛОВИЯХ ИНФОРМАЦИОННОГО ОБЩЕСТВА

**Князь АСЛАН**

***РЕЗЮМЕ***

*В статье рассмотрены актуальные проблемы библиотечно-информационного обслуживания юным читателям в Республиканской Юношеской Библиотеке имени Дж.Джаббарлы в годы независимости Азербайджана. Здесь идет речь о создании, истории, развитии, принципах, новостях деятельности библиотеки, на основе принятых распоряжениях в последние годы Президентом Азербайджана.*

# KİTABXANAÇILAR KÜTLƏVİ MÜTALİƏNİN TƏŞKİLATÇISIDIR

**S.M.RZAYEV**
***Bakı Dövlət Universiteti***

*Məqalədə ölkə miqyasında kütləvi mütaliənin təşkilində kitabxanaların və kitabxanaçıların rolundan söhbət açılır.*

İnkişaf etmiş hər bir ölkədə cəmiyyət üzvlərinin fəal həyat mövqeyinə qoşulmasına xüsusi əhəmiyyət verilir. Bunun üçün isə cəmiyyət üzvlərinin hər birinin intellektual imkanı, geniş dünyagörüşü olmalıdır. Ona görə də insanın hərtərəfli və harmonik inkişafı bəşəriyyətin həll etmək istədiyi vacib problemlərdən biridir. İnsanın hərtərəfli inkişafı təbiətin və cəmiyyətin inkişaf qanunlarını, eləcə də insanın mənəvi dünyasını, ümumi əxlaq normalarını araşdırıb dərk etmək zəminində formalaşır. İnsanın nəyi isə dərk etmək tələbatı, öyrənmək, mütaliəyə müraciət etmək zərurəti yaradır.

Məlumdur ki, təhsil müvəqqəti xarakter daşıya bilməz. Insan yaşdan-yaşa keçdikcə onun ətraf aləmə, təbiətin və cəmiyyətin müxtəlif hadisələrinə, eləcə də onların müxtəlif qanunlarını mənimsəməyə meyli davam edir. Bu sahədə məlumatlar qazandıqca onda yeni-yeni məlumatlar əldə etmək istəyi yaranır. Ona görə də mütaliə etmək işi də müntəzəm davam edir. Bununla da insanlarda fasiləsiz təhsil ehtiyacı anlayışı yaranır.

Bir cəhəti qeyd edək ki, tədqiqat işində əsas problem kitabxanaların kütləvi təşkilatçısı olması və mütaliənin vasitəsilə şəxsiyyətin formalaşması məsələsi olduğu üçün şəxsiyyət anlayışının bir qədər mahiyyətinə varmağı lazım bildik. Çünki kitabxanaçı şəxsiyyət anlayışını dərk etməklə onun inkişaf qanunauyğunluqlarını öyrənmək, formalaşmasında başqa amillərlə bərabər mütaliənin rolunu, onun təsir mexanizmini mənimsəyir. Nəticədə bu sahədəki məlumatlar oxucularla iş prosesində hər bir fərdin mütaliəsinə istiqamət verərkən kitabxanaçının köməyinə gəlir.

Şəxsiyyət müxtəlif bilik sahələri tərəfindən öyrənilir. Sosioloji təhlil şəxsiyyətə sosial sistem kimi yanaşır, onun sosiallaşması prosesinin yollarını və mərhələlərini araşdırır, sosial fəaliyyət və davranış mexanizmlərini təhlil edir, bu proseslərdə sosial amillərin rolunu aşkara çıxarır. Şəxsiyyətin sosial məzmununu araşdırarkən birinci növbədə "fərd" və "şəxsiyyət" anlayışının fərqinə varmaq lazım gəlir. Çünki fərdin şəxsiyyətə çevrilməsi prosesini bunsuz izah etmək çətin olar. Məlumdur ki, insan fərd kimi öyrənməyə, araşdırmağa, məqsədyönlü mütaliəyə başlayır, nəticədə şəxsiyyətə çevrilir.

"Fərd" dedikdə bu və ya digər sosial birlik formasının ayrıca bir nümayəndəsi nəzərdə tutulur. Bu anlayış insanın real həyatının və fəaliyyətinin xüsusiyyətlərini ifadə edir. Şəxsiyyət anlayışı isə bundan fərqli olaraq insanın konkret mahiyyətini göstərir, onda yaşadığı cəmiyyətin sosial əhəmiyyət kəsb edən cəhətləri və sosial münasibətləri mərkəzləşmiş şəkildə təcəssüm olunur. Şəxsiyyətlər öz-özünə yaranmır, mövcud cəmiyyətin sosial münasibətləri sisteminin məhsulu kimi çıxış edir. Bununla belə şəxsiyyət heç də sosial mühitin passiv nəticəsi deyildir, o özünün praktik fəaliyyətində həmin mühitə fəal dəyişdirici təsir göstərir. "Şəxsiyyət" anlayışı biososial varlıq olan insanın ancaq sosial tərəfini ifadə edir. Şəxsiyyət yüksək zəkalılığı, öz hərəkət və davranışı üçün məsuliyyət hissini, şəxsi ləyaqət və başqa yüksək mənəvi keyfiyyətləri özündə təcəssüm etdirən insandır. Şəxsiyyət müstəqil, sosial cəhətdən fəal olan adamdır. Şəxsiyyətin başlıca cəhəti onun sosial fəaliyyətidir (1, 55).

İnsan anadan fərd kimi doğulur, tədricən şəxsiyyət kimi formalaşır. Lakin fərd passiv şəkildə şəxsiyyətə çevrilə bilməz. Bu sahədə inkişaf yalnız idrakı fəallıq şəraitində baş verə bilər. Şəxsiyyətin idraki fəallığının mənbəyini onun mənəvi tələbatı təşkil edir. Mənəvi tələbat insanı müəyyən tərzdə və müəyyən istiqamətdə iş görməyə təhrik edir. Tələbat şəxsiyyətin idraki fəallığının mənbəyi kimi meydana çıxır, yəni şəxsiyyətin idraki fəallığı mənəvi və maddi tələbatların təmin olunması istəyi ilə təzahür edir. Bir cəhəti qeyd edək ki, insanın mənəvi tələbatı yalnız mütaliə vasitəsilə ödənilə bilər. Bu baxımdan insanların, xüsusilə ayrı-ayrı fərdlərin idraki fəallığının yaranmasında, eləcə də fəallaşma ilə əlaqədar mənəvi tələbatlarının ödənilməsində kitabxanalar mühüm rol oynamaq imkanına malikdir.

Burada sual olana bilər ki, fərdin idrakı cəhətdən fəallaşmasında kitabxana hansı imkana malikdir? Onu deyək ki, kitabxanalarda təşkil olunan kitab təqdimatları, kitab müzakirələri, elmi konfranslar, ədəbiyyat, incəsənət xadimləri, eləcə də görkəmli elm xadimləri ilə görüşlər, ədəbi-bədii gecələr, disputlar hər bir iştirakçıda müəyyən mənəvi tələbat yaradır, hər hansı sahəyə və yaxud məsələyə olan marağını da gücləndirir. Bu maraq isə mütaliə tələbatı yaradır. Sabit və dərin marağa əsaslanan müntəzəm, şəxsi təhsil mütaliəsi şəxsiyyətin formalaşması üçün mühüm amil olur. Fərdin kamil şəxsiyyətə çevrilməsi onun təbiətin və cəmiyyətin inkişaf qanunlarına bələd olması zəminində baş verə bilər. Bu isə hər bir fərdin təbiətin və cəmiyyətin inkişaf qanunlarından bəhs edən müxtəlif məzmunlu ədəbiyyata müraciəti, yəni bu sahədəki elmlərin sirlərinə bələd olmaq üçün şəxsitəhsillə məşğul olmasıdır.

Bir cəhəti qeyd edək ki, heç bir ali təhsil müəssisəsi, heç bir ali məktəb proqramı insana təbiətin və cəmiyyətin inkişaf qanunları haqqında lazımi bilikləri verə bilməz. Çünki məhdud zaman çərçivəsi üçün hazırlanan təhsil proqramları bu sahədəki problemləri bütövlükdə əhatə edə bilməz. Bunun üçün böyük bir dövr ərzində çoxcəhətli və rəngarəng mütaliə etmək lazımdır.

Çoxcəhətli və rəngarəng mütaliə isə vaxtaşırı deyil, müntəzəm, yəni fasiləsiz olmalıdır. Elmlərin daim inkişafda olması, inteqrasiyası və differensasiyası şəraitində müvafiq elmlərin inkişafını izləyən fasiləsiz şəxsitəhsil olmadan heç bir mənəvi inkişafdan, heç bir yetkin formalaşmadan söhbət gedə bilməz.

Onu da deyək ki, mənəvi inkişaf, şəxsiyyətin formalaşması insanın bütün ömrü boyu davam edir. Əgər hər hansı bir şəxs özünün orta yaşlarında belə özünü yetkin şəxsiyyət hesab edib öyrənməkdən, mütaliə etməkdən uzaqlaşarsa, az vaxtdan sonra ətrafdakılar onun şəxsiyyətindəki mövcud çatışmazlığı aydın hiss edəcəklər. Çünki zaman, dövr dəyişdikcə həm elmi tərəqqi öz yerində qalmır, həm də davranış normaları, ünsiyyət formaları, həyata baxışlar dəyişir. Odur ki, insan ömrü boyu fasiləsiz olaraq bilik almağa, bunun üçün isə şəxsitəhsilə müraciət etməlidir.

Fasiləsiz şəxsitəhsil həm uşaqlar və gənclərə, həm də yaşlılara eyni dərəcədə vacib sayılır. Sivil ölkələrdə, eləcə də qloballaşan dünyada fasiləsiz təhsilin vacibliyi geniş vüsət almışdır. Bu baxımdan "Yaşlılar haqqında Hamburq Bəyannaməsi"ndə deyilir: "Yaşlıların təhsili formal və ya digər təlimin inkişaf edən proseslərinin tam kompleksini özündə əks etdirir və bu proseslərin köməkliyi ilə, məxsus olduqları cəmiyyətdə yaşlı hesab edilən insanlar öz bacarıqlarını inkişaf etdirir, biliklərini zənginləşdirir, texniki və peşə ixtisaslarını təkmilləşdirir və ya bunları özlərinin və məxsus olduqdarı cəmiyyətin tələbatlarının təmin olunması üçün yeni istiqamətdə tətbiq edirlər. Yaşlıların təhsili formal və fasiləsiz təhsili qeyri-formal və qeyri-rəsmi, həmçinin ikinci dərəcəli təhsillərin tam aspektini əhatə edir. Bu təhsillər öyrənmək və çoxmədəniyyətli olan, nəzəriyyə və təcrübəyə söykənən yanaşmaları qəbul edən cəmiyyətdə mövcuddur" (2).

Bu bəyannamədə yaş, ixtisas və peşəsindən asılı olmayaraq hər bir fərdin formalaşmasında və kamil şəxsiyyətin yaşadığı cəmiyyət üçün lazımlı bir insan ola bilməsində fasiləsiz şəxsitəhsilin mühüm amil olduğu göstərilir. Bu fikirlər "Fasiləsiz təhsil haqqında Avropa Birliyinin Memorandum"unda bir daha əsaslandırılır. Memorandumun məqsədi açıqlanarkən deyilir: "2000-ci ilin mart ayında Lissabonda keçirilmiş Avropa Sammiti Avropa Birliyinin siyasətinin və təcrübəsinin müəyyən edilməsində dönüş anı olmuşdur".

Beləliklə, şəxsiyyətin formalaşmasında şəxsitəhsil mütaliəsinin tərkib hissəsi olan fasiləsiz təhsilin əsaslı rol oynaması artıq bütün dünyada birmənalı şəkildə etiraf olunur. Belə ki, cəmiyyətin ümumi inkişafı xatirinə yaşından asılı olmayaraq hər bir fərdin, eləcə də yaşlı insanların fasiləsiz şəxsitəhsillə məşğul olması vacib bilinərək, hər bir ölkədə bunun üçün lazımi şəraitin yaradılması qərarlaşdırılır. Təsadüfi deyildir ki, fasiləsiz şəxsitəhsil haqqında Avropa Birliyinin Lissabon Sammitindən sonra respublikamızın paytaxtı Bakı şəhərində 2003-cü il sentyabrın12-13-də "Yaşlıların təhsilinə dair" Birinci Milli Konfrans keçirilmiş və bu sahədə geniş bəyannamə qəbul edilmişdir (3).

Bununla əlaqədar görək tədris ədəbiyyatında fasiləsiz təhsilin aid olduğu şəxsitəhsil anlayışı necə izah olunur? Şəxsitəhsil ümumi və peşə təhsilinin fasiləsiz davamı olub, mütaliənin və başqa informasiya mənbələrinin köməyi ilə şəxsiyyətin mənəvi inkişafında mövcud boşluqların doldurulmasıdır (4, 43).

Bu cəhətdən fasiləsiz şəxsitəhsilin rəsmi təhsildən fərqli cəhətlərini izah edərkən qeyd etmək lazımdır ki, fasiləsiz şəxsitəhsil şəxsiyyətin mənəvi tələbatına müvafiq öyrənmək obyekti olan problemlərin sərbəst seçilməsi, informasiya mənbələri ilə müstəqil işləmək, bilik səviyyəsini yüksəltməkdir. Fasiləsiz şəxsi təhsildə heç bir məcburi yüksəlmə olmur. Bununla belə bu cür əqli fəaliyyət şəxsi marağa, meylə əsaslanmaqla bərabər, ictimai tələbatla şərtlənməlidir. Çünki ictimai tələbata uyğun olmayan maraq, meyl və bu sahədə göstərilən fəaliyyətin nə şəxsi, nə də ictimai səmərəsi olmaz.

Kitabla ünsiyyət, ədəbiyyatın qavranılma formaları barədə müxtəlif fikirlər söylənilsə də, mütaliə nəzəriyyəsi, onun elmi metodoloji xüsusiyyətləri elm aləmində hələ əsaslı şəkildə formalaşmamışdır. Bu da çox güman ki, onun bir çox elmlərin maraq dairəsində, o cümlədən fəlsəfə, sosialogiya, psixologiya, pedaqogika, filologiya, kitabxanaşünaslıq elmləri üçün tədqiqat obyekti olmasından irəli gəlir. Odur ki, mütaliənin proses və yaxud incəsənətin bir növü olub-olmadığını müəyyənləşdirmək üçün adları çəkilən elm sahələrində mütaliə barədə mövcud biliklərin inteqrasiya edilməsi zəruridir.

Göründüyü kimi mütaliə problemləri ilə bilavasitə məşğul olan elmlər insan, insan təbiəti, cəmiyyət, bir sözlə, insanla bağlı olan bütün amillərlə üzvi surətdə əlaqədardır. Buna görə də mütaliənin özünün tədqiqat obyektindən biri kimi insan, şəxsiyyət və onun şüurunu, cəmiyyətdə tutduğu mövqeyi və həyat fəaliyyəti növünü götürmək məqsədəuyğun hesab edilə bilər.

Yüksək elmi-texniki nailiyyətlər, baş verən ictimai-siyasi hadisələr, daim dəyişən iqtisadi-sosial şərait informasiyanın işıq surəti ilə yayılmasını şərtləndirən amillərin get-gedə çoxalıb inkişaf etməsi, informasiya daşıyıcılarından ən qədim və əldə olunmasına görə hələ də ən əlverişli hesab edilən kitaba fərqli münasibətlər formalaşdırmışdır. İnformasiyanın vaxtında, operativ olaraq çatdırılması, yayılması baxımından kütləvi informasiya vasitələrindən, xüsusilə televiziya və radiodan, İnternet və digər texniki nailiyyətlərdən geri qalan kitab insanda yüksək intellektual səviyyə formalaşdırması cəhətdən əvəzsizdir və məhz bu sahədə ona hələ də alternativ yoxdur.

Hansı fəaliyyət növü ilə məşğul olmasından, sosial-iqtisadi vəziyyətdən, hansı yaş qrupuna daxil olmasından asılı olmayaraq mütaliə hər bir insanın həyatında həyati zərurət təşkil etməlidir. Mütaliə nəticəsində əldə edilən hər bir nailiyyət özünü real həyatda, təcrübədə müvafiq biruzə verir və gələcək həyat fəaliyyətində qazanılacaq istənilən uğur bu günün mütaliəsinin səviyyəsi ilə xarakterizə olunur. Baş verən ictimai-siyasi, sosial-iqtisadi dəyişikliklər, kataklizmlər əhalinin mütaliə səviyyəsinə, ictimai intellektə öz mənfi, yaxud

müsbət təsirini göstərir. Əhalinin mütaliə səviyyəsi dedikdə adamların nə qədər oxuması, eyni zamanda həm də necə oxuması suallarını əhatə edən problem nəzərdə tutulur. Bütün bu problemlərin həlli isə birinci növbədə kitabdan ictimai istifadəni təşkil edən müəssisələr-kitabxanaların fəaliyyəti ilə bağlıdır. Məhz kitabxanalar humanitar müəssisə kimi ən etibarlı, iqtisadi cəhətdən sərfəli, azad istifadə hüququna görə əlverişli mütaliə müəssisəsidir.

"Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununda göstərilir: "Kitabxana xidmətinin vəzifəsi kitabxana sərvətlərinin, dünya ədəbiyyatı nümunələrinin etibarlı şəkildə toplanması, qorunması və gələcək nəsillərə çatdırılmasından, onların əhali arasında geniş təbliğindən, bəşəri dəyərlərə yiyələnmək, müstəqil və yaradıcı düşünən vətəndaş yetişdirilməsinə fəal yardım etməkdən ibarətdir" (5).

Cəmiyyət üzvlərinin intellektual potensiallarının inkişaf etdirilməsi işi hər bir fərdin ayrı-ayrılıqda savadının artırılması və maarifləndirilməsi ilə başlanmalıdır. Bu mənada oxucu ilə kitabxanaçının təkbətək təmasını təmin edən kitabxananın, eləcə də bu işin fəal iştirakçısı kitabxanaçının rolu danılmazdır. "Kitabxanalar bəşəriyyətin mədəni sərvətlərini toplayan, mühafizə edən, saxlayan, ictimai istifadə üçün nəsildən-nəslə çatdıran, cəmiyyətin tərəqqi və inkişafında yaxından iştirak edən, cəmiyyət üzvlərinin, bütün insanların mədəni və intellektual səviyyəsinin yüksəldilməsinə kömək edən, gənc nəslin təhsil və tərbiyəsində yaxından iştirak edən, öz ətrafında böyük oxucu dairəsi toplayıb onlara informasiya və kitabxana xidmət göstərən, oxucuların tələbatını ödəməklə mütaliə prosesinə kömək edən sosial institutdur" (6, 12).

Bəşər mədəniyyətinin tərkib hissəsi olan mütaliə mədəniyyətini cəmiyyət daxilində formalaşdırmaq, onu ictimai hadisəyə çevirmək üçün əla texniki avadanlıqlarla, kompüter və sürətçıxartma texnikası ilə təchiz edilmiş zəngin maddi-texniki bazaya malik olan kitabxanalar həm ən müasir, həm də klassik təbliğat üsullarından istifadə edə bilər. Belə ki, fondun tərkibi, toplanmış qiymətli kitablar, həmçinin kitabxanaya yeni daxil olan, eyni zamanda yeni çap olunmuş ədəbiyyat haqqında kitabxanalar yerli radio və televiziya kanalları, ədəbi jurnal və qəzet nömrələrində, eləcə də kitabxanaşünalıq və biblioqrafiya profilli dövri nəşrlərdə məlumat verir. Lakin təbliğat üsulu dedikdə bu və ya digər ədəbiyyat nümunəsi haqqında sadəcə məlumat verilməsi nəzərdə tutulmur. Əhalini kütləvi surətdə mütaliəyə cəlb etmək üçün toplanmış mədəni sərvətlərin adamlara mümkün qədər çox yaxınlaşdırılması tələb olunur. Bunun üçünsə kitabxanalar öz xətti ilə hər hansı bir radio, yaxud televiziya verlişlərində kitaba maraq oyadan, ədəbi əsərləri və poeziya nümunələrini kütləvi dildə təbliğ edə biləcək daimi rubrikalar apara bilərlər. Bundan başqa, şair və yazıçıların özləri ilə, ədəbiyyat tənqidçiləri və publisistlərlə söhbətlər, görüşlər təşkil edib onların televiziya vasitəsilə yayımlandırılması da müasir tipli kitabxanaların təbliğat üsullarındandır.

Qeyd etmək lazımdır ki, Azərbaycan televiziyası ilə vaxtilə yayımlanan "Kitab köşkü", "Həftəaşırı" kimi verlişlər bu qəbilədən idi. "Otel otağı", "İtkin gəlin" və s. kimi bədii əsərlərin müəllifləri ilə bilavasitə təmas təşkil edən "Həftəaşırı" verlişinin cəmiyyət üzvləri arasında yaratdığı əlaqə müasir tipli kitabxanalar üçün nümunə və təcrübi nəticə ola bilər. Hazırda ölkə kitabxanaları ictimai mütaliə hərəkatını formalaşdırmaq üçün özünün klassik vasitələrindən, əyani və şifahi təbliğat üsullarından istifadə edir. Bunlar da əsasən kitabxanalarda keçirilən kitab icmalları və müzakirələri, kitab sərgiləri, oxucu konfransları, söhbətlər, disput və viktorina kimi kütləvi tədbirlərdir. Müxtəlif mövzulara həsr olunmuş bu cür tədbirlərin gənc nəslin təfəkkürünün, intellektual səviyyəsinin formalaşmasında, milli mədəni tariximizin olduğu kimi yeni nəslə çatdırılmasındakı rolu əvəzedilməzdir. Bu cür tədbirləri kitabxanalar təkcə öz hüdudları çərçivəsində deyil, həm də məktəb və digər tədris müəssisələrində, o cümlədən başqa mədəni-maarif müəssisələri ilə keçirməklə cəmiyyətin mütaliə fəaliyyətində yaxından iştirak edirlər.

Mütaliə məqsədyönlü, dərk olunmuş tələbatdan doğaraq həyata keçirilən prosesdir və mütaliə mədəniyyəti dedikdə, əsasən: a) konkret məqsəd və mükəmməl mütaliə vərdişləri ilə idarə olunan, ardıcıl və mütəşəkkil surətdə həyata keçirilən vahid bir sistemə söykənən oxu prosesi; b) nə oxuduğunun fərqinə varan, əsas ideya və mənanı seçib ayıra bilən, müəllifin fikrini dəqiq tutan oxucunun psixi, fikri-mnemik fəaliyyəti nəzərdə tutulur.

Hər iki şərt nəzərə alınmaqla oxucuların mütaliəsi onların fərdi-psixoloji keyfiyyətlərinə, həyat stimuluna uyğun şəkildə istiqamətləndirilməlidir. Bu vəzifənin müvəffəqiyyətli icrası isə ilk növbədə kitabxanaçının öhdəsinə düşür. Kitabxana şəraitində oxucunu aktiv mütaliəyə cəlb etmək üçün kitabxanaçının özü güclü mütaliəçi olmalıdır. Bundan başqa, xüsusilə oxucu ilə bilavasitə təmasda olan kitabxanaçı elementar psixoloji biliklərə sahib olmalı, ünsiyyətə meylli olmalı, əsl və etibarlı informasiya mənbəyi kimi çıxış etməlidir. Kitabxana və oxucu arasında canlı ünsiyyət, ictimai mütaliə atmosferi yaratmaq kimi vəzifələr kitabxanaçının qarşısında məqsəd kimi qoyulmuşdur. Bu vəziflərin öhdəsindən gəlmək üçün kitabxanaçı ən əvvəl:

1. İstənilən şəraitdə öz vəzifəsini dərk etməli;
2. Oxucu ilə söhbət zamanı onun üçün maraq kəsb edən mövzunu asanlıqla seçməli və bu mövzuda öz mülahizələrini bölüşməli;
3. Oxucunu aktiv mütaliəyə cəlb etmək üçün bütün kitabxana vasitələrindən ümumi əyani və şifahi təbliğat üsullarından uğurla istifadə edə bilməli;
4. Dinləmək bacarığına malik olmalı, oxucularla özü arasında ikitərəfli ünsiyyət yaratmalıdır (7, 29-31).

Ümumiyyətlə, mütaliənin istiaqmətləndirilməsi vəzifəsi həvalə edilən kitabxanaçı öz işini elə qurmalıdır ki, nəinki kitabxana oxucunun həyatında, həm də oxucu kitabxananın həyatında fəal iştirak etsin və önəmli yer tutsun.

Mütaliənin cəmiyyət üzvləri arasında kitabxana qaydasında yayılması, hər şeydən əvvəl, kitabxanaya böyük oxucu gəlişini nəzərdə tutur. Bunun müqabilində kitabxanalar istər fərdi, istərsə də kütləvi təbliğat üsullarından istifadə etməklə oxucularla intensiv iş aparırlar. Kitabxanalarda həyata keçirilən kütləvi tədbirlər mövcud mədəni sərvətlərin daha aktiv və kəmiyyət etibarilə səmərəli təbiğini, nəinki ayrı-ayrı oxucu qruplarının, bütöv oxucu kontingentinin kitabxanalara cəlb olunmasını nəzərdə tutur. Bu cür təbliğat üsulları ayrı-ayrı oxucuların tələbatlarına cavab verməklə yanaşı, həm də onları bir növ qabaqlayır, yeni-yeni maraqların yaranıb formalaşmasına xidmət edir.

Cəmiyyət üzvlərinin mənəvi sərvətlərdən tam və rahat istifadə edə bilməsi, mövcud mədəni sərvətlər və kitab ehtiyatı əsasında, kitabxana şəraitində şəxsitəhsil qazanması üçün kitabxanalar hər cür imkanlara malikdir və bu imkanları oxucuların istifadəsinə yönəltmək vacibdir. “Kitabxana işi haqqında” Azərbaycan Respublikası Qanununun 22-ci maddəsində göstərilir: “Kitabxanalar oxucuların mədəniyyət təsisatları və mədəni sərvətlərdən istifadə etmək hüquqlarını, habelə məlumat əldə etmək azadlığını təmin etməli, onların kitabxana fondlarından tam istifadə etməsi üçün hər cür şərait yaratmalıdırlar” (5).

Qanunun aliliyini və humanist məramlarını əldə rəhbər tutaraq insanların mütaliəsini təşkil edib istiqamətləndirmək işində kitabxanalar aşağıdakı vəzifələri həyata keçirməyə borcludurlar:

1. Cəmiyyətin hazırkı mənəvi tələbatını yaxşı bilmək, ona uyğun olaraq öz fondunu komplektləşdirmək;
2. Mövcud və yeni kitabların varlığı haqqında əhaliyə müntəzəm məlumat vermək;
3. Bütün klassik və müasir təbliğat üsullarından istifadə etməklə kitab təbliğini həyata keçirmək;
4. Əhalinin mütaliə səviyyəsini həm kəmiyyət, həm də keyfiyyət etibarilə tədqiq etmək və onun yüksəldilməsinə çalışmaq;
5. Kitabxanaya oxucu gəlişini, eləcə də kitabxanaların cəmiyyətin həyatında yaxından iştirakını artırmaq.

İnsanın öz ixtisası və peşəsi üzrə biliklərə dərindən yiyələnməsi, bu sahədə yeni yaranan biliklərdən və məlumatlardan xəbərdar olmaq, onu lazımi səviyyədə mənimsəmək, bir ziyalı kimi elm və texnikanın inkişafını izləmək, imkan daxilində onun müvafiq cəhətlərindən səmərələnmək bir sözlə intellektual imkana malik olmaq yalnız şəxsitəhsil vasitəsilə yarana bilər.

Həyatda bəzən mütəxəssislər arasında elələrinə rast gəlinir ki, onlar yalnız rəsmi təhsillə kifayətlənir, ixtisasları ilə əlaqədar fəaliyyətlərini həmin təhsilin nəticəsi çərçivəsində qururlar. Halbuki rəsmi təhsil kamil şəxsiyyətin, öz dövrünün tələblərinə cavab verən yüksək ixtisaslı mütəxəssisin yetişməsi üçün yalnız istiqamətverici xarakter daşıyır. Bu baxımdan şəxsi təhsil mütaliəsi hər bir kəs üçün intellektual inkişaf vasitəsi kimi vacib xarakter daşıyır.

İstər ali məktəbi, istərsə də orta ixtisas məktəbini lazımi səviyyədə bitirmək və onu həyatın inkişaf səviyyəsilə uzlaşdırmaq, həm də özünün işlədiyi kollektivin intellektual atmosferində bir şəxsiyyət kimi tanınmaq üçün şəxsitəhsil mütaliəsi ilə müntəzəm məşğul olmaq günün ən vacib tələbidir. Buna görə ölkədə şəxsitəhsil mütaliəsinin daha geniş kütləvi xarakter almasına nail olmaq vacibdir ki, bunun da əsas təşkilatçısı və təminatçısı kitabxanalardır.

## ƏDƏBİYYAT


*1. Sosiologiya: Dərslik. Bakı, 2005, s.55.*

*2. Yaşlıların təhsili haqqında Hamburq Bəyannaməsi // Təhsil gündəmi. 2003, 26 sentyabr.*

*3. Yaşlıların təhsilinə dair Birinci Milli Konfransın Bəyannaməsi. Bakı, 12-13 sentyabr 2003-cü il // Təhsil gündəmi. 2003, 26 sentyabr.*

*4. Библиотечное обслуживание: Теория и методика (Учебник). Москва, 1996, с.43.*

*5. "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu. Maddə 20 // Azərbaycan. №58. 1999,14 mart.*

*6. Xələfov A.A. Azərbaycanda kitabxana işinin tarixi. Dərslik. 2 hissədə. I hissə. Bakı, 2004, s.12.*

*7. Салыгина Т., Жданова Т. Увидеть себя чужими глазами // Библиотека. 1993, №4, с.29-31.*


## БИБЛИОТЕКИ КАК ОРГАНИЗАТОРЫ МАССОВОГО ЧТЕНИЯ

**С.М.РЗАЕВ**

***РЕЗЮМЕ***

*В статье разрабатывается деятельность библиотек как организаторы массового чтения в стране.*

## LIBRARIES AS ORGANIZORS OF MASS READING

**S.M.RZAYEV**

***S U M M A R Y***

*The article deals with the activity of libraries as the organizors of mass reading in the country.*

# ELEKTRON KİTABXANA RESURSLARININ FORMALAŞDIRILMA METODOLOGİYASININ BƏZİ MƏSƏLƏLƏRİ

**Ə.M. RÜSTƏMOV**
***Bakı Dövlət Universiteti***

*Məqalə elektron kitabxanaların komplektləşdirilməsinin və formalaşdırılmasının metodologiyası və mexanizminin bəzi nəzəri məsələləri araşdırılır.*

XXI əsrin informasiya texnologiyalarının xarakterik inkişaf istiqamətləri içərisində elektron informasiya daşıyıcılarının yaradılması mühafizəsi və onlarla xidmət işinin təşkili vacib yer tutur. Bu problemin qlobal həll istiqamətlərindən biri elektron kitabxanaların yaradılmasıdır. Əbəs deyil ki, Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramında [1] Azərbaycan ədəbiyyatının elektron kitabxanasının yaradılması vəzifəsi irəli sürülmüşdür.

Elektron kitabxanaların yaradılması kitabxana-informasiya fəaliyyətində bir sıra yeni xidmət üsullarının tətbiqinə səbəb olmuşdur. Burada ilk növbədə onlayn informasiya xidməti, sənədin elektron göndərişi, elmi və ədəbi irsin qorunub saxlanması və digər problemlərin həlli vacib yer tutur.

Deyilən qlobal problemlərin təcrübi həllinin dünyanın əksər qabaqcıl kitabxanalarında reallaşdırılmasına baxmayaraq, "elektron kitabxana" anlayışının birmənalı tərifi yoxdur. Hətta "elektron kitabxana" adının özü müxtəlif anlayışlarla ifadə edilir. Bu baxımdan "Rəqəmsal kitabxana", "Divarsız kitabxana", "Hibrid kitabxana" və digər adlar istifadə edilir [2].

Lakin nəzər almalıyıq ki, "elektron kitabxana" anlayışında "kitabxana" sözü ənənəvi baxımdan şərti xarakter daşıyır. Belə ki, elektron kitabxanalar nəşriyyatlar, arxivlər, elmi-tədqiqat idarələri, iri biznes qurumları və ənənəvi kitabxanalar tərəfindən yaradılır. Lakin təşkilatı struktubrundan asılı olmayaraq elektron kitabxanaları birləşdirən ümumi cəhətlər yox deyildir.

1. Elektron kitabxanalar korporativ, milli, transmilli qlobal şəbəkələr üçün mövcud olan aparat və proqram vasitələrinə, mübadilə protokllarına malik olurlar;
2. Əlaqədar təşkilatın serverində yerləşdirilir və şəbəkə ilə uzaq məsafədən istifadə olunur.
3. Sənədlər strukturlaşdırılmış formaya və axtarış proseduruna malik olur.
4. Web texnologiyaları əsasında və onlayn rejimində fəaliyyət göstərir.

Hazırda coğrafi əhatəsi etibarilə kontinental (məs.: ümumavropa), milli (ölkə) və yerli (korporativ) elektron kitabxanalar mövcuddur.

Bunlardan başqa, predmet sahələri (məs.: humanitar və texniki elmlər) və problem istiqamətləri (məs: intellektual mülkiyyət, rəqəmsal texnologiyalar) üzrə elektron kitabxana layihələri və real fəaliyyət göstərən elektron kitabxanalar vardır.

Elektron kitabxanaların ənənəvi kitabxanalar baxımından hansı boşluqları doldurulması və yaradılması məqsədləri məlum monoqrafik tədqiqatda [2, 193-196] geniş işıqlandırılmışdır. Lakin qeyd etməliyik ki, ənənəvi kitabxanalar, kimi elektron kitabxanaların təşkilinin ardıcıl metodik qaydaları mövcuddur. Bu baxımdan ilkin metodoloji mərhələ elektron kitabxanaların komplektləşdirilməsi, yəni elektron kitabxana resurslarının formalaşdırılmasının ümumi metodoloji prinsipləridir.

Elektron sənədlərin və digər resursların kitabxana fondlarına komplektləşdirilməsi üçün ilk növbədə kitabxananın İnternetlə geniş əlaqələndirilmiş elektron kitabxanası və ya heç olmasa inkişaf etmiş lokal kompüter şəbəkəsi olmalıdır. Sonuncu deyilən halda kitabxana uzaqlaşdırılmış informasiya resursları ilə komplektləşdirilə bilməz, ancaq optik və digər tip disklərdə yazılan kitablar, jurnallar və profilə uyğun olan məlumat bazaları ilə komplektləşdirilə bilər. Digər tərəfdən, əlaqədar kitabxanada çap sənəd fondunda geniş, dünyəvi maraq kəsb edən nadir və qiymətli nüsxələr (milli ədəbiyyat) rəqəmləşdirilmiş formata keçirilib, yəni skaner olunub elektron kitabxanaya daxil edilə bilər. Bu da elektron sənədlərlə komplektləşdirmənin daxili mənbəyi hesab olunur. Optik və digər tip disklərdə buraxılan elektron nəşrlər və məlumat bazaları nəşriyyatlardan və digər əlaqədar təşkilatlardan adi çap əsərləri kimi pulköçürmə yolu ilə alına bilər.

Elektron sənədlərin və digər əlaqədar resursların (məs.: biblioqrafik məlumat bazaları, elektron kataloqlar, web-saytlar və s.) əsas komplektləşdirmə mənbəyi İnternet resurslarıdır. Bu texnologiyadan istifadə etdikdə tez-tez yeniləşdirilən, əlavələr edilən və pulsuz yayılan elektron sənəd növlərinin komplektləşdirilməsi əlverişli deyil. Belə halda əlaqədar elektron sənəd növünün və massivinin vaxtaşırı aktuallaşdırılmasını həmin resursu istehsal etmiş (hazırlamış) qurumun öz üzərinə qoymaq, resursa dair biblioqrafik və ünvan məlumatlarını isə ya kitabxananın məxsısi elektron kataloquna, ya da xüsusi registrinə (istifadə üçün tövsiyə olunan informasiya resurslarının siyahısı) daxil etmək daha məqsədəuyğundur.

İnternetdə olan pullu informasiya resurslarından kitabxana fondlarının komplektləşdirilməsinin hazırda istifadə edilən ən kütləvi üsulu müraciət (istifadə) üçün lisenziyanın (pulödəmə əsasında bağlanan müqavilə) olmaması, istifadə ediləcək elektron sənədlərin biblioqrafik yazılarının (təsvirlərinin) tərtibi və İnternet şəbəkəsi vasitəsilə kitabxananın oxucularına təqdim olunması-

dır. Bu üsul xeyli maliyyə və əmək sərfı tələb edir. Çünki bu prosesdə bir sıra hüquqi və təcrübi məsələlər zaman etibarılə təkmiləşdirilməlidir. Bununla komplektləşdirilən elektron materiallar fiziki olaraq sahibkarın, yəni informasiya təchizatçısmın ixtiyarında qallır, kitabxanalar isə alınmış lisenziyanın şərtlərindən asılı olaraq onlardan müvəqqəti və ya daimi istifadə hüququna malik olur.

İstənilən komplektləşdirmə üsulunda sənədlərin profilə uyğun olaraq dəqiq seçilməsi oxucu sorğusunun və tələbatının dərindən öyrənilməsi ilə bağlıdır. Çap və elektron sənədlərin istifadəsi üçün ştrix-kodlaşdırma sistemi tətbiq etmiş, həmçinin registrasiya (qeydiyyat) edilmiş elektron resurslan olan avtomatlaşdırılrmş kitabxanalarda oxucu sorğularının təhlili çox sadə və asandir.

İstər ənənəvi, istərsə də elektron kitabxanaların vacib problemlərindən biri ədaqədar kitabxananın profilinə uyğun olan yüksək keyfiyyətli sənədlərin seçilməsidir. Bəzi mütəxəssislərin fikrincə elektron sənədlərin komplektləşdirilməsində seçmə üsulunun istifadəsi qismən lazımdır. Bu üsul ancaq optik disklərdə buraxılan nəşrlər üçün tətbiq edilməlidir; digər uzaqlaşdırılmış informasiya resurslarının komplektləşdirilməsində isə seçmə aparmaq gərəksizdir. Çünki həmin resursların tərkibi və məzmunu tez-tez dəyişir və aktuallaşdırılır, yeniləşdirilir, əlavə edilir və s.

Digər qrup mütəxəssislər komplektləşdirmə üçün çap əsərlərində olduğu kimi elektron nəşrlərin və sənədlərin (resursların) seçilməsini vacib hesab edirlər.

Buna görə də elektron kitabxanalara açıq web-saytların kəmiyyətini deyil, seçmə yolu ilə onların komplektləşdirmə keyfiyyətini artırmağa çalışırlar. Elektron informasiyaların komplektləşdirmə mənbələrinin seçilməsində peşəkar kitabxanaçının aparıcı rolunu əvəz edən başqa bir vasitə yoxdur. Qeyd edək ki, kitabxanaçının vacib funksiyalarından biri təkcə komplektləşdirmə prosesində deyil, həmçinin sənədlərin təkrar komplektləşdirilməsində, ədəbiyyatın fonddan çıxarılmasında və depozitar fondun təşkilində seçmə aparmaqdır. Ən böyük kolleksiyaya (115000 adda), yəni fonda malik olan ABŞ Konqres Kitabxanası bir sıra obyektiv və subyektiv amilləri nəzərə alaraq komplektləşdirmə aparır. Elektron resursların formalaşdırılmasına xüsusilə böyük diqqət yetirilir.

Bütün mövcud olan elektron informasiya resursları 3 tərkib hissədən ibarətdir:

1. Pulsuz, yəni hamı üçün açıq olan şəbəkə (İnternet) resursları. Bu resursları istifadə etmək, yəni öz məxsusi serverinə (elektron saxlayıcısına) keçirmək üçün resurs sahiblərindən icazə almaq lazımdır. Çox zaman yalnız birdəfəlik istifadə üçün razılıq almaq da lazım gəlmir. Ancaq kitabxana hər hanşı bir web-sənədi, yaxud biblioqrafik məlumat bazasını öz elektron fonduna keçirmək və mühaılzə etmək istəyirsə, sənəd sahibindən təqribi razılıq almalıdır,

yəni onun saytında sadəcə olaraq qeydiyyatdan keçməlidir. Burada heç bir pul tələb olunmur.

2. Portativ informasiya daşıyıcılarında olan kitab, jurnal və digər növ sənədləri komplektləşdirmək kağız sənədlərdə olduğu kimidir. Onları əlaqədar kitab mağazalarından və abunə agentliklərindən pulödəmə yolu ilə alıb elektron kitabxanaya daxil etmək olar. Nəşriyyatlar da birbaşa belə sənədləri satırlar. Baxmayaraq ki, bu komplektləşdirmə üsulu xarici ölkə kitabxanalarında hələ XX əsrin 80-ci illərindən tətbiq edilir, respublikada bu sahədə işlər zəifdir. Çünki nəşriyyatlarımız belə məhsulları hazırlamır. Xarici ədəbiyyatı deyilən formada almaq isə baha başa gəlir. Əlaqədar kitabxanada çap versiyası əsasmda belə elektron kitabları hazırlamaq çoxlu texniki avadanlıq tələb edir, mürəkkəb prosesdir və hazır şəkildə almağa nisbətən daha bahadır.

3. Pullu şəbəkə resurslarından elektron informasiyaların komplektləşdirilməsi ən vacib əhəmiyyət daşıyır. Çünki ən aktual, keyfıyyətli sənədlər məhz bu tip resurslarda mühafizə olunur. Onların çox hissəsinin ümumiyyətlə, çap versiyası olmur. Burada lisenziyalaşdırma üsulu istifadə edilir. Lisenziya müqaviləsi informasiya təchizatçısı (sahibi) ilə onun tələbatçısının əlaqələndirilməsidir. Lisenziyanın hüquqi əsası müəlliflik hüququ haqqmda qanundur. Azərbaycan Respublikasında da bu istiqamətdə "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Qanun qəbul edilmişdir. Lakin burada intellektual elektron mülkiyyətin, daha dəqiq desək, elektron informasiyaların lisenziyalaşdırılması məsələləri dolğun şəkildə öz əksini tapmamışdır. Lisenziya ilə elektron informasiyanın istifadəsinə müxtəlif şərtlər və məhdudiyyətlər qoyulur (məsələn, istifadə yeri, istifadəçi yerinin miqdarı, istifadənin yoxlanması, arxivləşdirmə (ehtiyat surətin yaradılması), arxiv materiallarına müraciət və s.

Pullu istifadə üçün hazırlanmış elektron informasiya resurslarının komplektləşdirilməsini təmin etmək üçün konkret lisenziya müqaviləsinin əsas şərtlərini qısıca olaraq göstərək [5, 107].

1. Lisenziya materialları milli və beynəlxalq qanunlarla qorunan müəlliflik və sahiblik obyektidir;

2. Elektron resurslara müraciət hüququ olan istifadəçilərin tərkibi lisenziya müqaviləsi ilə təsdiq edilir. Müraciət hüququ ancaq əlaqədar təşkilatda qoyulmuş kompüterlərə verilir;

3. Əlaqədar təşkilatın kompüterində işləmək şərtilə istifadəçilərə icazə verilir ki, axtarış, baxmaq (oxumaq) və yükləmək əməliyyatları aparsın, şəxsi istifadə məqsədilə alınmış informasiyanın çapa versin, yaxud öz kompüterinin yaddaşında saxlasın və digər informasiya daşıyıcısına keçirsin. Lisenziyası olmayan digər təşkilatların istifadəçilori elektron jurnallardakı məqalələrin mündəricatına, biblioqrafik təsvirlərinə (referat və məqalələrin tam mətni istinsna olmaqla) baxmaq (oxumaq), həmçinin digər axtarış imknlarını istifadə etmək hüququna malikdirlər;

4. Fərdi qeydiyyat şəraitində müəyyən bir istifadəçinin istifadə etdiyi informasiya digərləri üçün ümumaçıq informasiya ola bilməz. Lisenziya verən təminat verir ki, istifadəçüin razılığı olmadan onun istənilən qeydiyyat materialları reklam vermək məqsədilə istifadə edilə və icazə olmadan üçüncü şəxsə bildirilə bilməz;

5. Əlaqədar lisenziya obyekti olan saytdakı materiallar aşağıdakı hallarda birbaşa, yaxud dolayı yolla istifadə edilə bilməz:

a) geniş yaymaq məqsədilə və sistematik olaraq surətlərin alınması, yaxud nümayişi (qismən jurnalların buraxılışmm surətini çıxarmaq qadağandır);

b) kütləvi informasiya vasitələrində dərcetmə, yaxud açıq istifadə üçün İnternetdə yerləşdirmə;

c) təkrar yayma, satma, yaxud sublisenziyalaşdırma, o cümlədən pullu xidmət üçün istifadəetmə, lisenziya almış təşkilatın istifadəçi olmayan istənilən şəxsə istənilən formada sistemli şəkildə xidmət və ya təminat (fasiləsiz xidmət).

d) lisenziya əsasında istifadəsinə icazə verilmiş informasiya məhsulunun ilk elektron formatını forma və məzmunca dəyişmək, onun hər hansı bir digər elektron sistemə adaptasiya və digər dilə tərcümə edib kütləvi tirajla yayılması müəllif və digər mülkiyyət hüquqlarının pozulması hesab edilir. Lisenziya müqaviləsi informasiya məhsulunun sahibi (naşir və nəşriyyat) və çap formasında təşkilatın rəhbəri tərəfindən imzalandıqdan, möhürülə təsdiq edildikdən və alındıqdan sonra rəsmi qüvvəyə minir.

Qeyd etməliyik ki, lisenziya istifadəçi dairəsinin dəqiq qeydiyyatını və uçotunu tələb edir. Lisenziyalaşdırılmış elektron informasiya məhsullarının istifadəsində aşağıdakı qrup istifadəçilərə qiymətdə güzəşt edilir:

- tələbələr;
- professor-müəllim heyəti;
- universitetin digər əməkdaşlan və elmi işçilər;
- universitet tərkibinə daxil olmayan qeyri-kommersiya idarələrinin elmi işçiləri.

Lisenziya müqaviləsində bu hallar da nəzərə alınır:

1. İstifadəçinin avtorizasiyası (həqiqi istifadəçi imtiyazı). Bu baxımdın bir sıra cavabı mübahisəli olan suallar vardır: istifadəçinin avtorizasiyasını necə təmin etmək lazımdır, yəni lisenziya müqaviləsinə uyğun olaraq şəbəkə resursundan əlaqədar istifadəçi kateqoriyası üçün müəyyən edilmiş imtiyazların təyin və onlara əməl etmək necə təşkil edilməlidir? Məsələn, ancaq universitet işçilərinə xidmət edilirmi? Buraya ancaq daimi işləyən işçilər (ştat vahidləri) aiddirmi, universitetə ezamiyyətə gələn işçilər buraya daxildirmi? Universitetin fəxri üzvlərinə (doktorlarına) xidmət edilirmi? Əlaqədar universitetin bütün tələbələrinə, yoxsa lisenziyalaşdırılmış resursun tematikasına uyğun olan fakültələrin tələbələrinə xidmət edilir? İstifadə yerinə görə məhdudiyyət

qoyulurmu? İstifadəçilərin avtomatlaşdırılmış işçi yerləri ərazi üzrə necə yerləşdirilmişdir və avadanlıqlarla necə təchiz edilmişdir? Kitabxananın qeydiyyatdan keçmiş işçilərinə necə xidmət etməli?

2. İstifadə yerinə görə məhdudiyyət. Ən məqsədəuyğun variant ancaq kitabxananm binası daxilində istifadədir. Lakin bu tədbir tələbələr və əməkdaşlar üçün hec də həmişə əlverişli deyil. Buna görə də, əlaqədar universitetin bütün ərazisindən elektron resursa müraciət etmək üçün imkan yaradılmalıdır. Tələbə yataqxanalarından, müəyyən ərazidən elektron resurslara müraciətin təşkil edilməsi lisenziya müqaviləsində nəzərə alınmalıdır.

3. Lisenziya müqaviləsinin mətnində yazılmış xüsusi şərtlər və qeydlər. Müqavilədə lisenziya resursunun istifadə qaydalarının müəyyən edilməsi mürəkkəb məsələdir. Mütəxəssislərin fikrinə görə mövcud lisenziyalarda mənfi cəhət xüsusi şərtlərin çoxunun naşirə, yəni onun hüququnun təmin edilməsinə yönəlməsidir.

Hazırda əsas problem kitabxanaların, yaxud digər istifadəçilərin naşirlərlə müəlliflik hüququ baxımından münasibətləri tənzim etmək deyil, müəlliflərlə naşirlərin münasibətlərinin səmərəli təşkili problemidir.

Elektron kitabların və bu növə daxil edilən digər birdəfəlik nəşrlərin (soraq kitabları, lüğətlər və s.) kitabxana fondlarına alınması həm qiymət, həm də komplektləşdirmə mexanizmi baxımından xüsusi problem yaratrmr. Çünki onların komplektləşdirüməsi çap kitablarının komplektləşdirilməsi prosedurasına yaxındır. Lakin elektron kitabların qiymətləri nisbətən bahadır. Elektron kitabların formaları və alınması haqda yuxarıda qısaca deyildi.

Nisbətən mürəkkəb və hələlik tam araşdırılmamış, həll edilməmiş problem elektron jurnallara qiymətqoyma problemidir. Bu istiqamətdə naşirlər müxtəlif modelləri təcrübədən keçirir. Məsələn, elektron versiyanın çap versiyası ilə əlaqələndirilməsi, birləşdirilməsi; jurnalların mümkün istifadə yerinin lisenziyalaşdırılması; kitabxana konsorsiumları üçün xüsusi qiymətlər qoyulması və s.

Elektron jurnallara abunə qiymətini müəyyən edərkən əlaqədar naşir bir qayda olaraq, informasiya bazarında öz yerini qoruyub saxlamağa və ənənəvi (çap) nəşrlərdən gəlir əldə etməyə çalışır. Belə ki, elektron jurnalların abunə qiymətləri çap jurnallarına nisbətən bahadır, lakin onlar vasitəsilə operativ və daha geniş dairədə yəni üzaq məsafədən şəbəkə vasitəsilə müraciət etmək və bazar rəqabətində davam gətirmək mümkündür. Bazarda isə iqtisadi vəziyyət getdikcə çətinləşir: jurriallar getdikcə bahalaşır, kitabxanaların lazımi abunə vəsaiti çatmır və buna görə də, abunəçilərin çayı getdikcə azalır. Bütün bunlara görə bir sıra yeni qiymətqoyma strategiyası işlənib tətbiq edilir. Bunlar əsasən aşağıdakılardır:

1) elektron və çap jurnallarının ayrılmaz kombinasiyası. Belə halda elektron versiyasınm qiyməti qəsdən ayrılmır. Bu strategiyanı kitabxanalar daha çox dəstəkləyir;

2) elektron və çap versiyasmm kombinasiyası. Belə halda elektron versiyamn abunəsi üçün 1 çap vahidinin qiymətinə 10%-dən 20°/o-ə qədər əlavə edilir;

3) jurnalın elektron versiyasına ayrıca abunə yazılışı. Belə halda çap versiyasına abunə qiymətindən 90-95% artıq qiymət əlavə edilir. Bu strategiya nəşriyyatlar və abunə agentlikləri tərəfindən bəyənilir, kitabxanalarda isə dəstəklənmir;

4) kitabxana konsorsiumlarına elektron jurnallara abunə üçün xüsusi qiymətlər müəyyən etməyə calışırlar. Bu istiqamətdə bir neçə ümumi cəhətləri qeyd etmək olar:

a) çap versiyasmm qiymətinə əlavələr konsorsiumun üzvlərinə müqavilədə müəyyən edilmiş əlaqədar jurnalın elektron versiyalarına, bəzən də həmin nəşriyyatın bütün elektron publikasiyalarından istifadə hüququ vardır;

b) çap versiyasının abunə qiyməti baza qiyməti kimi götürülür, elektron versiyaya 15-20% əlavə edilir;

c) müqavilə 3 il müddətinə bağlanılır;

d) bəzən konsorsium üzvü olan kitabxarialarin sayına münasib olaraq abunə qiymətində güzəştlər edilir;

e) bəzən jurnalın elektron versiyasına abunə qiyməti baza qiyməti kimi götürülür və bununla çap versiyasının abunə qiymətində xeyli güzəşt edilir, yəni ancaq alıcının istəyi nəzərə alınır;

5) ayrıca məsələlərlə təchizetmə metodu (metod "плати за просмотр"). Bu metoddan istifadə etdikdə abunə qiyməti 16-20 dollar arasında dəyişir;

6) müəyyən jurnal məqaləsinin dərc edilməsi üçün kitabxanadan və oxuculardan deyil, müəllifdən (müəllifıərdən) pul almaq. Bir sıra naşirlər bu metoddan istifadə edir. Belə halda abunə üçün verilmiş pullardan 15-20%-i müəllifə (müəllıılərə) verilir. Məsələn, 1998-ci ildən buraxılan "New Journal Physics"in ("Yeni fizika jurnalı") çapında bu metod tətbiq edilir. Bu jurnal ABŞ Fizika İnstitutu və Almaniya Fiziklər Cəmiyyəti tərəfindən nəşr edilir.Müəlliflərin sayından asılı olmayaraq 1 məqalənin dərci üçün 500 dollar pul ödənilir. Jurnalın abunəçilərinin sayından asılı olaraq satışdan müəlliflərə 10-12% pul ödənilir;

7) digər qiymətqoyma metodları da vardır. Məsələn:

- müəyyən naşirin bütün jurnallarından əlaqədar mövzuda seçilmiş məqalələr toplusuna (paketinə) qoyulan qiymət. Bununla sifarişə uyğun olaraq ya elektıon, ya da çap versiyası, yaxud hər iki versiya abunəçiyə verilə bilər;

- abunəçi olan müəyyən idarədə ştatda olan əməkdaşların sayını ya elektron materiallardan eyni vaxtda (paralel) istifadə edən şəxslərin sayını, ya da həmin idarədən İnternetə müraciət edən işçi stansiyaların ümumi sayını nəzərə alaraq qoyulan abunə qiyməti;

- proqram təminatına abunəçinin əlavə ödənişi. Bu qiymət də abunə qiymətinə əlavə edilir.

Elektron jurnala abunə yazılan kitabxana və ya hər hansı bir şəxs ona baxa (oxuya), axtarış apara və ehtiyacına uyğun olaraq öz kompüterinə köçürə bilər. Kitabxanalar üçün əhəmiyyətli olan digər cəhətlər də vardır. Məsələn, əlaqədar kitabxana abunə yazıldığı elektron jurnalları pullu kitabxanalararası abonement üçün istifadə edə bilər. Abunə müddəti qurtardıqdan sonra da həmin jurnallardan istifadə edə bilər, öz elektron kitabxanasında onların arxivini yarada bilər və s.

Elektron nəşrlərin və sənədlərin, ümumiyyətlə, elektron resursların kitabxanalarda mühafizəsindən danışarkən qeyd etməliyik ki, burada müxtəlif üsullar tətbiq edilir:

Optik disklərdə (məs.: CD-ROM) olan elektron kitablar, jurnallar və digər belə sənədlərin çap əsərləri kimi biblioqrafik təsviri verilir, əlaqədar kitabxananın kartoçka və elektron kataloquna qoyulur. Bu növ sənədlərin özləri isə xüsusi qutularda mühafızə edilir. Hər bir optik diskin üzərinə etiket yapışdırılır və nəşrin adı buraya yazılır. Digər elektron resurslar (şəbəkə resursları) elektron kitabxanada ayrı-ayrı fayllar formasında mühafizə edilir. Kitabxananın elektron kataloqunda əlaqədar faylın ünvanı, adı, ona müraciət rejimi qeyd edilir. Bəzən elə olur ki, müəyyən kitabxananın komplektləşdirdiyi elektron sənədlər əlaqədar informasiya təchizatçısının elektron kitabxanasında saxlanılır, onların axtarış əlamətləri isə əlaqədar kitabxananın elektron kataloqunda mühafrzə edilir.

## ƏDƏBİYYAT

*1. Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı // Kitabxanaşünaslıq və biblioqrafiya. 2008. №2. s.7-30.*

*2. Rüstəmov Ə., Mustafayeva H. Avtomatlaşdırılmış kitabxana- informasiya sistemləri və şəbəkələri: Monoqrafiya. Bakı, 2007. s.92-193.*

*3. Арме Б. Электронные библиотеки (Перев. с англ.). Москва, 2002. 272 с.*

*4. ИСО 11/1- 96. Электронные коллекции и документы. Москва, 1995.12 с.*

*5. Хаависто Т. Лицензирование и публичные библиотеки // Науч. и техн. б-ки. 2002. № 2. С.107-113.*

## SOME METHODOLOGICAL QUESTIONS OF FORMING THE RESOURCES OF DIGITAL LIBRARIES

**A.M.RUSTAMOV**

***SUMMARY***

*The paper analyzes general metodological principles of complecting and forming digital collection, the classification of digital resoures and reveals the structure of license agreements.*

## НЕКОТОРЫЕ МЕТОДОЛОГИЧЕСКИЕ ВОПРОСЫ ФОРМИРОВАНИЯ РЕСУРСОВ ЭЛЕКТРОННЫХ БИБЛИОТЕК

**А.М.РУСТАМОВ**

***РЕЗЮМЕ***

*В статье излагаются общие методологические принципы комплектования и формирования электронной коллекции. Приводится классификация электронных ресурсов и раскрывается структура лицензионных соглашений.*

# MƏKTƏB KİTABXANALARININ İNKİŞAF PERSPEKTİVLƏRİ

**E.Y.ƏHMƏDOV**
***Bakı Dövlət Universiteti***

*Məqalə məktəb kitabxanaları məktəbin struktur quruluşunвa prioritet bir qurum kimi xarakterizə edilir, onların vəzifələri geniş şərh edilir. Həmçinin qabaqcıl iş təcrübəsi ümumiləşdirilərək məktəb kitabxanalarının inkişaf perspektivləri araşdırılır.*

Müasir məktəb kitabxanaları böyüyən nəslin təhsil və tərbiyyəsində bir sıra məqsəd və məsələlərin həyata keçirilməsi işində böyük imkanlara malikdir. Məktəb kitabxanaları ölkədə ən böyük kitabxana şəbəkəsidir. Onların sayı 5 minə yaxındır. Təhsil prosesinin ayrılmaz hissəsi olaraq onlar tədris proqramlarını, kitabları və başqa informasiya resurslarını məktəb kollektivinin hər bir üzvünə çatdırmağa borcludur. İFLA tərəfindən hazırlanan və 1999-cu ildə YUNESCO tərəfindən dəstəklənən məktəb kitabxanalarının manifestində bu kitabxanaların ixtisasçılarının əsas vəzifələri belə izah edilir: kitabdan, başqa informasiya mənbələrindən, bədii və sənədli, nəşr və elektron informasiya, lokal və məsafəli informasiyalardan istifadəni təmin etmək, dərslik və tədris materiallarında əks etdirilən məlumatları daha da dolğunlaşdırmaq.

Respublikamızda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında Azərbaycan Respublikasının Prezidentinin 2007-ci il 20 aprel tarixli 2106 saylı sərəncamının 3-cü bəndinin icrasını təmin etmək məqsədi ilə Nazirlər Kabineti 22 dekabr 2008-ci il 450 saylı sərəncam vermişdir. Sərəncama əsasən məktəb kitabxanalarının maddi-texniki bazasının möhkəmləndirilməsinin və müasir informasiya texnologiyaları ilə təchizatı məsələləri ön plana çəkilir. Bu sərəncama uyğun olaraq Təhsil Nazirliyi 19.03.2009-cu il tarixli 328 saylı əmr vermişdir. Bu əmrdə “Məktəb kitabxanalarının maddi texniki bazasının möhkəmləndirilməsi və müasir informasiya texnologiyaları ilə təchizatı”na dair tədbirlər planı hazırlamışdır. Tədbirlər planında məktəb kitabxanalarının inkişaf perspektivləri nəzərədə tutulur.

Təhsil prosesində də yeni model formalaşmaqdadır. İxtisas üzrə ali peşəkar dövlət təhsil standartlarının təsis etdiyi, əsas tədris proqramı olan “Kitabxana-informasiya fəaliyyəti”ndə qeyd edilir ki, tələbələrə ümumi, humanitar və sosial-iqtisadi intizam, ümumi peşəkarlıq intizamı və ixtisaslaşdırma intizamı öyrədilməlidir. Burada uşaqlarla işləyən kitabxanaçılar üçün kadr hazırlanması sahəsində əldə edilmiş ən gözəl ənənələrin gələcək nəslə ötürülməsi əsas məqsəd daşıyır. Bu dövrdə təhsilin əsas məzmunu əhəmiyyətli dərəcədə

dolğunlaşmış, peşə intizamına dair xeyli tədris-metodik vəsait toplanmış, çoxlu dərsliklər, elmi-metodik vəsaitlər, proqramlar yaradılmışdır ki, bunlar da elmi metodik dəyər kimi yüksək qiymətləndirilir.

Cəmiyyətin informasiyalaşdırılması, demokratikləşdirilməsi prosesləri yetişməkdə olan nəslin təhsil və tərbiyəsi, kitabxanaçı fəaliyyətinin yeniləşməsi – bütün bunlar təhsili daim mükəmməlləşdirən, təlim-tərbiyə prosesini stimullaşdıran faktorlardır. Təhsilin ən mühüm xüsusiyyəti ondan ibarətdir ki, məzunlar müasir tələblərə cavab verməyi bacarsınlar. Belə olduğu halda təhsil də aparıcı xarakter daşıyar.

Ölkənin sosial-iqtisadi, sosial-mədəni həyatındakı kordinal dəyişikliklər tədrisdə metodoloji prioritetlərin yaranmasına, tədrisdə yeni fəlsəfənin inkişafına, bütün tədris sistemini əhatə edən güclü yeniləşmə dalğasının əmələ gəlməsinə səbəb olmuşdur. Bu sistemdə humanitarlaşdırma, humanistləşmə, fundamentallaşdırma, diversifikasiyalaşdırma, təhsilin informasiyalaşdırılması kimi tendensiyalar meydana gəlmişdir. Təhsilin inkişafında ən mühüm istiqamət onun fasiləsiz olması, ardıcıllığın təmin edilməsi, məzunun cəldliyi, ixtisasçının gələcək fəaliyyətinin büsbütün modelləşməsi, tələbənin şəxsi fəallığının və yaradıcı potensialının yüksək olmasıdır. Bununla əlaqədar olaraq tədrisdə layihə-yaradıcı modellər işlənib hazırlanır. O fikir təsdiq edilir ki, təhsil təkcə "şəxsi istiqamətli" deyil, "şəxsi – inkişaf edən" olmalıdır.

Təhsil bir sistem kimi müxtəlif elementləri və onlar arasında əlaqəni özündə birləşdirir: yarımsistemlər, idarəetmə, təşkilat və kadr məsələləri və s. Onun üçün tədris proqramlarının strukturlaşdırılmasının məzmunu xarakterikdir. Təhsilin məqsədi sistem yaratmaqdır. Bu halda bizim qarşımızda belə bir sual durur: hazırkı tarixi inkişaf mərhələsində məktəb kitabxanaları cəmiyyətdən hansı mütəxəssisi tələb edir və gözləyir?

Müasir təhsil paradiqması səriştəliliyi, hərtərəfliliyi, şəxsiyyətin yaradıcı və mədəni əsaslara malik olmasını tələb edir. Bu paradiqmanın keçmiş paradiqmadan fərqli cəhəti məhz budur. Keçmiş paradiqma tədris paradiqması idi. O, biliyi, bacarığı, vərdişləri və ictimai tərbiyəni şüara çevirmişdi. Yeni paradiqma köhnəni dəyişmir. Sadəcə olaraq adət halını almış prioritetləri kölgədə qoyaraq, təhsil ideallarına daha köklü yanaşmanı məqsədə çevirir. Əvəzində tədrisin təsiri ilə az-çox nə isə "öyrənən" passiv obyekt "iştirak edən", "şəxsi biliklər" formasında təhsil alan aktiv subyektə çevrilir.

Tədris idealının əvəzlənməsi onun "mədəni-yaradıcı" ziyalı paradiqmadan, "savadlı insan", "mədəni insan" anlayışına keçməsidir. Hansı ki, bu insan öz yaradıcılığında başqasına isnad edir, başqası ilə dialoqa girməyi bacarır.

Təhsilə bir sistem kimi 3 ölçüdə baxmaq olar. Buraya daxildir: 1) baxışın sosial miqyası; 2) təhsilin mərhələləri; 3) təhsilin profili. Sistemli metodologiya peşəkar təhsilin inkişafına, müasir vəziyyətinə və onun mükəmməlləş-

dirmə problemlərinə tarixi analiz nöqteyi-nəzərindən baxmağı tələb edir. Biz məktəb kitabxanaçılarının təhsilinə məhz bu məqamdan baxmağa çalışırıq.

Bizim ölkəmizdə ali kitabxana-biblioqrafiya təhsilinin öyrənilməsi sahəsində müəyyən ənənələr mövcuddur. Bu problemlərlə kitabxanaşünas alimlər məşğul olurlar. Məktəb və uşaq kitabxanaları mütəxəsisslərinin fəaliyyəti, onların hazırlanması modelləri, ixtisasartırmaları, eləcə də uşaq və gənclərlə işləyən kitabxanaçıların ixtisasartırmalarına dair standart sənədlərin qiymətləndirilməsi mühüm əhəmiyyət kəsb edir. Kitabxanaşünas alimlər uşaqlarla işləyən kitabxana mütəxəssislərinin fəaliyyətini kompleks şəkildə öyrənmiş, bir sıra kompleks tələbatlar ayırd etmişdir ki, bu tələbatların ödənilməsi vacib hesab edilir. Onlar respublikamızda və xaricdə məktəb və uşaq kitabxanalarının işi haqqında yeni məlumatlar əldə etmiş, mədəniyyət üzrə ali məktəblərdə hazırlaşan tələbələrin tələbatlarını əsaslandırmışdır. Onların tədqiqatlarının nəticələri uşaqlarla işləyən kitabxanaçıların və mədəniyyət ali məktəblərində hazırlanan bu kadrların əməyinin sübutu üçün kəskin arqumentdir.

Bu sahədə əsas problemlərdən biri də məktəb və uşaq kitabxanalarında tələbə və məzunların peşəkar-pedaqoji fəaliyyətində adaptasiya prosesini keçməsidir. Bu problemə nəzəri və təcrübi aspektlərdən baxılmalıdır. “Adaptasiya”, “sosial adaptasiya”, “peşəkar-pedaqoji adaptasiya” anlayışları dəqiqləşdirməli, məktəb məzunlarının adaptasiya dövrünün çətinliklərini ortaya çıxarmalı və bu proseslərin peşəkar-pedaqoji hazırlıq və məktəb kitabxanalarının iş şəraitindən asılı olduğunu araşdırmalıdır.

Böyüməkdə olan nəsillə işləyən kitabxana mütəxəsisslərinin təhsil problemlərinə geniş və çoxaspektli baxılmasına böyük ehtiyac var. Bu mütəxəssislərin hazırlanmasında tarixi-metodoloji təcrübənin analizi göstərir ki, xaricdən götürülən təcrübə təhsilin müxtəlif modellərinin yaranması və inkişafı prosesini nəzarətdə saxlamağa, keçmiş dərslərin müasir şəraitdə istifadə edilməsi perspektivlərinin funkisiyalarını proqnozlaşdırmağa imkan verir.

Müasir şəraitdə məktəb kitabxanaları mütəxəssislərin təhsil sisteminin inkişafına nəzəri və metodik əsaslarda baxılmasını qarşıya vəzifə kimi qoyur. Gələcək mütəxəssislərin təhsilinin məzmununu kitabxanaların yeniləşmiş fəaliyyəti və ixtisasartırma baxımından analiz etməyi vacib sayır, tələbə hazırlanmasında yenilik və ənənələri, məzunların peşəkar-pedaqoji fəaliyyət hazırlığını göstərməyi vacib bilir. Uşaqlarla və gənclərlə işləyən uşaq ədəbiyyatı kafedralarının işinə xüsusi diqqət yetirilir, çünki bu kafedralar gənc nəsillə işləyən mütəxəssislərin hazırlanması sisteminin inkişafına böyük və sanballı təsir göstərə bilər.

Məktəb və uşaq kitabxanaçılığı problemlərinə tarixi və yaradıcı nöqteyi-nəzərdən yanaşdıqda əvvəlcə yaranma, sonra quruluş və inkişaf məsələlərinə baxılır. Daha sonra ölkəmizdə və xaricdə böyüyən nəsillə işləyən mütəxəssislərin təhsil sisteminin formalaşması tendensiyalarına baxılır.

Ali kitabxana-biblioqrafiya təhsilinin yeniləşməsi strategiyası mürəkkəb, çoxaspektli kompleks məsələdir, hansı ki, onun həlli uzun zaman və güclü mütəxəssis zəhməti tələb edir. Bir çoxları hətta elmi fikirlərin öyrənilməsini də gözləyir. Buna görə də kitaba, həm də geniş biliklərin öyrənilməsinə giriş kimi də baxmaq olar. Burada böyüməkdə olan nəsillə işləyən kitabxanaçı kadrların peşəkar hazırlığı öz əksini tapır. İnanmaq istəyirik ki, təqdim edilən bu iş ənənəvi kitabxanaçı təhsilinin ən yaxşı ənənələrinin çiçəklənməsinə və onun inkişaf perspektivlərinin dərindən başa düşülməsinə xidmət edəcək.

Müasir məktəb kitabxanalarının əsas missiyası İFLA-nın hazırladığı və YUNESCO-nun 1999-cu il Baş Assambleyasında dəstəklədiyi "Məktəb kitabxanaları haqqında manifest"də öz əksini tapmışdır. Bu sənəddə deyilir: "Kitabxana əməkdaşları kitabdan və başqa informasiya mənbələrindən, nəşr və elektron sənədlərdən, lokal və məsafəli istifadəni təmin etməlidir. Bu materiallar dərslik və dərs vəsaitlərində olan material və metodik işləmələri daha da dolğunlaşdırmalı və informasiya qəbulunu genişləndirməlidir."

Kitabxana-informasiya sisteminin daha geniş və ayrılmaz hissəsi olaraq məktəb kitabxanalarının təlim prosesi aşağıdakı məsələləri nəzərdə tutur:

- məktəb və məktəb proqramı konsepsiyasında formalaşdırılan təhsil məsələlərini dəstəkləmək və təmin etmək;
- Uşaqlarda öyrənmək və mütaliə vərdişlərini dəstəkləmək və inkişaf etdirmək, kitabxanadan bütün ömrü boyu istifadəni təbliğ etmək;
- İnformasiyadan inkişaf və bilik əldə etmək məqsədindən əlavə, həm də məmnunluq üçün də istifadənin təmin olunma imkanlarını üzə çıxarmaq və inkişaf etdirmək;
- İştirakçılar tənqidi qiymətləndirmə vərdişlərini mənimsəməyi informasiyanın növündən, format və daşıyıcılarından asılı olmayaraq əldə etməyi və təcrübəyə tətbiq etməyi ictimaiyyət içərisində kommunikasiya qaydalarına xüsusi diqqət yetirməyi öyrətmək;
- Yerli regional, milli və beynəlxalq resurslara daxil olmanı təmin etmək, eləcədə də iştirakçılara müxtəlif ideya təcrübə və fikirlər verə biləcək bütün digər imkanlarından istifadə etməyi təmin etmək;
- Mədəni və sosial özünüdərk və emosional inkişafa kömək edən tədbirlər təşkil etmək;
- Məktəblə bağlı məsələlərin həllində iştirakçılarla, müəllimlərlə, inzibatçı və valideyinlərlə işləmək.
- İnformasiyaya sərbəst daxilolma və intellektual azadlıq demokratik prinsiplərə əsaslanmış fəal vətəndaş tərbiyəsinin mühüm şərtidir – fikrini nəzərə almaq.
- Mütaliəni təbliğ etmək, resursları məktəb daxilində olduğu kimi məktəbin xaricində də təbliğ etmək.

Əməkdar elm xadimi professor A.A.Xələfov qeyd edir ki, kitabsız təhsil olmadığı kimi, kitabxanasız də məktəb yoxdur.

Hazırkı şəraitdə məktəb kitabxanalarının və kitabxaçısının yeni obrazı yaranır. "Məktəb kitabxanası" jurnalının baş redaktoru, Rusiya məktəb kitabxanaçıları Assosiyasının Prezidenti T.D.Jukova qeyd edir ki, məktəb kitabxanalarına müasir təhsil müəssələrinin, müəllim və şagirdlərin peşəkar inkişafına intellektual qida rolunu oynayan, sistem yaradan bir element kimi baxılır. Məktəb kitabxanaları inkişaf edərək məktəb ətrafında sürətli dəyişikliklər edir. Təhsilin yeni modelləri məktəb kitabxanalarında yeni modellər tələb edir.

"Məktəb kitabxanası" qəzetinin redaktoru O.K.Qromova müxtəlif ümumtəhsil müəssələrində kitabxanaların funksiyalarından danışır. Belə ki, gimnaziya, lisey istiqamətli siniflərə malik olan xüsusi məktəblərdə, bir neçə fənlərin dərin öyrənilməsində dərs prosesində məqsəd təkcə informasiya dəstəyi almaqdan ibarət deyil. Kitabxanalar sorğu, elmi-populyar dövri nəşrlər təqdim edir, məlumat biblioqrafik aparat (kataloq, kitab fondu əsasında mövzu kartotekası və başqa informasiya daşıyıcıları, tövsiyə siyahıları və s.) təşkil edir, mədəniyyətə dair informasiyanın formalaşmasını təmin edir, KAA vasitəsilə lazımi sifariş edir. Bundan əlavə kitabxanalarda maariflǝndirmə və mütaliəyə cəlb etmə funksiyalarını yerinə yetirir, mütaliənin analizi işini aparır.

Məktəbin təlim-tərbiyə işləri ilə əlaqədar olaraq kitabxanalarda sinif rəhbərləri dərs hissə müdirləri ilə əməkdaşlıq edərək müxtəlif tədbirlər həyata keçirirlər. Ümumtəhsil məktəblərinin kitabxanaları da əsasən həmin funksiyaları yerinə yetirir, amma ən çox və təhsil işlərinə diqqət ayırır. Onların fəaliyyəti üçün təhsil prossesini dərsliklərlə təmin etmək, metodik və əlavə ədəbiyyat məktəbin ümumi planına uyğun olaraq təlim tərbiyə işlərində iştirak etmək, mütaliənin analizi və şagirdləri proqramdankənar mütaliəyə cəlb etmək (sərgilər təşkil etmək, bayramların keçirilməsi, yazıçılarla görüş və başqa kollektiv iş formaları) mədəni informasiyanın inkişafı, kitabxana-biblioqrafik biliklərin əsasları məktəb daxilində kitabxanaçıların valideynlərlə işi xarakterikdir.

Qəsəbə və kənd məktəb kitabxanaları çox vaxt sosial mədəni mərkəz rolunu oynayır. Onlar təhsil prosesini dərslik və başqa kitablarla təmin etməkdən əlavə tərbiyəvi, mədəni-maarif işləri və valideynlərlə işlə də məşğul olurlar. Kənd kitabxanaçıları uşaqlarla işdə əsas diqqəti fərdi tərbiyəyə yönəldirlər, relaksasiya və qeyri formal ünsiyyət mərkəzi rolunu oynayırlar. Uşaq evləri, uşaqlar üçün internat evləri, valideyin himayəsindən məhrum olan uşaq evləri kitabxanalarında yalnız pedaqoji iş həyata keçirilir. Mütəxəssislər məktəbin sosial-mədəni mərkəz kimi rolunu da qeyd edirlər.

Məhdud imkanlı uşaqların internat məktəblərində və xüsusi məktəblərdə kitabxanalar hər şeydən əvvəl uşaqların sosiallaşması mərkəzi rolunu oynayır. Belə kitabxanalarda əsas diqqət təhsil prossesinin informasiya ilə təminatıdır. Burada mütəxəssislərdən müxtəlif dərsliklərdən aldığı biliklərdən əlavə, əqli

zəif uşaqlarla işləmək üçün tərbiyənin hüquqi əsaslarını bilməsi də tələb edilir. Belə kitabxanalarda məlumat-biblioqrafik aparatını xüsusi qaydada təşkil etmək və bunun əsasında da fondu düzmək lazımdır. Kitabxanaçının lazımi dərəcədə pedaqoji, psixoloji, defektoloji cəhətlərinin çatışmazlığı, belə uşaqların psixi və intellekt xüsusiyyətlərini bilməməsi bu kitabxanalarda uşaqlara kitabxana xidmətini aşağı səviyyəyə salır. Gələcək mütəxəsislərin psixoloji-pedaqoji hazırlığı üçün MDMİU-nin kitabxanaçılıq-informasiya fakültəsində E.O.Samoxina tərəfindən "Uşaq kitabxanalarında korreksiya tərbiyəvi iş" adlı müxtəlif kurslar keçirilir. Eləcə də "Korreksiya-tərbiyəvi işin təşkili" adlı biblioqrafik göstərici işlənib hazırlanmışdır. Bu göstərici kitabxanaçı təcrübəçilər və öz peşəkar hazırlığını inkişaf etdirmək istəyənlər üçün nəzərdə tutulur.

Məktəb kitabxanaçılarının hazırlanmasında təkcə məktəb kitabxanalarının müxtəlif tiplərini deyil, həm də qabaqcıl kitabxana təcrübəsini də nəzərə almaq lazımdır. Hazırda bu təcrübə aşağıdakı peşəkar nəşrlərdə əks etdirilir: "Məktəb kitabxanası" jurnalı, "Məktəb kitabxanası qəzeti", "Kitabxana" jurnalı və s. Bir çox məktəb kitabxanaçılarının yaradıcı işləri "BibleObraz" adlı ümumtəhsil müəssisələrinin ümumrusiya müsabiqəsinə təqdim edilmişdir. Bu müsabiqə 2001-2003-cü illərdə Rusiya Federasiyasının Təhsil Nazirliyi və Rus dilinin inkişafı Mərkəzi ilə birgə keçirilmişdir. Müsabiqə kitabxanaçıların yaradıcı işlərinin ortaya çıxarmaq informasiya-texnoloji proqramlarını istiqamətləndirmək, mədəni-maarifin perspektivlərini reallaşdırmaq, daha perspektivli modellərlə işləyən kitabxanaçıların iş təcrübəsini genişləndirmək, kitabxanaların dövlət və ictimai təşkilatlarla birgə faaliyyətini təşkil etmək, təhsil sferasında kitabxana və kitabxanaçılıq sənətinin hörmətini qaldırmaq məqsədilə keçirilib. RF-dan 89 məktəb kitabxanası müsabiqənin iştirakçıları olmuşdur. Aşağıdakı nominasiyalarda işlər yerinə yetirilmişdir. "Dialoq", "Naviqator", "Rodnik", "Perspektiva", "Dünyaya pəncərə".

"Dialoq" nominasiyasında məktəb kitabxanalarının məktəb inzibatçıları, pedaqoji kollektiv və valideynlər ilə effektiv fəaliyyəti təqdim edilir. Burada kitabxana xidmətinin orjinal, yeni formaları şagirdlərin qeyri-ənənəvi şəkildə kitabxanaya cəlb edilməsi, onlarda mütaliəyə marağın yaradılması, şagirdlərdə şüurun və yaradıcı fəallığın inkişafı açılıb göstərilir.

Qeyd etmək lazımdır ki, müsabiqə iştirakçıları yüksək nəzəri və metodik hazırlıq səviyyəsi nümayiş etdirirdilər. Onların hamısı əsasən kitabxana təhsilli idilər. Onların peşəkarlığı gənc oxucularla işə yaradıcı yanaşmalarında, mütaliə vasitəsilə şagirdi şəxsiyyətə çevirməyə istiqamətləndirilən iş metodlarında, uşaq yaşlarından başlayaraq kitab və qeyri-kitab sənəd növlərinə onların marağını artırmaq bacarığında özünü göstərirdi. Peşəkar kitabxanaçı üçün fəaliyyət istiqamətinin çoxluğu xarakterikdir. Uşağın kitab mədəniyyətinə və müxtəlif incəsənət növlərinə münasibəti, uşaqların yaş həddini nəzərə alaraq mütaliə dairəsinin formalaşdırılması, inkişaf edən mütaliə proqramının real-

laşdırılması, oxucuların mənəvi və estetik inkişafı, hisslərin tərbiyəsi və bədii ədəbiyyat yaradıcılığı.

Azərbaycanın məktəb kitabxanaçılarında peşəkarlıq səviyyəsinin yüksək olaması onların yeniliklərlə zəngin olan fəaliyyətindədir, hansı ki, onlar aşağıdakı kimi xarakterizə edilir:

- Şagirdlərin inkişafında fəal mütaliə təcrübəsinə dair unikal müəllif proqramlarının yaradılması;
- Uşaqların hərtərəfli inkişafına və onların yaradıcı oxuculara çevrilməsinə müsbət təsir göstərən predmet-estetik informasiya əhatəsinin yaradılması;
- Təhsilin təlim-tərbiyə prosesinə informasiya dəstəyi göstərmək;
- Yetişən nəslin informasiya mədəniyyətinin inkişafında yeni informasiya texnologiyalarından ən vacib şərt kimi istifadə etmək;
- Tədqiqat fəaliyyəti.

Son illər respublikamızın yeni tipli məktəblərində kitabxanaların informasiyalaşdırılmasına böyük diqqət yetirilir. Onların bir çoxu yeni bölmələr açaraq, onu elektron oxu zalı, mediateka, mediazal və s. adlandırırlar. Bu bölmələr audiovizual materiallardan və maşınla oxunan informasiya daşıyıcılarından istifadə etmək üçün xüsusi avadanlıqlarla təchiz edilir və bu şəraitə uyğun fond təşkil edilir.

Respublikamızın müasir təhsil kompleksində mediateka mütəxəssisləri mədəni-maarif, tədris və sorğu funksiyalarını yerinə yetirir. Onların fəaliyyətinin əsas prioritetləri: böyüməkdə olan nəsli dünya mədəniyyəti inciləri ilə tanış etmək, tədris prosesinə kömək, informasiya mədəniyyətinin inkişafı, təhsil əsasında şəxsiyyətin tərbiyəsi, inkişafından və mədəni videoproqram, audiomateriallar, informasiyanın elektron daşıyıcıları və İnternet resursları. Yeni yaradılmış kitabxana bölmələrində yaxşı hazırlanmış mütəxəssislər çalışmalıdır. Mədəniyyət yönlü ali məktəblərdə tələbələrin müasir texnologiyalarla işləməsi məsələlərinə ciddi diqqət yetirmək lazımdır.

Peşəkar kitabxanaçıların fəaliyyətini analiz edərkən görünür ki, müasir şəraitdə onların ixtisası olduğu kimi qalır, lakin onların fəaliyyətinin məzmunu və əmək şəraiti dəyişir. Bununla əlaqədar olaraq məktəb kitabxanası mütəxəssislərinin tələblərinə kompleks yanaşılmalı, onların ixtisasartırma xarakteristikalarına əlavələr və dəyişikliklər etmək lazımdır.

Məktəb və uşaq kitabxanaçısı peşəsinin öyrənilməsi, bu mütəxəssislərin professioqram və modelinin yaradılması tədqiqatların əsas predmetidir. Bu mütəxəssislərdə bilik, bacarıq, peşəkar-şəxsi keyfiyyətlər birləşməlidir. Professioqram və ixtisasartırma xarakteristikasından bir hissə: "Kitabxanaçı-biblioqraf fəliyyətində peşəkar obyekt, bir tərəfdən maarif və mədəni bilikləri özündə əks etdirən kitabxanalar, kommunikasiya sistemlərini təşkil edən başqa müəssisələr, cəmiyyətin informasiya resurslarıdırsa, digər tərəfdən uşaqlar, gənclər və onların mütaliə inkişafı ilə məşğul olan müəllim və tərbiyəçilərdir.

Mütəxəssisin peşəkar fəaliyyətində əsas məqsəd uşaq və yeniyetmə dövründə mütaliə və yaradıcılıq yolu ilə şəxsiyyətin formalaşması, bu oxucuların tələblərini maksimum dərəcədə ödəməkdir."

Kitabxanaçı-biblioqraf uşaq və yeniyetmələrlə iş zamanı hərtərəfli – həm kitabxanaçı, həm biblioqraf, həm informasiyalı, həm metodik, həm elmi tədqiqatçı, həm də idarəetmə qabiliyyətinə malik olmalıdır.

## ƏDƏBİYYAT

1. *Məktəb kitabxanaları manifesti. Москва, 2001. 4 s.*
2. *Məktəb kitabxanaları. Москва: Rudominko, 1997. 64 s.*
3. *İvanova G.A. Məktəb kitabxanaları. Москва, 2003. 287s.*
4. *Xələfov A. Kitabxanaşünaslığa giriş: Dərslik: h.3. Bakı, 2003. 314 s.*
5. *Xələfov A. Ölkəmizdə kitabxana işinin inkişaf strategiyası // Respublika. 2007. 25 aprel.*
6. *Xələfov A. XXI əsrin əvvəllərində Azərbaycanda kitabxana işinin əsas inkişaf istiqamətləri. Bakı, 2006. 109 s.*

## THE PERSPECTIVES OF SCHOOL LIBRARIES

**E.Y.AHMADOV**

***SUMMARY***

*The article characterizes school libraries as important part of school. The author analyzes the mission of present school libraries, as well as the criteria defining the perspectives of their development.*

## ПЕРСПЕКТИВЫ РАЗВИТИЯ ШКОЛЬНЫХ БИБЛИОТЕК

**Е.Ю.АХМЕДОВ**

***РЕЗЮМЕ***

*В статье школьные библиотеки характеризуются как органическая часть школы. Анализируются миссия школьных библиотек в современный период, параметры определяющие перспективы развития этих библиотек.*

# KİTABXANALARIN BEYNƏLXALQ ƏLAQƏLƏRİNDƏ QEYRİ-HÖKUMƏT TƏŞKİLATLARININ İŞTİRAKI

**M.Ə.MƏMMƏDOV**
***Bakı Dövlət Universiteti***

*Məqalədə son illərdə respublikamızda gedən demokratik dəyişikliklərdən, bütün sahələrdə olduğu kimi kitabxana işi sahəsində də qeyri-hökumət təşkilatlarının yaranmasından və onların fəaliyyətindən bəhs edilir. Məqalədə kitabxana işi sahəsində yaranmış qeyri-hökumət təşkilatlarının kitabxana quruculuğu sahəsində vəzifələrinin şərhinə də geniş yer verilmişdir.*

Müstəqillik illərində Azərbaycan Respublikasında baş verən demokratik dəyişikliklər ölkə kitabxanalarının beynəlxalq əlaqələrinə geniş şərait yaratmışdır. Bu əlaqələrin inkişafında beynəlxalq kitabxana təşkilatlarının (Kitabxana Assosiasiyalarının Beynəlxalq Fedarasiyası – İFLA, Avrasiya Kitabxanaçılıq Assambleyası – BEA, ABŞ Kitabxanaçılıq Assosiasiyası və s.) gücündən məharətlə istifadə edilir. Qeyd edək ki, ilk beynəlxalq kitabxanaçılıq assosasiyası 1876-cı ildə Amerika Birləşmiş Ştatlarında, bir il sonra isə Böyük Britaniyada yaradılmışdır. Hazırda demək olar ki, bütün inkişaf etmiş ölkələrdə kitabxanaçılıq assosiasiyaları fəaliyyət göstərir. Təkcə ABŞ Kitabxanaçılıq Assosiasiyası 11 bölmədə fəaliyyət göstərir. Bura daxildir: 1) Amerika məktəb kitabxanalarının assosiasiyası; 2) Ali məktəb kitabxanalarının assosiasiyası; 3) Xüsusiləşmiş və kooperasiya edilmiş kitabxana agentliklərinin assosiasiyaları; 4) Ümumi kitabxanaların assosiasiyası; 5) Rəhbər kitabxana işçilərinin assosiasiyası; 6) Kitabxanalarda informasiya texnikası və texnologiyasının tətbiqi mütəxəssislərinin assosiasiyası 7) Uşaqlara kitabxana xidməti assosiasiyası və s.

Amerika kitabxanaçılıq assosiasiyasının bir neçə modeli vardır. Bu model nəzərdə tutur ki, müxtəlif qrupları əhatə edən bütün növ kitabxana-informasiya işini əhatə edən vahid assosiasiya yaradılsın.

Dünyanın ən böyük kitabxanaçılıq assosiasiyalarından biri də 1877-ci ildə İngiltərədə yaradılmışdır. Bu beynəlxalq təşkilatın məqsədi kitabxana işində çalışan şəxslərin ictimai birliyini qurmaq və kitabxana işinin inkişafı üçün əlverişli şərait yaratmaqdır. Böyük Britaniya kitabxanaçılıq assosiasiyası dünyanın bir çox ölkələrinin eyni adlı təşkilatları ilə sıx əlaqə saxlayır və Beynəlxalq Kitabaxanaçılıq Assosiasiyası Federasiyasının işində fəal iştirak edir.

Ümumiyyətlə, kitabxana işi sahəsində aparılan beynəlxalq əməkdaşlıq əslində müxtəlif ölkələrin müvafiq hökumətlərarası və qeyri-hökumət beynəl-

xalq təşkilatlarının iştirakı ilə həyata keçirilir. Hazırda dünyada 7-yə qədər belə beynəlxalq təşkilat fəaliyyət göstərir. Onları bu şəkildə qruplaşdırmaq olar:

1. Təhsil Elm və Mədəniyyət üzrə Birləşmiş Millətlər Təşkilatı (YUNESKO). 1946-cı ildən fəaliyyət göstərən bu beynəlxalq təşkilat BMT-nin 13 ixtisaslaşdırılmış idarələrindən biridir. YUNESKO ictimai istifadənin əsas prinsipinə xüsusi önəm verir. Bura daxildir: azad fikir, təhsildə bərabərlik, ictimai mülkiyyət kimi informasiyadan azad istifadə, dillərin və ayrı-ayrı mədəniyyətlərin müxtəlifliyinin qorunması.

Hazırda dünyanın 186 ölkəsi YUNESKO-nun üzvüdür. Azərbaycan Respublikası 1992-ci il iyunun 3-dən bu beynəlxalq təşkilatın üzvüdür.

YUNESKO 1947-ci ildən başlayaraq kitabxanalar üçün bülleten çap edir. İlk öncə bu bülleten ingilis, fransız dillərində, 1953-cü ildən ispan, 1957-ci ildən rus,1970-ci ildən isə ərəb dilində çap edilərək yayılır.

1949-cu ildə YUNESKO kütləvi kitabxanalar haqqında manifest qəbul etmişdir. Manifestdə müharibədən sonrakı dövr üçün kütləvi kitabxanaların vəzifələri və fəaliyyət istiqamətləri müəyyənləşdirilmişdir. YUNESKO hazırda bu sahədə fəaliyyətini uğurla davam etdirir.

2. Kitabxana assosiasiyalarının və idarələrinin beynəlxalq federasiyası (IFLA). Dünya kitabxanalarının beynəlxalq təşkilatı olan İFLA 30 sentyabr 1927-ci ildə Böyük Britaniyanın Edinburq şəhərində yaradılmışdır. İFLA öz fəaliyyətini iki tipə ayrılan bölmələrdə həyata keçirir: 1) 8 şöbədə birləşən 32 bölmə və 11 "Dəyirmi masa"dan ibarət peşəkar qruplar; 2) beynəlxalq proqramların həyata keçirilməsinə məsul olan qruplar.

İFLA-nın Xidmət və fond şöbəsi əsas şöbələrdən biri hesab olunur. Şöbənin 5 bölməsi vardır: komplektləşdirmə və kitab mübadiləsi; kitabxanalararası abonement və sənədlərin çatdırılması; rəsmi nəşrlər və dövlət informasiya; seriyalı nəşrlər; nadir və qiymətli nəşrlər

1987-ci ildə keçirilən 53-cü konfransda (Brayton) İFLA-nın orta müddətli proqramına uyğun olaraq milli və beynəlxalq abonementə kömək məqsədilə nəşrlərin ümumi istifadəsinin mümkünlüyü hesab edilmişdir.

Hazırda 13-dən çox ölkənin kitabxanaçılarını təmsil edən 1000-dən çox kollektiv və fərdi şəxslər İFLA-nın üzvüdür. Federasiyaya prezident, icraedici büro və peşəkar büro rəhbərlik edir. Hər il İFLA-nın baş şurasının iclası keçirilir. Onun katibliyi Haaqada yerləşir. İFLA-nın fəaliyyəti kitabxana işinin bütün nəzəri və təcrübi aspektini, bütün tip kitabxanaların (milli kitabxanalardan məktəb kitabxanalarına qədər) hamısının işini əhatə edir. İFLA Kitabxana işi haqqında tədqiqatlar aparır. Beynəlxalq kitabxanaçılıq standartlarına dair layihəyə işləyir, "Universal biblioqrafik uçot" (UBU); "Milli informasiya sistemi (HATİC); "Nəşrlərin ümumaçıq olması" (YAP) və s. bu kimi beynəlxalq əlaqəli layihələrin işlənməsində və həyata keçirilməsində iştirak edir.

İFLA ildə 4 dəfə ("İFLA Journal") jurnal nəşr edir, illiklər, məlumat kitabları və məcmuələr buraxır.

Keçmiş sovet kitabxanaları 1959-cü ildən İFLA-nın tədbirlərində iştirak edir və SSRİ Mədəniyyət Nazirliyi nəzdindəki Dövlət Kitabxanalararası Komissiyanın kitabxanaçılıq şurası ilə təmsil olunurdular.

Dünya kitabxana işini əlaqələndirən, bu sahənin inkişafında böyük xidmətləri olan İFLA hər il illik konfrans keçirir. Dünyanın demək olar ki, bütün ölkələrinin kitabxana təşkilatlarının və informasiya xidməti ilə məşğul olan bir sıra digər qurumların iştirakı ilə keçirilən bu forum hər il dünyanın bir ölkəsində keçirilir və burada həmin fəaliyyət sahəsinin ən aktual məsələləri müzakirə olunur.

2010-cu ildə İFLA-nın növbəti 67-ci konfransı avqust ayının 15-dən 25-dək ABŞ-ın Boston şəhərində keçirilmişdir. Konfransda dünya kitabxana ictimaiyyətini təmsil edən 149 ölkədən gəlmiş 5530 nümayəndə və 2000-ə yaxın digər iştirakçı qatılmışdı ki, bu İFLA-nın keçirdiyi ən böyük tədbiri olmuşdur. 2005 və 2006-cı illərdə İFLA-nın növbəti konfransları müvafiq olaraq Norveçin paytaxtı Oslo və Koreyanın paytaxtı Seul şəhərində keçirilmişdir. Qeyd edilməlidir ki, hər 3 konfransda respublikamızı Azərbaycan Kitabxana İşinin İnkişafı Assosiasiyası, növbəti konfranslarda isə Prezident Administrasiyası İşlər İdarəsinin Kitabxanası təmsil etmişdir.

İFLA-nın beynəlxalq KAA üzrə Bürosu 1988-ci ildə "Beynəlxalq kitabxanalararası abonementin və fotosurət çıxarma mərkəzlərinin qısa məlumat kitabı" adlı vəsaitləri çap etdirmişdir. Axırıncı vəsait 90 ölkənin KAA xidməti haqqında informasiyanı özündə əks etdirir. Burada həmçinin mərkəzi toplu kataloqlar, beynəlxalq KAA üzrə sorğuların göndərilməsi üçün ünvanlar, xüsusi qeydlər, məhdudiyyətlər və s. verilmişdir. 1994-cü ildə bu nəşrin yenidən işlənmiş variantı: "Kitabxanalararası abonement və sürətçıxarma üzrə nümunəvi məlumat kitabı" çap edilmişdir. Vəsait inkişaf etməkdə olan ölkələrin kitabxalarında KAA xidmətinə kömək məqdəsilə nəşr edilmişdir.

Hazırda İFLA xarici ölkə kitabxanalarının qarşılıqlı inkişafının etalon modelini (ASİ) hazırlayıb tətbiq edir. Bu model şəbəkənin 7 qarşılıqlı inkişaf səviyyəsini müəyyən edir: fiziki, kanallı, şəbəkəli, nəqliyyatlı, seanslı, məlumatın verilməsi səviyyəsi və tətbiqi, hər bir səviyyə üçün qarşılıqlı inkişafı təmin edən bir neçə xidmət protokolu işlənib hazırlanmışdır. Birinci səviyyə məlumatın xarakterindən asılı olmayaraq, müxtəlif kompüter sistemlərini əlaqələndirir. Yeddinci- tətbiqi səviyyə isə konkret hadisələrlə əlaqədar işlənib hazırlanır.

3. Beynəlxalq kitabxanaçılıq təşkilatı (MBO). Bu təşkilat kitabxana işçilərinin və digər marağı olanların birliyidir. Məqsədi kitabxana işini inkişaf etdirmək, bu sahədə biblioqrafik və beynəlxalq əlaqə yaratmaqdır.

4. Kənd təsərrüfatı kitabxanaları üzrə kitabxanaçıların və sənədşünasların birliyi (MASBD). Bu təşkilat 1955-ci ildə yaradılmışdır və İFLA-ya, Beynəlxalq sənədşünaslıq federasiyasına daxildir, eyni zamanda YUNESKO ilə əlaqə saxlayır.

5. Musiqi kitabxanalarının arxivlərin və sənədlər mərkəzlərinin beynəlxalq assosiasiyasının (İAML) əsası 1951-ci ildə qoyulmuş və beynəlxalq musiqi şurasına daxildir.

6. Standartlaşdırma üzrə beynəlxalq təşkilat (MOC). Bu təşkilat 1946-cı ildə yaradılmışdır, 73 ölkənin milli komitələrini birləşdirir və 3 ildə 1 dəfə sessiya keçirir. Onun icra komitəsi və baş katibliyi Londonda yerləşir.

7. Sənədşünaslıq üzrə Beynəlxalq Federasiya (MDF). Onun əsası 1895-ci ildə Brüsseldə görkəmli Belçika biblioqrafı Anri Lafonten və Pol Otle tərəfindən Beynəlxalq Biblioqarfiya İnstitutu kimi qoyulmuşdur. O, 1931-ci ildən beynəlxalq sənədşünaslıq institutu 1938-ci ildən isə Sənədşünaslıq üzrə Beynəlxalq Federasiya adlanır. Hazırda MDF dövlət orqanı olmayan təşkilatdır. Elmi-texniki informasiya sahəsində çalışan təcrübəçiləri və nəzəriyyəçiləri, aparıcı informasiya mərkəzlərini və kitabxanaları birləşdirir, eyni zamanda təsnifləşdirmə məsələlərinin işlənməsi (xüsusən UOT) ilə məşğuldur. Bu təşkilatın icra orqanı müxtəlif ölkələrin kənd təsərrüfatı kitabxanaları və mərkəzi informasiya orqanları arasında əlaqə yaradır, rüblük bülleten nəşr edir.

Bütün bunları qeyd etməkdə məqsədimiz ondan ibarətdir ki, dünya ölkələrində kitabxana assosiasiyaların (təşkilatların və cəmiyyətlərin) yaradılmasının 100 ildən çox tarixi vardir. SSRİ məkanında 1990-cı illərdən sonra bu proses həyata keçirilməyə başlamış və SSRİ-nin dağılmasından sonra bütün müttəfiq respublikalarda kitabxana cəmiyyətləri və assosiasiyaları yaradılmışdır. Bu təşkilatlar kitabxana işinin inkişafında yaxından iştirak edir, beynəlxalq təşkilatların bərabərhüquqlu üzvü kimi dünya kitabxana ictimaiyyəti ilə əlaqələr qurular. Respublikamızda da bu sahədə bir sıra işlər görülmüş və son illərdə 3 qeyri-hökumət təşkilatı yaradılmışdır.

Azərbaycanda bu sahədə ilk təşəbbüs Əməkdar elm xadimi, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, tarix elmləri doktoru, prof. Abuzər Xələfova məxsusdur. Belə ki, 1990-cı ildə prof. A.Xələfovun başçılığı ilə Azərbaycan Kitabxanaçılar Cəmiyyətinin yaradılması üçün təşəbbüs qrupu yaradılmış və gələcək birliyin Nizamnamə layihəsi "Mədəni-maarif işi" jurnalında (1990, №3) dərc olunmuşdur. Lakin 90-ci illərdə baş verən ictiami-siyasi dəyişiliklər və digər obyektiv səbəblərdən bu təşəbbüs baş tutmamışdır. Buna baxmayaraq prof. A.Xələfov bu sahədə fəaliyyətini davam etdirmiş, bütün lazımi sənədləri hazırlayaraq 1999-cu ildə Ədliyyə Nazirliyinin qeydiyyat şöbəsinə təqdim etdirmişdir. Həmin il mart ayının 19-da nazirliyin kollegiya iclasında cəmiyyətin qeydiyyat məsələsinə baxıldığı zaman məlum olmuşdur ki, digər bir təşəbbüs qrupu da Azərbaycan Kitabxana

İşinin İnkişafı Assosiasiyasının yaradılması haqqında müvafiq sənədləri Ədliyyə Nazirliyinə təqdim etmişdir. Eyni vaxtda iki peşəkar birliyin qeydiyyata alınması üçün nazirliyə təqdim edilmiş sənədlər kollegiya üzvləri tərəfindən birmənalı qarşılanmadı. Lakin kollegiya iclasında iştirak edən Azərbaycan Kitabxanaçılar Cəmiyyətinin təmsilçisi prof. A.Xələfovun izahatından sonra qərara alındı ki, birinci cəmiyyət ilkin olaraq qeydə alınsın, ikincinin qeydiyyata alınması məsələsinə isə nizamnamədə və təşəbbüs qrupunun tərkibində olan bəzi uyğunsuzluqlar düzəldikdən sonra baxılsın. Beləliklə, ölkəmizdə ilk dəfə bütün kitabxana ictimaiyyətini birləşdirən qeyri-hökumət təşkilatı kimi Azərbaycan Kitabxanaçılar Cəmiyyəti fəaliyyətə başlamışdır.

Azərbaycan Kitabxanaçılar Cəmiyyətinin qarşısına qoyduğu əsas məqsəd və vəzifələr Nizamnamədə qeyd edildiyi kimi: ölkədə kitabxana işinin dünya standartları səviyyəsində qurulması, kitabxana işinin demokratikləşdirilməsi, onların maddi-texniki bazasının möhkəmləndirilməsinə, beynəlxalq təşkilatlara inteqrasiya olunması, əhaliyə kitabxana xidmətində mövcud olan nöqsanların aşkara çıxarılması, kitabxana işçilərinin peşə səviyyəsinin yüksəldilməsi, kitabxanaşünaslıq informasiyaya dair elmi əsərlərin çapı, respublikada kitabxana işinin inkişafının elmi konsepsiyasının yaradılmasına və s. nail olunmasıdır.

Azərbaycan Kitabxanaçılar Cəmiyyətinə üzvlük fərdi və kollektiv ola bilər. Cəmiyyətin Nizamnaməsini qəbul edən və onun işlərində iştirak edən hər bir şəxs cəmiyyətin üzvü ola bilər. Cəmiyyətə kollektiv üzvlərin qəbulu "Cəmiyyətdə kollektiv üzvlük haqqında" əsasnaməyə uyğun aparılır. Cəmiyyətə daxil olmaq istəyən şəxs idarə heyətinə yazılı şəkildə müraciət edir. Ərizəyə təqdim edildiyi gündən bir ay müddətində baxılır və idarə heyəti üzvlərinin yarıdan çoxu müsbət münasibətini bildirdikdə ərizəçi cəmiyyətin üzvlüyünə qəbul edilir. İdarə, müəssisə, təşkilatların əmək kollektivləri cəmiyyətin kollektiv üzvü ola bilər.

Cəmiyyət üzvlərinin aşağıdakı hüquqları var:

- Nizamnamədə və başqa sənədlərdə nəzərdə tutulmuş qaydada cəmiyyətin idarəçiliyində iştirak etmək;
- cəmiyyətin hər hansı seçkili orqanına seçmək və seçilmək;
- cəmiyyətin təşkil etdiyi tədbirlərdə iştirak etmək;
- cəmiyyətin seçkili orqanının və vəzifəli şəxslərinin fəaliyyəti barədə məlumat almaq;
- cəmiyyətin hər hansı orqanının işində məşvərətçi səslə iştirak etmək;
- cəmiyyət üzvlərinin fəaliyyətinə dair idarə heyəti qarşısında məsələ qaldırmaq, habelə kitabxana işinin mühüm məsələləri barədə təkliflər irəli sürmək;
- cəmiyyətin təsis etdiyi təqaüdləri, mükafatları almaq;
- cəmiyyətin sosial-məişət xidmətindən istifadə etmək.

Cəmiyyətin üzvləri aşağıdakı vəzifələri daşıyırlar;

- cəmiyyətin nizamnaməsinə əməl etmək;
- cəmiyyətin seçkili orqanlarının qərarlarını yerinə yetirmək;

Bütün bunlar göstərir ki, "Azərbaycan Kitabxanaçılar Cəmiyyəti" tam demokratik şəraitdə fəaliyyət göstərir və beynəlxalq kitabxana birliklərinin iş təzrübəsindən faydalanmağa çalışır.

Respublikamızda kitabxana ictimaiyyətini birləşdirən ikinci qeyri-hökumət təşkilatı Azərbaycan Kitabxana İşinin İnkişafı Assosiasiyasıdır (AKİİA). 1999-cu il iyunun 2-də Ədliyyə Nazirliyində qeydə alınmış assosiasiyanın idarə heyətinin ilk iclasında Bakı Dövlət Universiteti Kitabxanaçılıq-informasiya fakültəsinin dekanı, prof. X.İsmayılov Azərbaycan Kitabxana İşinin İnkişafı Assosiasiyasının ilk prezidenti seçilmişdir.

Respublikamızın kitabxana informasiya təminatı sahəsində fəaliyyət göstərən mütəxəsislərini və təşkilatlarını öz sıralarında birləşdirən AKİİA az bir zaman ərzində bu sahədə ölkəmizdə ictimai quruma çevrilmişdir. Öz sıralarında 400-ə yaxın fərdi üzvü və 6 kollektiv üzvü birləşdirən AKİİA öz qarşısına ölkəmizdə kitabxana işinin mövcud vəziyyətini təhlil edərək onun perespektiv inkişafı barədə tövsiyələr hazırlamaq, həm yerli mütəxəssislərin bilik və bacarığını, həm də digər ölkələrin qabaqcıl təcrübəsini öyrənməklə kitabxana işi sahəsində əhəmiyyətli texniki və texnoloji irəliləyişə, bu sahədə demokratik islahatların aparılmasına, kitabxanaçı-biblioqraf peşəsinin nüfuzunu yüksəltmək, bu sahədə kadr ehtiyatlarından səmərəli istifadə etmək, istehsalatda çalışan mütəxəsislərin fasiləsiz təhsilini təşkil etmək və s. bu kimi vəzifələr qoymuşdur. Bu işləri AKİİA respublikamızın bir çox aparıcı kitabxanaları və mütəxəssisləri, eləcə də digər ölkələdəki həmkarları ilə sıx əməkdaşlıq şəraitində həyata keçirir. Təsadüfi deyil ki, kitabxana işi sahəsində dünyanın ən böyük təşkilatı olan İFLA 2000-ci ildə AKİİA-nı öz sıralarına həqiqi üzv kimi qəbul etmiş və ona öz şurasında 8 səslə səsvermə hüququ vermişdir.

Azərbaycanda kitabxana işinə fəaliyyət göstərən 3-cü qeyri-hökumət təşkilatı "Gələcəyin kitabxanası" ictimai birliyidir. Bu ictimai təşkilat 2007-ci ildə Azərbaycan MEA Mərkəzi Elmi Kitabxanasının əməkdaşı, fəlsəfə doktoru Şəfəq İsmayılova tərəfindən yaradılmışdır.

"Gələcəyin kitabxanası" İctimai Birliyinin (GKİB) əsas məqsədi kitabsevərlərin səylərini birləşdirmək, müasir kitabxana sisteminin formalaşması və inkişafında onların qarşılıqlı fəaliyyətini əlaqələndirmək və bu əsasda birliyin intelektual və mənəvi potensialının artması işinə xidmət etməkdir. Buraya həmçinin Azərbaycanda müasir tələblərə cavab verən kitabxana işinin təşkili və inkişafına dair konsepsiya, proqram və digər sənədlərin hazırlanması; kitabxana işinə dair elmi tədqiqatların və metodik tədbirlərin həyata keçirilməsi; cəmiyyətin intellektual və mənəvi potensialının inkişafına yönəldilmiş maarifçilik fəaliyyətinin təşkili; elm, informasiya, təhsil, mədəniyyət və tərbi-

yə fəaliyyəti sahəsi kimi müasir tələblərə cavab verən kitabxana sisteminin yaradılması; kitabxana işi sahəsində qabaqcıl təcrübəni, eləcə də müasir modellərin öyrənilməsi və onların Azərbaycanda tətbiq olunma imkanları barədə təkliflərin hazırlanması; milli və dünya mədəniyyəti sərvətlərinə yiyələnməyə yönədilən informasiya sisteminin yaradılması; qeyri-dövlət kitabxanalarının formalaşması və inkişafına yönədilmiş fəaliyyətin təşkili; qəzet, jurnal və digər kütləvi informasiya vasitələrinin təsis edilməsi, kitablar, broşuralar, bülletenlər, məruzələr, çalışmaların hazırlanması və nəşr etdirilməsi; Azərbaycan hakimiyyət orqanları, qeyri-hökumət təşkilatları, beynəlxalq təşkilatlar və xarici ölkələrin müvafiq təşkilatları ilə əlaqələrin yaradılması, beynəlxalq ictimai birliklərə daxil olunması, kitabxana səmərəliliyinin artırılmasına dair birgə tədbirlərin həyata keçirilməsi, təcrübə mübadiləsi keçirilməsi, müvafiq sazişlərin bağlanması və digər məsələlər daxildir.

"Gələcəyin kitabxanası" İctimai Birliyinin "Kitabxana.az" jurnalı müntəzəm olaraq nəşr edilir. Öz səhifələrində kitabxana işinin müasir məsələləri ilə bağlı aktual elmi və kütləvi materiallara geniş yer ayıran bu elmi-nəzəri və təcrübi jurnalın baş redaktoru fəlsəfə doktoru Şəfəq islamova, redaktoru isə fəlsəfə doktoru Knyaz Aslandır.

Beləliklə, uzun illər hec bir peşəkar ictimai birliyi olmayan 30 minlik Azərbaycan kitabxana ictimaiyyətinin birdən-birə 3 müstəqil ictimai birliyi yaradılmışdır ki, bu da cəmiyyətdə gedən köklü dəyişikliklərin tələblərinə uyğun olaraq kitabxana işinin yaxın gələcəkdə yeni müstəviyə çıxacağına təminat yaratmışdır. Belə ki, hər üç ictimai birliyin qarşısına qoyduğu əsas məqsəd və vəzifələr Azərbaycanda kitabxana işinin standartlar səviyyəsində qurulmasına, kitabxana işinin demokratikləşdirilməsinə, dünya kitabxanaçılıq birliklərinə inteqrasiya olunmasına, kitabxanaların peşə nüfuzunun yüksəldilməsinə və s. nail olunmasıdır. Onların qeyri dövlət-təşkilatı kimi əsas məqsədi Azərbaycanda kitabxana işi təşkilinin demokratik cəmiyyət quruculuğu prinsiplərinə uyğunlaşdırılmasına nail olmaq, beynəlxalq əlaqələrin yaradılmasında, kitabxana işinin hüquqi bazasının formalaşdırılmasında və digər işlərdə fəal iştirak etməkdir.

## ƏDƏBİYYAT

*1. Aslan K. Dünya kitabxanaları tarixi: Dərs vəsaiti. Bakı: Bakı Universiteti Nəşriyyatı, 2010. s.412-418.*

*2. Azərbaycan Kitabxana İşinin İnkişafı Assosiasiyasının Nizamnaməsi // Kitabxaşünaslıq və biblioqrafiya: Elmi-nəzəri, metodik və təcrübi jurnal. Bakı, 1998. №2. s.19-26.*

*3. Baxşəliyev Z. Azərbaycan Kitabxana İşinin İnkişafı Assosiasiyası beynəlxalq təşkilatın – İFLA-nın üzvüdür // Kitabxanaşünaslıq və biblioqrafiya. Bakı, 2000. №2. s.122-126.*

*4. Xələfov A.A. Azərbaycan MEA Mərkəzi Elmi Kitabxanası müstəqillik illərində // Kitabxanaşünaslıq və biblioqrafiya. Bakı, 2004. №2. s.3-11.*

*5. Xələfov A.A. Kitabxanaşünaslığa giriş. Bakı, 2001. 398 s.*

*6. İsmayılov X. Azərbaycan Beynəlxalq konfransda təmsil olunur // Kitabxanaşünaslıq və biblioqrafiya. Bakı, 1998. №2. s.5-9.*

*7. İsmayılov X., Məmmədov Ə. Azərbaycan kitabxana mütəxəssisləri İFLA-nın konfransında // Kitabxanaşünaslıq və biblioqrafiya. Bakı, 2000. №2. s.133-139.*

*8. Əhmədov E. Kitabxanaların hüquqi təminatında beynəlxalq əməkdaşlığın rolu // Kitabxanaşünaslıq və biblioqrafiya. Bakı, 2009. №1. s.41-45.*

*9. Məmmədov Ə. Fransa və Azərbaycan: Kitabxana mütəxəsisləri arasında professional əlaqələr // Kitabxanaşünaslıq və biblioqrafiya. Bakı, 2003. №1. s.96-108.*

## PARTICIPATION OF NON-GOVERNMENTAL ORGANIZATIONS IN INTERNATIONAL RELATIONS OF LIBRARIES

**M.A.MAMMADOV**

***SUMMARY***

*The article deals with the activity of non-governmental organizations (NGO) in librarianship and analizes the activity of NGO of Azerbaijan and their work in international relations.*

## УЧАСТИЕ НЕПРАВИТЕЛЬСТВЕННЫХ ОРГАНИЗАЦИЙ В МЕЖДУНАРОДНЫХ СВЯЗЯХ БИБЛИОТЕК

**М.А.МАМЕДОВ**

***РЕЗЮМЕ***

*В данной научной статe дана информация о неправительственных организациях в области библиотечной деятельности об их работе, также анализирована деятельность НПО республики, и их работы в области международной связи.*

# ƏBDÜLQƏNİ NUXƏVİ KİTABXANASI

**P.F.KAZIMİ**
***Bakı Dövlət Universiteti***

*Məqalədə XIX əsrdə yaşayıb-yaratmış Azərbaycanın görkəmli maarifpərvər yaradıcı ziyalısı Əbdülqəni Nuxəvinin şəxsi kitabxanası,onun fondunda saxlanılan nadir kitablar haqqında, kitabxananın maarifçilik fəaliyyəti haqqında məlumat verilmişdir.*

Yüzilliklər boyu kitab mədəniyyətinin inkişafı və geniş vüsət tapması nəticəsində ayrı-ayrı mədrəsə və məscidlərdə, hökmdarların saraylarında və elmi mərkəzlərdə, kitabxanalar, müxtəlif alimlərin, ədiblərin, kitabşünasların və başqa sənət sahiblərinin evlərində şəxsi kitab kolleksiyaları yaradılmağa başlamışdır. Mənəvi irsimizin çoxaldılmasında və yayılmasında, mühafizəsi və təbliğində, tədrisində və öyrənilməsində, eləcə də müxtəlif fəlakətlərdən qoruyub zamanəmizə çatdırılmasında həmin kitabxanaların və kolleksiyaların əvəzsiz rolu olmuşdur. Göstərilən istiqamətlərdə uzun müddət ümumi kitabxana kimi fəaliyyət göstərmiş mənəvi sərvət xəzinələrindən biri də Əbdülqəni Nuxəvi Xalisəqarızadənin yaratdığı zəngin kitab kolleksiyasıdır.

Bu mövzu ilə əlaqədar prof. A.A.Xələfov və tədqiqatcı alim K.Şərifli öz tədqiqatlarında geniş məlumat vermişlər. Hazırkı məqalədə qeyd olunan alimlərin elmi əsərlərindən mənbə olaraq istifadə edilmiş və Ə.Nuxəvinin şəxsi kitabxanasının taleyi haqqında bir mənzərini üzə çıxarmağa calışmışıq.

Şərqin və qərbin bir sıra klassikləri müxtəlif dövrlərdə eyni bir fikri ayrı-ayrı dillərdə ifadə edərək demişlər ki, şair üçün ən yaxşı abidə onun yaratdıqlarıdır. Onlardan çox-çox əvvəl qədim Misir müəllifi isə bu haqda belə demişdir: «Yazıçının kitabı – bu onun ehramıdır». Bu sözləri Əbdülqəni Nuxəvi Xalisəqarızadə haqqında da deyə bilərik. Böyük alim gözünün nuru və işgüzar iti qələmilə, əqlinin və zəkasının hikmətilə, xalqına qarşı olan alovlu məhəbbətinin odu ilə, və yaratmış olduğu zəngin elmi irslə yanaşı, təşkil etdiyi böyük bir kitabxana ilə özünə ölməz bir abidə qoyub getmişdir. Əbdülqəni Nuxəvi elmi və pedaqoji fəaliyyəti ilə yanaşı kitabşünas kimi də böyük işlər görmüşdür. Onun bütün şüurlu həyatı kitab mədəniyyətimizin toplanması, qorunub saxlanması, inkişafı və yayılması ilə sıx surətdə bağlı olmuşdur. Alimin yaratmış olduğu zəngin kitabxana Azərbaycan klassikləri ilə yanaşı Şərqin ən görkəmli mütəfəkkirlərinin əsərlərini əhatə edən böyük bir xəzinə olmuşdur. Kitabxananın əsasını Əbdülqəni Nuxəvinin ulu nənəsi Xalisə qarı qoymuşdur. Sonralar Xalisə qarının övladları tərəfindən kitabxana daha da zənginləşdirilmişdir. Əbdülqəni Nuxəvi isə onu böyük bir mənəvi sərvət xəzinəsinə çevir-

mişdir. Həmin xəzinədən dövrümüzədək gəlib çatmış əlyazmaları mədəniyyət tariximizin tədqiqində və öyrənilməsində ən dəyərli məxəzlər kimi istifadə edilir. Həmin biliklər və mənbələr isə hələ qədim zamanlardan bəri ayrı-ayrı alimlər, ədiblər, kitabşünaslar və başqa sənət adamları tərəfindən müxtəlif həcmli şəxsi kitabxanalarda toplanaraq, nəsildən-nəslə verilmişdir. Bu kitabxanaların bir çoxu müharibələr və təbiət hadisələri nəticəsində məhv olmuşsa da, digər qismi dövrümüzə qədər gəlib çatmışdır. Ə.Nuxəvinin AMEA-nın Əlyazmalar İnstitutunda qorunub saxlanılan kitab fondunun yorulmaz tədqiqatçısı K.Şərifli zəngin informativ materialı üzə çıxarmış XIX əsrdə bu kitabxananın oynamış olduğu, sosial mədəni rolu geniş təsvir etmişdi.

Hələ gənc yaşlarından kitaba böyük həvəs göstərən Əbdülqəni Nuxəvi mədrəsələrdə dərsliklələ ilə yanaşı bir sıra əsərlərin üzünü köçürərək, öz kitabxanasına gətirməyə, sonralar isə kitabları ayrı-ayrı adamlardan pul ilə alıb toplamağa başlamışdır. Alim həm ali təhsil alarkən, həm də Şərq ölkələrində səfərdə olarkən Şəkiyə böyük miqdarda əlyazma və çap kitabları alıb gətirmişdir. Həmin kitablardan bizə gəlib çatanların titul vərəqlərində İstanbul, İsgəndəriyə, Qahirə, Məkkə, Mədinə və başqa şəhərlərdə Əbdülqəni Nuxəvi tərəfindən alındığı qeyd edilmişdir. Bununla bərabər o, özündə iki və daha çox nüsxəsi olan əsərləri, başqa kitab həvəskarları ilə özündə olmayan kitablara dəyişdirməklə də öz kitabxanasını zənginləşdirmişdir. Bununla bərabər, bir sıra maarifpərvər şəxslər alimin yaratmış olduğu bu elm ocağına çoxlu kitablar hədiyyə vermişlər. Məsələn, Əbdülqəni Nuxəvi bir əlyazma toplusunda yazır ki, müəllimlər tərəfindən istifadə etmək üçün bu kitabı mənə Hacı Əbdülhüseyn verdi. Alimin kitabxanasından bizə çatmış əlyazmaların titul vərəqlərində ara-sıra belə yazılara rast gəlirik. Bu da onu göstərir ki, Xalisəqarızadənin topladığı kitablar və yaratdığı kitabxana yalnız onun öz ailəsinə yox, geniş xalq kütləsinə xidmət etmiş və xalqın maariflənməsində ciddi rol oynamışdır. Bu kitabxana əlyazmaların toplandığı sadəcə bir ev yox, geniş xalq kütləsinin istifadəsinə verilmiş bir elm ocağı olmuşdur. Vətənpərvər alim xalqının maariflənməsi naminə yazıb-yaratdığı əsərlərlə bərabər, öz vəsaiti hesabına müxtəlif elm sahəsinə dair alıb topladığı kitabları da öz xalqı üçün əsirgəməmişdir.

Alimin kitabxana dəftərlərindən məlum olur ki, o, hicri 1251-ci ildən (1835) etibarən ömrünün axırınadək hər il oxucuların istifadəsinə böyük miqdarda kitablar vermişdir. Yalnız hicri 1253-cü il ərzində (1837) o, ayrı-ayrı oxucuların istifadəsinə 200-ə qədər müxtəlif elm sahələrinə dair kitablar vermişdir. Bununla da o, maarifi xalq kütlələri arasında mümkün dərəcədə geniş yaymaq üçün əlində olan bütün imkanlar və vəsaitləri onların xidmətinə vermişdir. Xalqına göstərdiyi bu misilsiz xidmətlərə görə o, geniş kütlə içərisində böyük nüfuza və hörmətə malik olmuşdur.

Xalisəqarızadə öz kitabxanasını zənginləşdirməklə bərabər, orada olan kitabların uçotuna və mühafizəsinə xüsusi diqqət yetirmişdir. O, kitabxanadan

oxucuların istifadəsinə verilən əsərlərin və onların müəlliflərindən adlarını, oxucunun adını, əsərin cildini, əlyazma, yaxud çap kitabı olduğunu, əgər oxucu Şəkidən yox, başqa kənd və əyalətlərdəndirsə, həmin kəndin, yaxud əyalətin adını oxucunun adının yanında qeyd etmişdir. Oxucu istifadə üçün götürdüyü kitabı geri, kitabxanaya qaytardıqdan sonra, Əbdülqəni Nuxəvi həmin oxucunun adının üstündən xətt çəkmişdir. Əgər kitabxana dəftərində hər hansı bir oxucunun adı qaralanmayıbsa, deməli o, istifadə üçün götürdüyü kitabı bir daha kitabxanaya qaytarmamışdır. Alimin yazmış olduğu kitabxana dəftərində belə hallara rast olunur.

Əbdülqəni Nuxəvi kitabxanasında topladığı əlyazmaların mühafizəsinə, sistemləşdirilməsinə və təbliğinə böyük əhəmiyyət verdiyi kimi onların bərpasına da xüsusi diqqət yetirmişdir. Onun yaratdığı mənəvi sərvət xəzinəsində olan kitabların bir qismi oxucular tərəfindən çox istifadə edildiyinə görə, digər qismi isə sabit iqlim şəraitində saxlanmadığına görə rütubətdən və təbii təsirlərdən xarab olurdu. O, əlyazmaların bərpa edilmə üsullarını hələ gənc yaşlarından öyrənmişdir. Onun hicri 1248-ci ildə 16 yaşında ikən bərpa etdiyi əlyazma toplusu göstərir ki, o, hələ məktəbdə oxuyarkən bu sahədə müəyyən təlim almışdır. Gənc kitabşünas bu əlyazmanın ayrı-ayrı vərəqlərini və mətnlərini səliqə ilə bərpa edərək, vərəqlərin dağılmış hissələrini kəsib, oraya yeni kağız parçaları əlavə etmiş və imkan daxilində qədim mətni saxlamağa çalışmışdır. Bərpası mümkün olmayan, həddindən artıq çox xarab olmuş vərəqələri isə yeniləri ilə əvəz edərək, mətni olduğu kimi yeni salınmış vərəqə yazmışdır. Alim bərpa zamanı əvvəlki mətnin haşıyələrində olan qeydləri kənarlarına yazmağı unutmamışdır. Onun hicri 1261-ci (1845) ildə bərpa etdiyi orta əsr Azərbaycan tərcümə ədəbiyyatının ən dəyərli nüminələrindən biri olan Məqsudinin «Möcüznamə» mənzum əsərinin əlyazması xüsusilə diqqəti cəlb edir. Tərcümə abidəsinin bu əlyazması alimə çox pis vəziyyətdə gəlib çatmışdır. Əlyazmanın cildi və vərəqlərinin bir qismi rütubətdən və mikroorqanizmlərin təsirindən, eləcə də fizioloji təsirdən təlәf olmuşdur. Bir sıra vərəqlər isə tamamilə dağılıb tökülmüşdür. Nisbətən salamat olan vərəqlərin haşiyələrini bərpa edərək, mətn olan hissələrinə toxunmamışdır. Hətta o, ancaq bir parçası salamat qalmış vərəqi bərpa edərkən, həmin parçanı ayırmayaraq, qədim nüsxədə saxlamışdır. Bununla da alim qədim nüsxəni imkan daxilində mühafizə edib, olduğu kimi müasir oxuculara çatdırmağa çalışmışdır. Əlyazmanın cild qabıqlarının xarab olmuş kənarlarını və bükülən hissələrini dəri ilə haşiyələrək, bərpa etmişdir. O, əlyazmanın cildi və kağızı ilə yanaşı onun mətnini də diqqətlə bərpa etmişdir. Əlyazmanın tamam xarab olub düşmüş vərəqlərini yenisi ilə əvəz edərək, mətnin həmin hissəsini yazmışdı. Alim hər hansı bir əsərin cild və vərəqlərini bərpa etdikdən sonra, onun mətnini əsərin digər nüsxələri ilə müqayisəli surətdə bərpa etmişdir. O, əsərin mətnini tam şəkildə öyrənərək, orada olan katib xətalarını izah etmiş və ancaq bundan sonra əsərin bərpa

edəcəyi hissəsini yazmışdır. Bunu alimin yeni həyat verdiyi o cümlədən hicri 1256 (1840) ildə bərpa etdiyi əlyazma toplusunda yazdığı qeyd sübut edir: «Təshih və mütaliə etməklə kitabın və digər haşiyələrin tələf olan və ehtiyac duyulan hissələrini 1256-ci ildə Əbdülqəni Nuxəvi yazdı».

Xalisəqarızadənin kitabxanasından dövrümüzədək gəlib çatmış yazılı abidələr sırasında çox diqqət və qayğıkeşliklə bərpa edilmiş belə əlyazma kitabları kifayət qədər çoxdur. Burada onu da qeyd etmək lazımdır ki, hazırkı dövrdə, elmin müasir nailiyyətləri əsasında bərpa edilən əlyazmalar tezliklə mikroorqanizmlərin təsirinə məruz qalırsa, Əbdülqəni Nuxəvinin 160-170 il bundan öncə bərpa etdiyi yazılı abidələr indiyədək sağ-salamat qalmaqdadır. Bu da onu göstərir ki, o, keçmiş yüzilliklərdə kitabçılıq sahəsində uzun müddət təcrübədən keçirilmiş və tərkibi bizə məlum olmayan material və metodlardan istifadə etmişdir. Bununla da alim xalqımızın mədəniyyət tarixinin ayrı-ayrı mərhələlərinə işıq saçan yazılı abidələrin qorunub saxlanması və gələcək nəsillərə çatdırılması yolunda əvəzsis işlər görmüşdür.

Xalisəqarızadənin bizə gəlib çatmış əlyazma kitablarından və kitabxana dəftərindən məlum olur ki, onun kitabxanasında Xaqani Şirvaninin, Nizami Gəncəvinin, Şeyx Mahmud Şəbüstərinin, Şah İsmayıl Xətainin, Məhəmməd Füzulinin, Əhmədi Təbrizinin, Şəms Təbrizinin, Saib Təbrizinin, Yusif Məddahın, Şihabəddin Sührəverdinin, Nəsirəddin Tusinin, A. Bakıxanovun, Cəlaləddin Qəzvininin, Sibaveyhin, Zəməxşərinin, Firuzabadinin, Əlişir Nəvainin, Uluğ bəyin, Biruninin, Katib Çələbinin, İsmayıl Cövhərinin, Cəlaləddin Ruminin, Firdovsinin, Hafizin, Sədinin, İmruu- l- Qeysin, Kəb bin Zuheyrin, Mütənəbbinin, İbn Xəldunun, İbn Sinanın, Fərabinin və onlarla digər Azərbaycan və Şərq klassiklərinin əsərləri, eləcədə bir sıra şifahi xalq yaradıcılığı nümunələri olmuşdur. Minlərlə kitabı olan bu mənəvi sərvət xəzinəsinin ancaq az bir qismi bizə çatmışdır.

1920-ci ildə müstəqil Azərbaycan Demokratik Cümhuriyyəti devrilərək bolşeviklər hakimiyyəti ələ keçirdikdən sonra, xalqımızın qabaqcıl ziyalarının və mübariz vətənpərvər övladlarına qarşı yönəldilmiş repressiyalarla yanaşı mədəniyyətimizə qarşı da hücumlar başlamışdır. Bu hücumların ən dəhşətlisi və ən faciəlisi xalqımızın maddi-mədəniyyət abidələrinə qarşı törədilmiş vəhşiliklər olmuşdur. Azərbaycan xalqının zəngin mədəniyyətinin darmadağın edilməsinə yönəldilmiş bu vəhşiliklər nəticəsində Bakıda, Şamaxıda, Şəkidə, Gəncədə, Naxçıvanda və yurdumuzun digər şəhər və rayonlarında, milli mədəniyyət abidələrimizin tərkib hissəsini təşkil edən məscidlər yerlə yeksan edilmiş, anbarlara və idman saraylarına çevrilmişdir. Dünya mədəniyyətinə ölməz əsərlər vermiş Azərbaycan zəkalarının yaratdığı mənəvi irsin məhvinə doğru yənəldilmiş cinayət yuxarıda göstərilən hücumların ən dəhşətlisi olmuş və xalqımıza sağalmaz yaralar vurmuşdur. «Quran»a və islam dinlinə qarşı mübarizə şüarı altında, ərəb əlifbası ilə yazılmış bütün kitablar, orta əsr əlyaz-

maları qadağan edilərək, uzun yüzilliklər boyu xalqımızın bu əlifba da yaratmış olduğu zəngin mənəvi irsə və onunla birlikdə şair, ədib və alimlərin əsərlərinə, şifahi xalq ədəbiyyatı nümunələrinə, kitab mədəniyyətimizin əvəzedilməz orta əsr incilərinə, təsviri miniatür incəsənətinə və s. ölüm hökmü elan edilmişdir. Bolşevik rejiminin apardığı qırğınlar nəticəsində qorxu insanların iliyinə işlədiyinə görə, hər adam evində olan kitabları gizlətməyə cəsarət etməmişdir. Kitabların bir qismi evlərdən toplanaraq, tonqallarda yandırılmış, digər qismi isə ayrı-ayrı şəxslər tərəfindən gecələr, gizlicə çaylara tökülmüş, qəbirstanlıq və meşələrdə basdırılmış, mal damlarında, salamat qalmış məscidlərin əl çatmaz yerlərində, pirlərdə gizlədilmiş, iki divar arasına düzülərək hörülmüşdür. Zəngin mədəniyyətimizə qarşı aparılan bu sui-qəsdin əsas məqsədi 1929-cu ilə qədər yaradılmış mənəvi irsi tamamilə məhv etmək və beləliklə, xalqın tarixi keçmişinin üstündən bir qara xətt çəkmək, onun kimliyini şübhə altına alınmaqdan ibarət olmuşdur.

K.Şərifli qeyd edir ki, mənəvi irsimizin başına gətirilən faciənin şahidləri yaşlı nəsil içərisində az deyildir. Onlardan biri də Azərbaycan MEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitunun yaradıcılarından biri, tanınmış alim, şair, tərcüməçi və klassik Şərq ədəbiyyatının gözəl bilicisi Məmmədağa Sultanovdur. O, 1930-cu illərin dəhşətlərindən və orta əsr yazılı abidələri ilə bağlı əhvalatlardan həyəcansız danışa bilmirdi. M.Sultanov mənəvi sərvətimizə qarşı törədilən «soyqrım» haqqında aşağıdakıları danışırdı: «1930-cu illərdə deyirdilər ki, ərəb əlifbası əksinqilabi əlifbadır, onunla yazanlar xalq düşmənləridir. Odur ki, həmin əlifba ilə yazılmış kitablar məhv edilməli, ona rəğbət göstərənlər isə proletariatın düşmənləri kimi həbs olunmalıdır. Böyük qorxu içərisində yaşayan xalqın bir qismi, öz canlarını cəlladların əlindən qurtarmaq üçün evlərində olan kitabları könüllü təhvil verir, onlar isə həmin kitablardan tonqal qalayırdılar. Xalqın kitabı böyük məhəbbətlə sevən digər qismi isə şəxsi kolleksiyalarında olan mədəniyyət abidələrini, yaxın gələcəkdə geri qaytarmaq ümidi ilə meşə və qəbiristanlıqlarda basdırmış, salamat qalmış məscid və mal damlarında gizlətmiş, iki divar arasına düzərək hörmüş, bəziləri isə suya tökmüşlər.

1950-ci illərdə İçəri şəhərdə bir divarın arasından çoxlu miqdarda əlyazmalarından heç birini xilas etmək mümkün olmamışdır. Azərbaycan xalqının mənəvi irsi ilə yanaşı, Dağıstan xalqlarının yaratmış olduqları mədəniyyət abidələri də beləcə məhkum olunmuşdu.

M.Sultanov danışırdı ki, «1930-cu illərdə Dağlıq Qarabağda yerləşən bir pirdə çoxlu miqdarda əlyazma kitabları gizlədildiyi haqqında 1960-cı ilin əvvəllərində bizə xəbər verildi. Biz soraqlaşa-soraqlaşa gedib həmin piri tapdıq, lakin orada heç bir kitaba rast gəlmədik. Yerli əhali arasında apardığımız sorğudan aydın oldu ki, bir neçə il əvvəl burada olan kitabların

hamısını ermənilər yığı Matenadarana apardılar. Həmin kitabların aqibəti hələ indiyədək heç kəsə məlum deyildir».

1940-cı illərdə Axund Mir Məhəmməd Kərim Mircəfərzadə, Salman Mümtaz, Vəli Xuluflu və neçə-neçə digər Azərbaycan ziyalılarının özləri ilə bərabər onların yaratdığı və topladığı kitablara da ölüm hökmü verilmişdir. Belə hökmün «urbanlarından»biri də Əbdülqəni Nuxəvi Xalisəqarızadənin zəngin kitabxanası olmuşdur. 1920-ci ildə ölkəmizdə hakimiyyəti ələ keçirən dinsiz və imansız bir rejim, əsrlər boyu insan zəkasının yaratdığı şəfqətli və işıqlı abidələrə əl qaldıra bildi. Hazırda Əlyazmalar İnstitutunda saxlanılan cildləri qopmuş və ya çürümüş, vərəqləri və ya özü dağılmış, vərəqləri rütubətdən saralmış, qurdlar yemiş, alovların amansız dilindən xilas olsa da bir hissəsi yanaraq «şikəst» olmuş əlyazma abidələrini gördükcə onların hansı şəraitdə saxlandığı və hansı «məhrumiyyətlərə» məruz qaldıqlarını təsəvvür etmək o qədər də çətin deyildir. Əbdülqəni Nuxəvinin kitabxanasından əldə edilmiş əlyazmalar arasında da belə «yaralı» abidələr az deyildir. Bəs bu abidələr alimin kitabxanasından necə əldə edilmişdir?

Əbdülkərim İmanzadənin verdiyi məlumata görə XX əsrin ilk onilliklərində Salman Mümtaz və V.Xuluflu Əbdülqəni Nuxəvinin kitabxanasından çoxlu əlyazmalar aparmışdır. Lakin həmin abidələr bir daha kitabxanaya qaytarılmamışdır. Əbdülkərim İmanzadə qeyd edir ki, Əbdülqəni Nuxəvinin kitabxanasından əlyazma və əski çap kitablarını arabalara dolduraraq aparıb meydanda yandırdıqlarını mən öz gözlərimlə görmüşəm. Onun dediyinə görə kitabxanadan mal damında, evin çardağında gizlədilmiş və ayrı-ayrı əllərdə qalmış əlyazmaları bu faciədən xilas olmuşdur. Onun kitabxanasına mənsub olan onlarla əlyazmaları Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Ə.Dəmirçizadənin kolleksiyasından əldə edilmişdir. Alimin kitabxanasından olan 30-a yaxın əlyazma isə Mingəçevirdən vaxtilə ondan təlim almış tələbəsinin kolleksiyasından, bir sıra əlyazması isə Azərbaycanın müxtəlif bölgələrindən tapılaraq gətirilmişdir.

Deyilənlərlə yanaşı qeyd etməliyik ki, Şəkidə ayrı-ayrı adamların kolleksiyasında nəinki Əbdülqəni Nuxəvinin kitabxanasına aid olan əlyazmalar, hətta onun bir sıra əsərlərinin əlyazmaları da vardır. Həmin əsərlərdən biri Şərq poetikasına həsr edilmişdir. S.İmanzadə tərəfindən iki nəfis tərtibatı əlyazma kitabı S.Peterburqdan «Ermitaj» muzeyinə verilmişdir. Alimin əlyazmalarından Dağıstanda, S.Peterburqun Saltikov-Şedrin adına kitabxanada, eləcə də Türkiyə kitabxanalarında çoxlu nüsxələr saxlandığı müəyyən edilmişdir. Əbdülqəni Nuxəvinin kitabxanasından ayrı-ayrı əllərdə qalmış əlyazmaların axtarışı indi də davam etdirilir. Hal-hazırda Xalisəqarızadənin kitabxanasından Azərbaycan MEA Füzuli adına Əlyazmalar İnstitutunda Azərbaycan və başqa Şərq klassikləri əsərlərinin yüzlərlə dəyərli, bəzilərinin isə yeganə əlyazma nüsxələri saxlanılır və tədqiq edilir.

Alimin tədqiqatlarında onlarla Azərbaycan və başqa Şərq müəlliflərinin adları çəkilir, onların əsərlərindən çıxarışlar verilir. Burada adları çəkilən Azərbaycan müəlliflərinin bir qismi elm aləminə məlum şəxsiyyətlərdisə, başqaları elm aləminə məlum olmayan, həyat və yaradıcılıqları indiyədək öyrənilməmiş alimlərdir. Bu müəlliflər arasında orta əsrlərdə nəinki Azərbaycanda, hətta yaxın və Orta Şərqdə, tanınmış alimlər vardır. Onların bir çoxunun əsərlərinə ayrı-ayrı Şərq alimləri tərəfindən şərhlər və haşiyələr də yazılmışdır. Azərbaycan elminin inkişafında əhəmiyyətli rol oynamış həmin alimlərin əsərləri yalnız Yaxın və Orta Şərqdə deyil, eyni zamanda dünya kitabxanalarında geniş yayılmışdır.

Əbdülqəni Nuxəvi öz tədqiqatlarında ayrı-ayrı Azərbaycan alimlərinin əsərlərindən verdiyi çıxarışlarda əsərlərin adları yox, ancaq müəlliflərinin adları göstərildiyindən həmin əsərlərin müəyyənləşdirilməsi böyük çətinliklər yaradır. Şübhə yoxdur ki, orta əsr elm tariximiz dərindən öyrənildikdə həmin alimlər və onların yaradıcılıqları haqqında kifayət qədər məlumatlar əldə etmək mümkün olacaqdır. Elm tariximizin öyrənilməsi üçün isə yalnız Azərbaycan MEA Əlyazmalar İnstitutunda saxlanılan yazılı abidələri deyil, eyni zamanda bütün dünya xəzinələrində mühafizə edilən orta əsr Şərq əlyazmaları araşdırılmalıdır. Elm aləminə yaxşı məlumdur ki, dünyanın böyük mədəniyyət mərkəzlərinin, kitabxana və müzeylərinin çoxunda yüzlərlə Azərbaycan klassiklərinin əlyazmaları saxlanılır. Həmin əlyazmaların böyük bir qismi isə Azərbaycanda yoxdur. Hələ kataloqları nəşr edilməmiş ölkələrinin kitabxana və müzeylərində mədəniyyət tariximizə aid hansı abidələrin olması bizə məlum deyildir.

Əbdülqəni Nuxəvi Xalisəqarızadənin kitabxanasından əldə edilmiş yazılı abidələr əsasında həyat və yaradıcılıqları hələ heç öyrənilməmiş, yaxud qismən öyrənilmiş alimlər və onların əsərləri haqqında burada müxtəsər ilkin məlumatlar verilir. Bu məlumatlar gələcəkdə həmin müəlliflərin öyrənilməsi istiqamətində aparılacaq araşdırmalar üçün işıqlı bir yol olacaqdır.

Əbdülqəni Nuxəvi Xalisəqarızadənin kitabxanasından göstərilən əlyazma kitab nümunələri və ayrı-ayrı Aəzrbaycan alimləri haqqında verilən müxtəsər məlumatlar demək olar ki, dəryadan bir damladır. Acınacaqlı bir dövr yaşamış, oddan-alovdan keçərək zəmanəmizə qədər gəlib alimin kitabxanasının əlyazma və qıdim çap kitablarının, eləcə də onun arxivindən olan tarixi sənədlərin tam şəkildə kataloqu nəşr edilərkən onun nə qədər zəngin olduğu özünü əyani surətdə göstərəcəkdir. Bu kitabxanadan olan əlyazmaların gələcəkdə öyrənilməsi mədəniyyət tariximizin bir sıra qaranlıq səhifələrini işıqlandıracaqdır.

## ƏDƏBİYYAT

1. *Xələfov A. Azərbaycanda kitabxana işinin tarixi. I h. Bakı, 2004.*
2. *Şərifli K. Azərbaycan əlyazma kitabı və kitabxanaları. Bakı: Nurlan, 2009, 190 s.*
3. *Şərifli K.. Əbdülqəni Nuxəvi Xalisəqarızadə. Bakı, 2002.*
4. *Köcərli F. Azərbaycan ədəbiyyatı. I c. Bakı, 1978.*
5. *Əliyarlı S. Azərbaycan tarixi. Bakı, 2006.*
6. *Əhmədov H. XIX əsr Azərbaycan məktəbi. Bakı, 1985*

## LIBRARY OF ABDULGANI NUKHAVANI

**P.F.KAZIMI**

***SUMMARY***

*Abdulgani Nukhavani was a notable scientist of the XIX century. His personal library played a great role at the guard of cultural and scientific hereditary and popularize. Present article reflect of the information about library fund.*

## БИБЛИОТЕКА АБДУЛГАНИ НУХАВИ

**П.Ф.КАЗЫМИ**

***РЕЗЮМЕ***

*Абдулгани Нухави является выдающимся просветителем Азербайджана XIX века, частная библиотека которого сыграла большую роль в сохранение культурного наследия и организации библиотечного обслуживания населения в Шеки и его окрестностях. В данной статье рассматривается библиотечная деятельность и репертуар книжного фонда А.Нухави.*

# RESPUBLİKA ELMİ KƏND TƏSƏRRÜFATI KİTABXANASINDA OXUCULARA KİTABXANA XİDMƏTİNİN MÜASIR VƏZİYYƏTİ VƏ İINKİŞAF İSTİQAMƏTLƏRİ

**A.A.CƏFƏROV**
***Bakı Dövlət Universiteti***

*Məqalə müasir dövrdə Respublikamızda aparılan aqrar islahatlarla əlaqədar REKT-kitabxanasında oxuculara kitabxana xidmətinin təşkili prosesi təhlil edilmiş elmi ümumiləşdirmələr əsasında prioritet istiqamətlər haqqında məlumat verilmişdir.*

Etibarli ərzaq təminatı hər bir ölkənin iqtisadi sabitliyinin və sosial dayanıqlığının başlıca şərtidir. Azərbaycan Respublikasında əhalinin etibarlı ərzaq təminatı dövlətin iqtisadi siyasətinin başlıca istiqamətlərinin birini təşkil edir. Aqrar islahatlar nəticəsində son illər kənd təsərrüfatı sürətlə inkişaf etmiş, adambaşına düşən ərzaq məhsullarının istehsalı xeyli artmışdır. Həyata keçirilən tədbirlər bir çox sahələrdə olduğu kimi, bitkiçilik və heyvandarlıq məhsullarının istehsalının struktrunda da müəyyən dəyişikliklərə səbəb olmuşdur. Bütün bunları nəzərə alaraq Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Elm Mərkəzi sistemində yerinə yetirilən elmi-tədqiqat mövzularının böyük əksəriyyəti praktiki əhəmiyyət daşıyaraq yeni sortların və becərilmə texnologiyalarının təkmilləşdirilməsinə, bitkiçilikdə və heyvandarlıqda səmərəli mühafizə üsullarının işlənməsi məsələlərinin öyrənilməsinə həsr edilmişdir (1, 5).

Kənd təsərrüfatında həyata keçirilən iqtisadi islahatların hüquqi əsasını Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən qəbul edilmiş «Torpaq məcəlləsi», «Mülkiyyət haqqında», «İcarə haqqında», «Kəndli (fermer) təsərrüfatları haqqında», «Sahibkarlıq fəaliyyəti haqqında», «Torpaq vergisi haqqında», «Aqrar islahatın əsas istiqamətləri haqqında», «Kolxoz və sovxozların əmlakının bölüşdürülməsi, satılması və bələdiyyə mülkiyyətinə verilməsi qaydası» və digər normativ hüquqi sənədlər təşkil edir (2, 3).

Bu sahədə müsbət nəticələrin əldə olunmasının əsas səbəbkarı isə ümummilli lider Heydər Əliyevin iqtisadi siyasətində kənd təsərrüfatının prioritetliyi olmuşdur. MDB ölkələrində ilk dəfə torpağın təmənnasız olaraq kəndliyə verilməsi, torpaq üzərində xüsusi mülkiyyətin yaradılması, kənddə sahibkarlığın gələcək inkişafı regionların sosial-mədəni həyatı üçün olduqca böyük imkanlar açdı. Kolxoz və sovxozların ləğv edilməsi nəticəsində artıq 1995-ci ildən onların bazasında 35 minə yaxın kəndli-fermer təsərrüfatı yaradılmışdı.

Heydər Əliyev tərəfindən Azərbaycan kəndində aqrar islahatı həyata keçirmək üçün imzalanmış qanunlar və fərmanlar aqrar islahatların qəbulunu əsaslandırmışdır.1999-cu ildə prezident xüsusi fərmanla "1999-2000-ci illərdə Azərbaycan Respublikasında aqrar islahatların dərinləşdirilməsi və kənd təsərrüfatında sahibkarlığın inkişafına kömək göstərilməsinə dair dövlət proqramını təsdiq etdi. Bu proqram kənddə özəlləşdirmənin həyata keçirilməsinə böyük təkan verdi. Nəticədə kəndlilər əldə etdikləri torpaqdan daha səmərəli istifadə etmək üçün öz məqsədlərinə uyğun istifadə etməyə başladılar. İstifadəsiz qalan ənənəvi təsərrüfat formalarına (üzümlük, zəfəran, zeytun bağları) isə investisiya qoyuluşu vacib xarakter aldı. Çünki bu kənd təsərrüfatını təmin edən və ölkəyə xarici kapitalın axınına zəmin yaradan amildir. Bu məqsədlə xarici ölkələrdən gətirilmiş yeni üzüm sortlarının yetişdirilməsi məqsədilə investisiya yatırılmış, müəyyən nailiyyətlər əldə edilmişdir. Bu da öz növbəsində ölkədə üzümçülüyün inkişafına, bu sahə üzrə tədqiqatın güclənməsinə və bunun nəticəsi olaraq yeni nəşrlərin meydana gəlməsinə, kitabxanada bu sahə üzrə ədəbiyyatın və xidmətin təkmilləşdirilməsinə səbəb olmuşdur.

Ümummilli lider Heydər Əliyevin kənd təsərrüfatı sahəsində atdığı uğurlu addımları davamı hazırda İlham Əliyevin siyasətində öz əksini tapır. Bunun bariz nümunəsi kimi 23 oktyabr 2004-cu il tarixli "Aqrar bölmədə lizinqin genişləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" 23 yanvar 2007-ci ildə" kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında" sərəncamları müsbət qiymətləndirilməlidir. Sonuncu sərəncam dövlət büdcəsində kənd təsərrüfatına subsidiyaların verilməsi ilə bağlı mühüm mərhələnin başlanğıcı olmuşdur .

Dövlətin bu sahədə yürütdüyü uğurlu siyasətin nəticəsidir ki, kənd təsərrüfatı sahəsi üzrə yeni proqramlar, layihələr həyata keçirilir. 2004-cu ilin sentyabrında Azərbaycan hökuməti və Dünya Bankı tərəfindən imzalanmış Kənd İnvestisiya lahiyəsi Sosial infrastrukturu yaxşılaşdırmaq məqsədilə həyata keçirilir. Əsas vəzifə rayonların iqtisadi potensialından səmərəli istifadə etmək, yerlərdə sahibkarlığı gücləndirmək, iqtisadiyyatın dinamik inkişafına nail olmaqdır. Əldə olunan uğurların başlıca səbəbi Kənd Təsərrüfatı Nazirliyinin yerli təşkilatları ilə sıx iş birliyinin yaradılması, layihənin icrası zamanı kənd təsərrüfatı mütəxəsislərinin məsləhətlərinə düzgün əməl edilməsidir.

Səmərəli dövlət tənzimləmələri və kənd təsərrüfatının çoxfunksiyalılığı kənd təsərrüfatında inqilabi dəyişmələrin əsasıdır. Kənd təsərrüfatına güclü dövlət müdaxiləsi və geniş miqyaslı tənzimləmələri zəruri edən amillər bunlardır: xarici ticarətlə əlaqədar olan amillər, ekologiya və təbiətin mühafizəsi ilə əlaqədar olan amillər və s.

Çoxfunksiyalılıq adı altında isə kənd təsərrüfatının funksiyaları aşağıdakı şəkildə sıralanır: Ərzaq təhlükəsizliyi, kənd bölgələrinin inkişaf etdirilməsi, sosial inkişaf və bioloji funksiya. Məlumat üçün qeyd edək ki, Azər-

baycan Respublikasında tarixən qərarlaşmış olan ərzaq istehlakı modelində çörək və çörək məhsulları daha yüksək rola malikdir, Məhz bu səbəbdən də həmin məhsullara təminatın zəruri səviyyəsi bütövlükdə ərzaq təhlükəsizliyi baxımından həlledici amil kimi çıxış edir və kənd təsərrüfatının sahələri arasında taxılçılığın inkişafının əsas prioritetliyini şərtləndirmiş olur.

Bazar münasibətlərinin inkişafı, istehsalın intensivləşmə səviyyəsinin yüksəldilməsi bilavasitə kadrların ixtisas səviyyəsindən, bacarığından, iqtisadi, aqrotexniki, zootexniki savadından, texnikanı idarə edə bilməsindən və texnoloji proseslərdən baş çıxarmasından, təsərrüfatı sərbəst idarə etmə qabiliyyətindən asılıdır. İqtisadi islahatların həyata keçirilməsində və mütəxəssislərin elmi biliklərinin artırılmasında kitabxanalar böyük rol oynayır. Kitabxanalar cəmiyyətin əsas sosial tələbatını yerinə yetirmək üçün yaradıldığından onun həyata keçirdiyi funksiyalar da bilavasitə sosial xarakter daşıyır (3, 290).

Qeyd etmək lazımdır ki, oxuculara kitabxana xidmətinin səmərəli təşkili birinci növbədə oxucuların kitabxana biblioqrafiya və informasiya sorğularının hərtərəfli, dolğun vo operativ yerinə yetirilməsini tələb edir, hər bir kitabxananın bütün işləri məhz bu vəzifənin yüksək səviyyədə yerinə yetirilməsinə yönəldilməsində əsas meyar oxuculara xidmət işinin keyfiyyəti sayılır.

Kənd təsərrüfatı sahəsində çalışan mütəxəssislərə və bu sahə ilə maraqlanan oxuculara kənd təsərrüfatı kitabxanaları xidmət göstərir.

Kənd təsərrüfatı sahəsinin informasiya təminatında, əsası 1921-ci ildə qoyulmuş Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanası (REKTK) mühüm rol oynayır (4, 114). Respublika Elmi kənd Təsərrüfatı Kitabxanası:

a) Respublikanın kənd təsərrüfatı sahəsində çalışan elmi işçiləri və mütəxəssisləri kitab və biblioqrafik məlumatla təmin edir;

b) Respublikanın kənd təsərrüfatının idarə edilməsi orqanlarına öz qarşısında duran vəzifələrin həllində kitabxana biblioqrafiya və elmi informasiya xidməti göstərir.

c) Respublikanın kənd təsərrüfatı işçilərinə xidmət edən bütün kitabxanalar üzrə elmi-metodik və əlaqələndirmə mərkəzidir (5, 86-87).

REKTK ölkədə fəaliyyət göstərən 27 filial və şəbəkə kitabxanasına metodik rəhbərlik edir. Kitabxana 1982-ci ildən kənd təsərrüfatı üzrə depozitar mühafizə mərkəzidir. 2002-ci ildə yeni binaya köçürülmüşdür.

Kənd təsərrüfatı sahəsi üzrə layihələrin həyata keçirilməsi QHT-da diqqət mərkəzindədir. Bu cəhətdən İqtisadi Tədqiqatlar Mərkəzinin (İTM) rolu təqdirəlayiqdir. İqtisadi Tədqiqatlar Mərkəzi Azərbaycanda yeganə QHT-dır ki, institusional dəstək alıb. Belə ki, Açıq Cəmiyyət İnstitutunun Budapeşt ofisinin maliyyə dəstəyi ilə həyata keçirdiyi institusional yardım layihəsi çərçivəsində təşkilatın daxili idarəetmə sistemi və layihələrin idarəedilməsi standartlaşdırılıb, şəyyarlıq və hesabatlılıq artırılıb.

"Azərbaycanda kənd təsərrüfatı sahəsində vəziyyətin tədqiqatı" layihəsi çərçivəsində kənd təsərrüfatı sisteminin hazırkı vəziyyəti tədqiq olunub. Tədqiqatın nəticələri və onun əsasında hazırlanmış tövsiyələr paketində ölkənin valyuta rezervlərinin real iqtisadiyyata yönəldilməsi zamanı kənd təsərrüfatının daha məhsuldar toxum və mal-qara cinsi ilə təchiz edilməsi, MTB-nin, ərzaq təhlükəsizliyinin gücləndirilməsi və sair təkliflər öz əksini tapıb.

REKTK kənd təsərrüfatının müxtəlif sahələrində çalışan müətxəssislərin sorğularının ödənilməsində elmi işçilərə və mütəxəssislərə xidmət işini həm abonement qiraət şöbəsi və qismən də KAA vasitəsilə həyata keçirir. Kitabxananın bu sahədəki topladığı iş təcrübəsini tədqiq edib ümumiləşdirmək, kitabxananın fəaliyyətinin ümumi istiqamətləri haqqında qısa şəkildə də olsa məlumat vermək məqsədə uyğun olardı. Kitabxananın tədqiq edilən iş təcrübəsini ümumiləşdirmək müəyyən çətinliklərlə bağlı olmuşdur. Kitabxana illik hesabatları, əsas etibarilə statistik cədvəllər şəkilində tərtib edir ki, bu da lazımı qədər məlumat və faktlar toplanması işini qismən çətinləşdirir.

Kitabxana öz fondunu qismən kitabxana kollektorundan və kitab mağazasından aldığı qiymətli bağlamalar hesabına genişləndirmişdir. Bundan başqa kitabxana öz fondunu xarici nəşrlər hesabına zənginləşdirir. Buna isə kitabxana bütün il ərzində kitabxanalararası mübadilə yolu ilə MDB-nin kənd təsərrüfatı kitbaxanalarının 47-si ilə, eyni zamanda Beynəlxalq kitab mübadiləsi yolu ilə Polşa, Koreya, Fransa, Almaniya, Türkiyə və başqa ölkələrin kitabxanaları ilə mübadilə sayəsində nail olur. REKTK 1982-ci ildən kənd təsərrüfatı ədəbiyyatı üzrə Depozitor mühafizə mərkəzidir. Bundan başqa Xarici jurnal fondu, Qədim və nadir nüsxələr fondu geniş oxucu kütləsinin istifadəsindədir.

Ümumiyyətlə, 2000-2009-cu illər Azərbaycanın kənd təsərrüfatı tədqiqatları sistemi üçün, ilk növbədə ümumi strateji məqsədlərin formalaşdırılması, iqtisadi münasibətlər sistemi şəraitində fəaliyyət prinsiplərinin və prioritetlərin müəyyənləşdirilməsi, islahatların aparılması ilə xarakterizə olunmuşdur. Aqrar sahədə aktivliyin artması şəraitində elmi işçilərə və mütəxəssislərə xidmətdə keyfiyyət dəyişiklikləri baş vermişdir.

Kənd təsərrüfatı üzrə alim, aspirant, müəllim və tələbələrin kitabxanadan geniş istifadəsi üçün bütün imkanlardan istifadə olunmuşdur. Əgər REKTK-nın 2006-cı ildə fondunda 365441 nüsxə ədəbiyyat olmuşdursa, 2009-cu ildə bu rəqəm 367859 nüsxəyə çatmışdır. Şəbəkə üzrə ümumi fond isə 1.000651 nüsxədir. 2008-ci il üçün depozitor mühafizə fondunun həcmi 23362 nüsxə təşkil edirdisə, 2009-cu ildə bu göstərici 23580 nüsxəyə çatmışdır. Mübadilə fondunun həcmi isə 2009-cu il 10749 nüsxə olmuşdur. Vahid qeydiyyat uçotuna görə kitabxanada oxucuların sayı 2006-da 10.092 nəfər olmuşdursa, 2009-cu ildə bu rəqəm 10.122-yə çatmışdır. Kitabxanaya gəliş 2006-cı ildə 48616, 2009-da 48624 olmuşdur.

İndi isə kitabxanada abonement və qiraət zalı vasitəsilə mütəxəssislərə və elmi işçilərə, ümumiyyətlə, oxuculara xidmət işinin təşkili xüsusiyyətlərini fakt və rəqəmlərlə izah etməyə, burada olan nöqsan və çatışmazlıqları aşkara çıxarmağa çalışaq. Məlum olduğu kimi, istənilən tip və növdən kitabxanaların abonement və qiraət zallarının işində spesifik xüsusiyyətlərlə bərabər bütün kitabxanalar üçün ümumi olan xüsusiyyətlər də xasdır. Başqa bir tərəfdən isə bütün kitabxanaların abonement və qiraət zallarında oxuculara, eləcə də mütəxəssislərə xidmət işinin tabe olduğu ümumi nəzəri əsaslar mövcuddur. Bütün bunlara görə də RBKTK-nın abonement və qiraət zalında elmi işçiləri və mütəxəssislərə xidmət işini izah edib ümumiləşdirməzdən əvvəl bu ümumi xüsusiyyətlər və nəzəri əsaslar haqqında məlumat vermək, sonrakı izahat zamanı isə məhz bu məlumatlara istinad etmək məqsədəuyğun olardı. Oxuculara kitabxana xidməti sistemində abonement və oxu zalları başlıca yer tutur. Abonement və qiraət zallarında xidmət işi fəal və məqsədəyönlü xarakter daşımalıdır. Mütəxəssislərin bir qismi abonement, bir qismi qiraət zalının xidmətindən istifadə edir.

REKTK-nın abonement şöbəsində kənd təsərrüfatının bütün sahələri üzrə habelə humanitar, ictimai-siyasi məsələlərlə əlaqədar müraciət edən hər bir oxucunun sorğusunun yerinə yetirilməsindən ötrü bir sıra yeniliklər edilmişdir. Oxucu kartotekaları yenidən işlənmişdir ədəbiyyatlar oxucuların tələbatına uyğun olaraq vaxtında onlara çatdırılmışdır. Az istifadə olunan ədəbiyyat əsas fonddan çıxarılıb depozitar fonduna verilmişdir. Bilirik ki, kitabxanaların profilindən asılı olaraq müxtəlif abonement növlərindən istifadə edilir. REKTK-da əsasən sahəvi abonementdən istifadə edilir. Sahəvi abonement ayrı-ayrı elm sahələri üzrə ədəbiyyatı fondunda toplayan və kitabxanalardan kənarda, həm də kitabxana şəratində istifadə üçün oxuculara tövsiyyə edilən abonement şöbəsi nəzərdə tutulur.

Tədqiq olunan dövrdə kitabxananın daimi oxucuları gah artıb, gah da azalması ilə əlaqədar olaraq, abonementdən istifadə edən oxucuların sayı da müxtəlif olmuşdur. Lakin buna baxmayaraq oxuculara xidmət işində aparıcı yeri yenə də oxu zalı tutmuşdur. Kitabxananın abonement şöbəsindən istifadə edən oxucuların əksəriyyəti kənd təsərrüfatı mütəxəssisləri olmuşdur.

Kitabxananın 2006-2009-cu illərdəki işi ilə daha yaxından tanış olmaq üçün aşağıdakı cədvələ müraciət edək (6.8,10,5, 11)

| **İllər** | **Ev abonementi** | **Oxu zalı** | **Mütəxəssis** | **Elmi işçilər** | **Gələnlərin sayı** |
|---|---|---|---|---|---|
| 2006 | 2990 | 3015 | 5043 | 980 | 48616 |
| 2007 | 2991 | 3015 | 5048 | 1848 | 48621 |
| 2008 | 2991 | 3019 | 5049 | 1840 | 48622 |
| 2009 | 2990 | 3019 | 5040 | 1830 | 48624 |

Cədvəldən göründüyü kimi müxtəlif illərdə kitabxananın abonement və oxu zalının göstəricisi müxtəlif olmuşdur, il ərzində verilən ədəbiyyatın miqdarı gah artmış, gah da azalmışdır. Lakin abonement şöbəsində çox zaman oxuculara "yoxdur" cavabı verməsi oxucu fondunun oxucu sorğusunun xarakterinə mavafiq olaraq istənilən şəkildə komplektləşdirilmədiyi baxımından narahatlıq doğurmaya bilməz. Ümumiyyətlə, kitabxanaların abonement şöbəsində çox çatışmazlıq və nöqsanlar vardır. Hər şeydən əvvəl qeyd etmək lazımdır ki, abonement şöbəsinin işi daha çox texniki xarakter daşıyır, daha doğrusu, şöbə işini yalnız kitab verilişi kifayətlənmiş hesab edir. Burada oxuculara kitab seçilməsi işində kömək, mütaliəyə rəhbərlik, oxucu sorğularının istiqamətləndirilməsi məsələlərinə demək olar ki, az fikir verilir. Ümumiyyətlə, kitabxanada oxucularla fərdi işə bir o qədər də fikir verilmir. Nəhayət, abonement şöbəsinin oxu zalı ilə əlaqəsi çox zəifdir. Elmi işçilərə və mütəxəssislərə xidmət işinin təşkili prosesində bu əlaqənin gücündən və imkanlarından istifadə edilmişdir. Bütün bunlardan əlavə şöbədə kitab verilişinin uçotu, oxuculara formulyarları ilə iş oxuculara verilən "yoxdur" cavablarının təhlili və s. bu kimi texniki işlərin aparılması da müasir tələblər səviyyəsində qurulmamışdır. Lakin Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə dövlət proqramında oxuculara kitab verilişində bütün bu çatışmazlıqların aradan qaldırılmasına yönəldilmiş tədbirlər planı mövcuddur.

Oxucuların təhsil və peşə sorğularının mürəkkəbləşməsi ilə əlaqədar olaraq hal-hazırda əhaliyə kilabxana-biblioqrafiya xidmətinin təşkilində oxu zallarının əhəmiyyəti nəzərə çarpacaq dərəcədə artır. Oxu zalının işinin təşkilində onun yardımçı fondu muhüm rol oynayır. Bu fond kitabxana üzrə kitab verilişinin təşkilində mühüm yer tutur. Düzgün seçilmiş yardımçı fond oxucularla fərdi işi asanlaşdırır, oxucu sorğularının tam və tez bir şəkildə ödənilməsini təmin edir. Yardımçı fond oxu zalının məqsədinə, onun oxucularının maraq və sorğularına müvafiq olaraq komplektləşdirir. Oxu zallarının yardımçı fondları oxucu sorğularının operativ şəkildə ödənilməsi məqsədinə xidmət etdiyinə görə burada əsas etibarilə son illərdə dərc edilmiş nəşrlər öz əksini tapmalıdır. Lakin bu zaman nəzərə almaq lazımdır ki, müxtəlif tipli ədəbiyyat üçün köhnəlmə mexanizmi müxtəlifdir. Məsələn, elmi əsərlər oxucular tərəfindən daha uzun müddət ərzində soruşulur. Təbiidir ki, belə olan halda yardımçı fondda müxtəlif tipli kilabların saxlama müddəti də müxtəlifdir. Oxu zallarında kitab verilişinin texnikası və uçotu abonementdən bir qədər sadədir. REKTK-ın oxu zalı kitabxananın başlıca kitab verilişi məntəqəsidir.

Otuz beş nəfərlik bu oxu zalının yardımçı fondundan istifadə açıq rəf üsuluna əsaslanır. Daha doğrusu, burada soraq biblioqrafiya nəşrləri müxtəlif növ ensklopediyalar oxucuların açıq istifadəsinə verilmişdir. Mütəxəssislər

oxu zalından tez-tez geniş və səmərəli şəkildə istifadə edirlər. Qeyd etmək lazımdır ki, oxu zalının işini tam şəkildə aydınlaşdırmaq və izah etmək məhz bu səbəbə görə mümkün olmamışdır. Daha dəqiq desək, oxucuların yardımçı fondun bir hissəsindən sərbəst şəkildə istifadə etmələrinin uçotunun aparılmaması oxu zalının işi haqqında tam təsəvvür əldə etməyə imkan verir. Lakin kitabxanaların, xüsusilə də oxu zalının gündəlik iş təcrübəsinin öyrənilməsi göstərir ki, tələbələr, aspirantlar, o cümlədən elmi işçilər və mütəxəssislər bu və ya digər dərəcədə oxu zalının sərbəst yardımçı fonduna müraciət edirlər. Müşahidə nəticəsində müəyyən edilmişdir ki, ən geniş istifadə oxu zalından olmuşdur. 2009-da oxu zalından istifadə edən oxucuların sayı 28.519 nəfər olmuşdur, ən çox istifadə etdiyi nəşr qəzet və qəzet komplekti olmuşdur. Dillər üzrə isə ən çox rus dilli nəşrlərdən istifadə olunmuşdur.

Oxu zalında kitab verilişinin uçotu tam şəkildə aparılmasa da, burada gedən işi qənaətbəxş hesab etmək olar. Bir cəhəti xüsusilə qeyd etmək lazımdır ki, kitabxananın oxu zalı elmi işçilər və mütəxəssislər üçün "yeni ədəbiyyat" kitab sərgilərinin təşkili işinə böyük əhəmiyyət vermişdir.

2009-da REKTK-ya 48.624 nəfər oxucu gəlmişdir. Onlara 498.559 nüsxə ədəbiyyat verilmişdir, bunun da çoxu yəni 29.519 nüsxəsi oxu zalının payına düşür. Elmi işçilərə və mütəxəssilərə məlumat biblioqrafiya və KAA xidmətinin təşkili kitabxananın fəaliyyətinin əsas istiqamətini təşkil edir.

Kitabxana elmi işçilərə mütəxəssislərə və başqa oxuculara məlumat biblioqrafik xidmətinin müvəffəqiyyətlə aparılması üçün müvafiq məlumat-biblioqrafiya aparatı təşkil olunmuşdur. Elmi cəhətdən təşkil edilmiş soraq biblioqrafik aparatı kitabxananın məlumat-biblioqrafiya fəaliyyətinin əsasını təşkil edir. Bu işi daha yaxşı təşkil etmək məqsədilə 1978-ci ildə kitabxanada məlumat-biblioqrafiya şöbəsi yaradılmışdır. Şöbədə 4 nəfər işçi çalışır: 1 nəfər şöbə müdiri, 2 nəfər böyük biblioqraf və 1 nəfər biblioqraf. Kitabxanada Soraq Biblioqrafiya Aparatının məqsədi öz quruluşu və məzmunu baxımından respublikada kənd təsərrüfatı sahəsinin tələbatçılarının sorğularını tam ödəməkdən ibarətdir. Lakin son illər iqtisadi çətinliklə əlaqədar kitabxanaya yeni ədəbiyyatın alınmasında baş verən problemlər, ilk növbədə kitabxanaya yeni ədəbiyyatın az miqdarda və qeyri-müntəzəm daxil olması, dövrü mətbuata abunə yazılışının, xarici kitab və jurnalların alınmasının məhdudluğu SBA-nın təkmilləşdiriliməsinə öz mənfi təsirini göstərir. Bu isə sənəd axınını daim izləyən, həm yerli nəşrlər, həm də dünya elminin nailiyyətləri ilə maraqlanan elmi işçilərin sorğularının ödənilməsini çətinləşdirir. Bununla belə, kitabxananın əməkdaşları SBA-nın redaktəsinə ciddi fikir verir, bu məqsədlə mövcud imkanlardan bacarıqla istifadə edir, onu kənd təsərrüfatının idarə olunmasındakı dəyişikliklərlə bağlı müasir tələblərə uyğunlaşdırmağa çalışırlar.

"Elmi işçilərə və mütəxəsislərə məlumat-biblioqrafiya xidmətinin təşkilində kitabxanaların katoloq və kartotekalarının da çox böyük əhəmiyyəti

vardır. Kataloq kitabxananın fondunu bir güzgü kimi əks etdirməklə bərabər, oxucunun suallarına dəqiq cavab vermək onların mütaliəsinə düzgürı rəhbərlik etmək işində kitabxanaya kömək edən ən qiymətli vasitədir.

İndi isə kitabxanada məlumat-biblioqrafiya xidmətinin təşkili məsələlərini və bu işin inkişaf dinamikaasını izah edək.

İş təcrübəsini öyrəndiyimiz kitabxanada tədqiq olunan dövrdə məlumat-biblioqrafiya işi üzrə diqqət kənd təsərrüfatı mütəxəssislərinə, elmi işçilərə və başqa oxuculara yüksək səviyyədə xidmətə yönəldilmişdir. Struktur dəyişikliyi ilə əlaqədar olaraq ləğv olunmuş təşkilatların əvəzinə yeni idarə və təşkilatların qeydiyyatı aparılaraq sənədləşdirilmişdir. 2006-cı ildn biblioqrafiya şöbəsinin işi yeni struktura uyğun aparılır. Kataloq və kartotekalarla müntəzəm iş aparılır. 2006-cı ildə məlumat-biblioqrafiya xidməti üzrə abonentlərin sayı 1912 olmuşdur. 2009-cu ildə abonentlərin sayı 1915 nəfər, göndərilmiş məlumatların sayı isə 2130 nüsxə olmuşdur. Həmin il kitabxanada 36 sərgi, 6 məlumat günü, 6 mütəxəssis günü təşkil edilmiş, oxuculara 300 yazılı, 570 şifahi sorğu ödənilmişdir.

Qeyd etmək lazımdır ki, kitabxananın qarşısında duran vəzifələrin həll edilməsində respublikanın uyğun profilli kitabxana fondlarından qarşılıqlı istifadənin tətbiq olunması əsasında oxucuların tələblərinin ödənilməsinə imkan verən kitabxanalararası abonement (KAA) müəyyən rol oynayır. KAA oxucu sorğularına “yoxdur” cavablarının aradan qaldırılmasına xidmət edir. Kitabxana tərəfindən 2009-cu ildə başqa kitabxanalara 1822 ədəbiyyat göndərilmiş, 396 ədəbiyyat alınmışdır. Bu baxımdan respublikamızda kənd təsərrüfatına dair ədəbiyyatın qorunub saxlanmasında, elmi metodik mərkəz olan Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanasının rolu əvəzedilməzdir.

Müasir dövrdə Azərbaycanda aqrar sahənin inkişaf etməsi gələcəkdə nəşr olunacaq kənd təsərrüfatı ədəbiyyatının tiraj və oxucu sayı etibarilə yüksələn xətlə davam edəcəyini göstərir. Bu da kitabxanalarda xidmətin təkmilləşməsinə bilavasitə təkan verən amillərdən ən mühümüdür. Bütün bunlar XXI əsrdə təkmilləşdirilmiş, dünya standartlarına cavab verən yeni aqrar tədqiqatlıar sistemi ilə addımlayacağımıza ümid etməyə əsas verir. Demokratik prinsiplər əsasında qurulan və azad bazar münasibətlərinə söykənən yeni iqtisadi sistemə keçirilməsində elmi işçilərin və mütəxəssislərin çox böyük rolu vardır. Buna görə də onların müxtəlif xarakterli məlumat tələbatlarının ödənilməsi vacib məsələlərdən biri kimi həmişə diqqət mərkəzindədir.

## ƏDƏBİYYAT

*1. Elmi-tədqiqat müəssisələrinin 2008-ci ildəki fəaliyyətlərinin əsas yekunları. Bakı, 2009. s.5.*

*2. Niftullayev V. Kənd təsərrüfatının iqtisadiyyatı. Bakı, 1996.160 s.*

*3. Xələfov A. Kitabxanaşünaslığa giriş. Dərslik. I h. Bakı, 2001.290. s.*

*4. Xələfov A və başq. A.Xələfov, R.Kazımov, E.Bədəlov. Kitabxana işçisinin məlumat kitabı. Bakı, 1986. 286 s.*

*5. Cəfərov A. Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanasının yaranması və inkişafı tarixindən (1920-1940) // Dil və ədəbiyyat. 1997. №1. s.114.*

*6. Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanasının 2006-2007-2008-2009-cu illər üçün hesabatları.*

## THE CONTEMPORARY CONDITION AND DEVELOPMENT DIRECTIONS OF LIBRARY SERVICE FOR READERS IN REPUBLICAN SCIENTIFIC AGRICULTURAL LIBRARY

**A.A.JAFAROV**

***SUMMARY***

*The main idea of the article is the analysis of library service for readers in Republican Scientific Agricultural library on he background of agrarian reforms realizied in the republic recently.*

*Library-bibliography and infarmation services at subscription and in reading halls are elucidated, in particular, positive and negative aspects are noted and main directions of the service are commented as well.*

## СОВРЕМЕННОЕ СОСТОЯНИЕ БИБЛИОТЕЧНОГО ОБСЛУЖИВАНИЯ ЧИТАТЕЛЕЙ В РЕСПУБЛИКАНСКОЙ НАУЧНОЙ СЕЛЬСКОХОЗЯЙСТВЕННОЙ БИБЛИОТЕКЕ И НАПРАВЛЕНИЯ РАЗВИТИЯ

**А.ДЖАФАРОВ**

***РЕЗЮМЕ***

*В статье анализировано библиотечное обслуживание в республиканской научной сельскохозяйственной библиотеке в фоне проводимых аграрных реформ в стране.*

*Особенно выделено библиотечно-библиографически и информационное обслуживание читателей в абонементе и читальном зале, подробно отмечены положительные и отрицательные направления деятельности.*

# KİTABXANA İŞİNİN KOMPÜTERLƏŞDİRİLMƏSİNİN PRİORİTET İSTİQAMƏTLƏRİ

**N.N.İSMAYILOVA**
*Bakı Dövlət Universiteti*

*Məqalədə kitabxana proseslərinin kompüterləşdirilməsinin reallaşdırılması üçün vacib olan prioritet istiqamətlər: kitabxanaların ənənəvi texnoloji proseslərinin Avtomatlaşdırılmın Kitabxana İnformasiya Sistemləri vasitəsilə kompüterləşdirilməsi, elektron kataloq, elektron kitabxananın və korporativ kitabxana-informasiya şəbəkələrinin yaradılması, kommunikativ formatlar, elektron sənəd mübadiləsi xidmətinin təşkili və s. haqqında məlumat verilmiş, həmçinin Bakı Dövlət Universitetində fəaliyyət göstərən «Kitabxana işinin kompüterləşdirilməsi» Elmi Tədqiqat Laboratoriyasının timsalında bu işin prioritet istiqamətləri şərh olunmuşdur.*

Kitabxana işinin kompüterləşdirilməsi kitabxana işinin avtomatlaşdırılmasının tərkib hissəsi olub, kitabxanaların sosial funksiyalarının yerinə yetirməsi üçün həyata keçirilən mürəkkəb, bir-biri ilə əlaqəli texnoloji proseslərin informasiya-telekommunikasiya texnologiyalarının əsasında avtomatlaşdırılmasıdır. Kitabxana işinin kompüterləşdirilməsinə dair tədqiqat işlərinə XX əsrin 50-ci illərndən başlanılmışdır. Lakin bu işləri praktik olaraq kitabxanalarda tətbiq etmək, müvafiq texniki təminatsızlıq üzündən yalnız 70-ci illərdə mümkün olmuşdur. Belə ki, həmin müddətdə istifadə olunan kompüterlər böyük həcmli olub, mürəkkəb idarəetmə sisteminə malik, çoxsaylı xidmət personalı tələb edən həddindən artıq bahalı qurğular idi. Bu keyfiyyətlər isə onların kitabxanalarda istifadəsini qeyri rentabelli edirdi. Yalnız fərdi kompüterlərin istehsalı, şəbəkə texnologiyasının meydana gəlməsi kitabxanaların kompüterləşdirilməsini elmi və iqtisadi cəhətdən əlverişli etdi. Kitabxanaların kompüterləşdirilməsinə ilk dəfə ABŞ Konqres Kitabxanasında, sonradan isə qeyd olunan ölkənin akademik kitabxanalarında başlanmışdır. Bu istiqamətdə görülən işlərin əhəmiyyəti və perspektivliyi qısa müddətdə özünü doğrultdu və dünyada tətbiq olunmağa başlandı (2, 15).

Məlumdur ki, kitabxana işinin kompüterləşdirilməsi də müəyyən təkamül yolu keçmişdir. Bu təkamül yolu bilavasitə kompüter-informasiya texnologiyalarının inkişafı ilə bağlıdır. Kompüter-informasiya texnologiyaları sahəsində əldə olunan yeniliklər, baş verən sürətli inkişaf kitabxana işinin kompüterləşdirilməsi istiqamətində geniş imkanlar açdı. Məsələn, əvvəllər əsasən kompüterləşmənin lokal məsələləri həll olunurdusa, İnternetin yaranması və inkişafı nəticəsində bu gün oxuculara uzaq məsafədən on-line xidmət, kitab-

xanalararası elektron sənəd göndərişi və s. xidmətlər həyata keçirilir, korporativ kitabxana-informasiya şəbəkələri, virtual elektron kitabxanalar yaradılır. Bunların nəticəsində bir sıra kitabxanalar artıq öz funksiyalarını genişləndirərək, həm də böyük informasiya mərkəzlərinə çevrilmişdir (1, 20).

Kitabxanaların kompüterləşdirilməsi ixtisaslı kitabxanaçıların, linqivistlərin, proqramlaşdırıcıların və informasiya-telekommunikasiya mütəxəssislərinin birgə əməyi və düzgün təşkilati fəaliyyəti nəticəsində yerinə yetirilən, müəyyən vaxt və maliyyə vəsaiti tələb edən informasiya texnologiyası sahəsində vacib və mürəkkəb bir prosesdir. Kitabxana proseslərinin kompüterləşdirilməsi üçün əsasən aşağıdakı prioritet istiqamətlərin həyata keçirilməsini məqsədə müvafiq hesab edirəm.

- Birinci istiqamət olaraq kitabxanaların ənənəvi texnoloji proseslərinin kataloqlaşdırma, komplektləşdirmə, abonement və s. kompüterləşdirilməsi zəruridir. Bununla ağır və yorucu kitabxanaçı əməyini yüngülləşdirmək, əmək məhsuldarlığını və effektivliyini artırmaq, informasiya məhsullarının xidmət növlərini keyfiyyət və kəmiyyət baxımından artırmaq, kitabxana fondunun etibarlı surətdə mühafizəsi və bu fonddan daha geniş oxucu kontingentinin səmərəli istifadəsini təmin etmək mümkün olur. Ənənəvi texnoloji proseslərin kompüterləşdirməklə kitabxanaçı əməyinin korporasiyasına nail olmaq, bununla kitabxanada görülən bir sıra işlərin təkrar yerinə yetirilməsinin qarşısını almaq olar. Həmçinin görülən işlərin keyfiyyətinə mərkəzləşdrilmiş və qarşılıqlı nəzarət təmin olunur, kitabxanada şəffaf və sağlam iş mühiti yaranır, kollektiv əmək mədəniyyəti formalaşır. Bunun nəticəsində iş vaxtından və kadr ehtiyatlarından səmərəli istifadə etmək və maliyyə vəsaitlərinə qənaət etmək mümkün olur.

Kitabxana proseslərinin kompüterləşdirilməsi «ədəbiyyatın hərəkətinə» nəzarət etməyə, kitabların fonda vaxtında qaytarılmasına və bununla ondan səmərəli istifadəni təmin edir. Həmçinin bu gün hər bir kitabxana üçün aktual olan bir problemin - kitabxana fondunun operativ yeniləşməsi və optimal komplektləşdirilməsi probleminin həllində də kitabxana proseslərinin kompüterləşdirilməsinin mühüm rolu vardır. Belə ki, kompüterləşdirilmiş kitabxanalarda xüsusi proqram təminatı oxucu sorğusunun avtomatik təhlilini aparır və kitabxana fondunun komplektləşdirilməsində təhlilin nəticəsi maksimum dərəcədə nəzərə alınır. Bundan əlavə, kitab satışı müəssisələri, dövrü mətbuat yayımı təşkilatları, elmi-tədqiqat və informasiya müəssisələri ilə operativ elektron əlaqələr yaradılaraq fondun müxtəlif təyinatlı oxucularının tələbatlarına uyğun komplektləşdirilmə təmin edilir.

Əsas texnoloji proseslərn kompüterləşdirilməsi məqsədilə kitabxanaların müvafiq şöbələrində Avtomatlaşdırılmış İşçi Yerləri təşkil edilməlidir. Bunun üçün isə kitabxanalarda müvafiq texniki təminat (texniki avadanlıqlar və kompüter şəbəkələri) yaradılmalı və Avtomatlaşdırılmış Kitabxana İnformasi-

ya Sistemləri (AKİS) tətbiq edilməlidir. Avtomatlaşdırılmış kitabxana informasiya sistemi dedikdə, kitabxananın bütün bölmələrini əhatə edən ümumkitabxana şəbəkəsinin mövcudluğu və şəbəkə texnologiyasına əsaslanan, biblioqrafik yazıların vahid formatına əsaslanan əsas kitabxana informasiya proseslərinin kompleks avtomatlaşdırılmasını təmin edən vahid informasiya sisteminin mövcudluğu nəzərdə tutulur.

AKİS-lərin informasiya bazası əsasən biblioqrafik informasiyanın beynəlxalq mübadiləsinin həyata keçirilməsi üçün kommunikativ formatlar əsasında yaradılır. Hazırda müxtəlif səviyyəli kitabxanalarda istifadə olunan əksər avtomatlaşdırılmış kitabxana informasiya sistemləri məhz MARC – Machine-Readable Catalogue or Cataloguinq (Maşınla oxunan kataloq və ya kataloqlaşdırma) formatından istifadə edirlər və ya onunla işə uyğunlaşdırılıb. MARC formatı imkan verir ki, müxtəlif avtomatlaşdırılmış kitabxana-informasiya sistemlərindən istifadə edən kitabxanalar öz biblioqrafik məlumatlarını bir sistemdən digərinə etibarlı köçürə bilsin. Formatın əsas funksiyası yazı ünsürlərinin kodlaşdırılmasıdır (5).

• İkinci vacib istiqamət elektron kataloqun yaradılmasıdır. Elektron kataloq «kitabxana fondunun güzgüsüdür». Elektron kataloq vasitəsilə oxuculara uzaq məsafədən operativ informasiya xidməti, fondun idarə olunması həyata keçirilir. Kitabxananın İnternetdə yerləşdirilmiş elektron kataloqu dünyanın istənilən nöqtəsindən oxucuya kitabxananın fondu ilə tanış olmağa, çoxaspektli axtarış fasitələri ilə ədəbiyyat axtarışını aparmağa və tapılmış ədəbiyyatı sifariş etməyə, ədəbiyyatın elektron nüsxəsi olduqda isə onu əldə etməyə imkan verir. Ənənəvi kataloqdan fərqli olaraq elektron kataloq oxucuya axtarılan ədəbiyyat haqqında geniş məlumat - ədəbiyyatın nüsxələrinin sayı, istifadə üçün «azad» nüsxələrin sayı, cari anda fondda olmayan nüsxələrin vəziyyəti, kimdə olması, nə zaman qaytaracağı və s. informasiyalar verir. Elektron kataloq biblioqrafik informasiya bazasının daha etibarlı qorunmasını təmin edir və oxucunun onu xarab etməsi praktik olaraq qeyri-mümkündür. Lakin, ənənəvi kataloqda təəssüf ki, biblioqrafik informasiya daşıyıcıları olan kartoçkaların itməsinə, istifadə nəticəsində «oxunmaz» vəziyyətə düşməsinə hələ də rast gəlmək olur. Digər tərəfdən çoxminli ənənəvi kataloqda kartoçkanın itməsi faktının aşkar olması üçün müəyyən vaxt lazım gəlir və bəzən də bu mümkün olmur. Elektron kataloq kitabxanalararası biblioqrafik informasiya mübadiləsini təmin edir. Bunun üçün biblioqrafik məlumat bazası beynəlxalq maşınla oxunan formatlar əsasında yaradılmalıdır. Elektron kataloq həmçinin hər bir kitabxananın nüfuzunu formalaşdırır. Kitabxananın yüksək nüfuza və reytinqə malik olması üçün elektron kataloq zəngin məlumat bazasına və mükəmməl axtarış aparatına malik olmalıdır. Məhz bununla kitabxana coğrafi uzaqlıqdan asılı olmayaraq özünə dünyanın istənilən ölkəsindən oxucu cəlb edərək xidmət göstərə bilər (2, 21).

• Üçüncü istiqamət kitabxanalarda elektron sənəd mübadiləsi xidmətinin təşkil edilməsidir. Bu xidmət oxucu sifarişini uzaq məsafədən yerinə yetirmək, kitabxanalararası elektron sənəd mübadiləsini təmin edir. Elektron sənəd göndərişi ödənişli xidmət növüdür. Kitabxanalarda düzgün menecment və marketinq siyasəti aparılarsa, bu xidmət nəticəsində kitabxana əlavə gəlir əldə edə bilər. Bundan başqa bu xidmət növü kitabxana fondunun komplektləşdirilmə defisitinin (qıtlığının) qismən də olsa qarşısını ala bilər (4, 16).

• Dördüncü istiqamət elektron kitabxanaların yaradılmasıdır. Bu istiqamətdə işlərə ilk dəfə keçən əsrin 90-cı illərində ABŞ-da başlanmışdır və bu gün hər bir ölkənin informaiya siyasətinin tərkib hissəsinə çevrilmişdir. Əksər ölkələrdə, o cümlədən Rusiya Federasiyasında elektron kitabxanaların yaradılması haqqında Dövlət proqramları hazırlanmışdır. Azərbaycanda isə elektron kitabxanaların yaradılması «İnformasiya və kommunikasiya texnologiyaları üzrə milli strategiyada (2003-2012-ci illər)» nəzərdə tutulmuşdur. Elektron kitabxanalar bu gün informasiyalaşdırılmış vətəndaş cəmiyyətinin əsas göstəricisi olan qlobal informasiya mühitinin yaradılması, informasiyanın əmtəəyə çevrilməsi, informasiya və bilik bazarının yaradılması və inkişafı, təhsil sisteminin və səviyyəsinin təkmilləşməsinə, beynəlxalq, milli və regional səviyyədə informasiya mübadiləsi sistemlərinin imkanlarının genişlənməsi hesabına peşə və ümumi mədəniyyət səviyyəsinin artmasına xidmət edir.

Elektron kitabxana ümumi istifadə üçün açıq olan lokal və uzaq məsafədə yerləşən paylanmış informasiya resurslarına malik olur. Lokal resurslar elektron kitabxananın veb və FTP serverlərində toplanmış, kitabxana fondunda yerləşən ədəbiyyatın elektron nüsxələrindən və kitabxana tərəfindən ödənişli və ya mübadilə üsulu ilə alınmış elektron sənəd və nəşr toplusundan ibarətdir. Uzaq məsafədə yerləşən resurslara kitabxana tərəfindən lisenziya - «istifadə» hüququ əldə edilmiş tammətnli məlumat bazaları, arxivlər, həmçinin kitabxana tərəfindən seçilmiş, dəqiqliyinə və etibarlılığına zəmanət verilən «istifadə üçün açıq» olan İnternet resursları aiddir. Elektron kitabxananın digər mühüm elementi onun mükəmməl axtarış və naviqasiya vasitəsinə malik olmasıdır. Məhz onun sayəsində oxucular kitabxananın informasiya resurslarından istifadə edir. Elektron kitabxana müasir veb texnologiyası əsasında fəaliyyət göstərir. Elektron kitabxanadan istifadə çox sadədir, ondan istifadə üçün oxucudan İnternetə qoşulmuş kompüter və İnternetin www xidmətindən istifadə vərdişi tələb olunur (5).

• Beşinci istiqamət korporativ kitabxana-informasiya şəbəkələrinin yaradılmasıdır. Korporativ kitabxana informasiya şəbəkəsi paylanmış şəkildə ərazi cəhətdən uzaq məsafədə yerləşən ayrı-ayrı kitabxana kompüter informasiya şəbəkələrinin şəbəkəsidir. Korporativ şəbəkə kitabxanaların könüllülük prinsipi əsasında yaradılmalıdır. Korporativ kitabxana-informasiya şəbəkələri kitabxana xidmətinin keyfiyyətinin yüksəldilməsi və cüzi maliyyələşmə şərai-

tində yeni informasiya xidmətinin tətbiqi, həmçinin toplu kataloqların idarə olunması zamanı qüvvələrin birləşdirilməsi, avtoritet normativ verilənlərdən birgə istifadə, nəşrlərin elektron versiyalarının verlənlər bazasının təşkili, elektron sifariş və göndəriş xidmətlərindən istifadə və s. təmin edir.

Korporativ kitabxana-informasiya şəbəkələri kataloqlaşdırma və elektron kataloq yaradılması işində paylanmış və birgə kataloqlaşdırma tətbiq etməklə ədəbiyyatın çoxqat təkrar kalaloqlaşdırılmasının qarşısını alır, əmək sərfini minimuma endirir, kataloqlaşdırma əməyindən, maliyyə vəsaitlərindən səmərəli istifadəni təmin edir. Belə ki, biblioqrafik yazı bir dəfə, ədəbiyyatın bibilioqrafik yazısını ilk dəfə yaradan kitabxana, nəşriyyat və ya kitab ticarəti müəssisələri tərəfindən hazırlanır. Digər kitabxanalar hazır yazıları idxal edir və tələb olduqda yeni əlavələr etməklə öz elektron kataloquna daxil edir. Başqa sözlə, hər bir kitabxananın və şəbəkənin yekun elektron kataloqu kitabxanaların qarşılıqlı yardımı əsasında yaradılır (4, 55).

Korporativ kitabxana informasiya şəbəkəsi istifadəçilərə on-line olaraq, şəbəkənin ehtiyatlarından və şəbəkənin digər kitabxana informasiya mərkəzləri ilə əlaqəsi olduqda isə digər kitabxana informasiya sistemlərinin informasiya ehtiyatlarından istifadə etməni təmin edir. Bu halda oxucunun informasiya tələbatının ödənilməsi ehtimalı kəskin surətdə artır. Digər tərəfdən xarici ölkələrin elektron kataloqlarından istifadə dünyada elmi nəzəriyyələrin elmi yenilikləri izləməyə imkan verir, tədris və elmi axtarışlar üçün çox əhəmiyyətlidir. Bu səbəblərdən korporativ kitabxana informasiya şəbəkəsi informasiyalaşmış cəmiyyətin yaradılmasında əvəzsiz vasitədir.

Korporativ kitabxana informasiya şəbəkəsinin proqram təminatı ilk növbədə şəbəkənin məhsuldarlığını, etibarlı fəaliyyətini, kompüter, perferiya, telekommunikasiya qurğularının şəbəkədə işləməsini təmin etməli, beynəlxalq şəbəkə standartlarına cavab verməli, şəbəkənin digər informasiya sistemlərinə inteqrasiyasını təmin etməlidir. Şəbəkədə texnoloji proseslərin yerinə yetirilməsi isə korporativ kitabxana informasiya sistemləri vasitəsilə aparılır.

Kitabxana işinin kompüterləşdirilməsinin sadaladığımız prioritet istiqamətlərinin həyata keçirilməsinə konkret hər hansı bir kitabxananın - respublikamızda kitabxana işinin kompüterləşdirilməsi sahəsində öncül yerlərdən birini tutan və bu sahədə müəyyən təcrübəyə malik olan Bakı Dövlət Universitetinin Elmi Kitabxanasının timsalında baxaq. Adı çəkilən kitabxananın kompüterləşdirilməsi 2000-ci ildə professor Abuzər Xələfovun təşəbbüsü və rəhbərliyi ilə yaradılan "Kitabxana işinin kompüterləşdirlməsi" Elmi Tədqiqat Laboratoriyası tərəfindən həyata keçirildiyindən bu laboratoriyanın kitabxana proseslərinin kompüterləşdirilməsidəki prioritet istiqamətlərini nəzərdən keçirək:

1. BDU-nun Elmi Kitabxanasının fondunun müasir vəzifələrə uyğun operativ şəkildə yeniləşməsi, kitabxana proseslərinin avtomatlaşdırılması üçün

kitabxananın və laboratoriyanın texniki təminatının həyata keçirilməsi və müasir elektron vasitələrlə təkmilləşməsi;

2. BDU-nun Elmi kitabxanasında laboratoriyanın əməkdaşı tərəfindən milli «Kitabxana-1.0» AKİS-nin yaradılması, bu AKİS ilə Azərbaycan dilində olan bütün fondun elektron kataloqunun yaradılması və eyni zamanda Marc-Sql AKİS-i vasitəsilə elektron kataloqun yaradılması;

3. Biblioqrafik məlumatların mübadiləsi üçün milli maşınlaoxunan formatların yaradılması və tətbiqi məqsədilə kommunikativ formatların, xüsusilə UNİMARC formatının təhlili, öyrənilməsi, ondan istifadə qaydaları və elmi kitabxanalarda tətbiqi istiqamətində ciddi iş aparılması, Azərbaycan dilinə tərcümə edilməsi;

4. Kitabxana işinin kompleks kompüterləşdirilməsi məqsədi ilə beynəlxalq təcrübədə sınaqdan keçmiş, praktik cəhətdən olduqca əhəmiyyətli Rusiya Dövlət Kütləvi Elmi-Texniki Kitabxanasının məhsulu olan İRBİS AKİS-nin BDU-nun Elmi Kitabxanası tərəfindən alınması, kitabxananın lokal kompüter şəbəkəsinin təşkili, onun yeni işçi stansiyalarla əlaqələndirilməsi;

5. Kitabxana daxilində şəbəkə rejimində elektron kataloqa çıxışın təmin olunması, Kitabxana -1.0 və Marc-Sql AKİS-i əsasında yaradılan bazanın İRBİS sisteminə konvertə olunması;

6. Elmi kitabxananın nəzdində BDU-nun elmi tədqiqat işləri və tədris prosesinə müvafiq elektron informasiya bankları və informasiya bazasının, elektron nəşrlər fondunun, dərslik və dərs vəsaitlərinin elektron məlumat bazasının - Elektron kitabxananın yaradılması istiqamətində fəaliyyəti;

7. «Ali məktəb kitabxanalarının kompüterləşdirilməsi texnologiyası» və s. bu kimi mövzularda konfrans, müşavirə və seminar-praktikumların keçirilməsi, həmçinin, İnternetdə və kitabxanalararası serverdə kitabxana, onun fəaliyyəti haqqında informasiyanın təqdim olunması;

8. Kitabxananın soraq-biblioqrafik və informasiya axtarış-aparatının formalaşmasında rolunun müəyyənləşdirilməsi;

9. Oxuculara xidmət prosesində qeyri-ənənəvi informasiya daşıyıcılarından istifadə olunması və professor-müəllim və tələbə heyətinə müasir elektron informasiya, on-line İnternet xidmətinin təşkili;

10. Hazırda kitabxana respublika təhsil sistemi kitabxanalarının korporativ kitabxana-informasiya şəbəkəsinin yaradılması və s. istiqamətində müəyyən işlər həyata keçirir.

## ƏDƏBİYYAT

*1. Rüstəmov Ə., Mustafayeva N. Respublika kitabxanalarında əsas proseslərin avtomatlaşdırılması // Kitabxanaşünaslıq və biblioqrafiya. 2007. №2. s.15-27.*

*2. Xələfov A., Qurbanov A. Kitabxanaların kompüterləşdirilməsinin əsasları: Dərslik. Bakı: Bakı Universiteti Nəşriyyatı, 2007. 200 s.*

*3. Xələfov A. İnformasiya cəmiyyətinin formalaşmasında kitabxanaların vəzifələri // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri və təcrübi jurnal.- Bakı: Bakı Universiteti Nəşriyyatı, 2005. №2. s.5-10*

*4. Xəlilov M.S., Qurbanov A.İ., Musayeva N.N. Kitabxana informatikası: Dərs vəsaiti, 2-ci c. Bakı: Odlar yurdu, 2002. 164 s.*

*5. Bakı Dövlət Universiteti «Kitabxana işinin kompüterləşdirilməsi» Elmi-Tədqiqat Laboratoriyasının 2000-2009-cı illər hesabatı.*

## FOREGROUND DIRECTIONS OF COMPUTERIZATION OF LIBRARIANSHIP

**N.N.ISMAYILOVA**

***SUMMARY***

*The article illustrates foreground directions necessary for computerization of the librarianship processes: computerization of the traditional technological librarianship processes through automated librarianship information system, creation of e-catalogue, e-library as wellas corporative librarian-information network, communicative formats, organization of the e-service of file exchange etc.*

## ПРИОРИТЕТНЫЕ НАПРАВЛЕНИЯ КОМПЬЮТЕРИЗАЦИИ БИБЛИОТЕЧНОГО ДЕЛА

**Н.Н.ИСМАИЛОВА**

***РЕЗЮМЕ***

*В статье приводятся приоритетные направления, необходимые для реализации компьютеризации библиотечных процессов: компьютеризация традиционных технологических библиотечных процессов посредством автоматизированных библиотечных информационных систем. Также в докладе затрагивается приоритетные направления компьютеризации библиотек на примере научно-исследовательской лаборатории «Компьютеризация деятельности библиотек» при Бакинском Государственном Университете.*

# KORPORATİV RƏQƏMLİ KİTABXANA ŞƏBƏKƏSİ

**MƏMMƏDOV E.M., MƏMMƏDOVA S.İ.**
***Bakı Dövlət Universiteti***

*Məqalə korporativ rəqəmli kitabxana şəbəkəsi coğrafi uzaqlıqda paylanmış formada web və fayl serverlərdə toplanmış çoxsaylı sənəd fonduna, verilənlər bazasına malik, korporasiya elmi-mədəni informasiyaların əldə olunmasını və etibarlı qorunmasını təmin edən müasir informasiya sistemi kimi məsələlərin tədqiqinə həsr olunmuşdur.*

Korporativ rəqəmli kitabxana şəbəkəsi coğrafi uzaqlıqda paylanmış formada Web və fayl serverlərdə [4] toplanmış çoxsaylı sənəd fonduna, verilənlər bazasına malik, korporasiya elmi-mədəni informasyaların əldə olunmasını və etibarlı qorunmasını təmin edən müasir informasiya sistemidir. Korporativ rəqəmli kitabxanaların əsas funksiyası digər ənənəvi kitabxanalar kimi oxucuların informasiya ehtiyatının ödənilməsidir. Bu məqsədlə onlar aşağıdakı texnoloji əməliyyatları yerinə yetirirlər:

- Korporativ formada müxtəlif tipli sənəd formasında böyük həcmli biliklər toplusu yaradır;
- Biliklər toplusunun beynəlxalq biblioqrafik standartlara və təsnifat cədvəllərinə uyğun məntiqi strukturunu yaradır;
- Biliklər toplusunun təhlükəsizliyi üçün fiziki infrastrukturu və mühafizə vasitələrini təmin edir;
- Dünyanın istənilən nöqtəsindən və sutkanın ixtiyari zamanında toplanmış biliklər ehtiyatından oxucuların istifadəsini təmin edən operativ axtarış aparatı yaradır.

Korporativ rəqəmli kitabxana şəbəkəsi sənədlərə və metaverilənlərə əsaslanır. Sənəd haqqında informasiya daha mürəkkəb struktura malik olub, əlavə olaraq yaradıcının adı, biliklər dairəsində sənədin yeri, məxfiliyin səviyyəsi, paylanma üzrə uyğun siyahı və s. elementləri özündə əks etdirir. Korporativ rəqəmli kitabxana şəbəkəsı demək olar ki, yayılma və öyrənilmə üçün eyni şəkildə açıqdır. Buradan nəinki biblioqrafik və sənəd informasiyası, həmçinin çoxsaylı statistik informasiyalar əldə etmək olar.

Korporativ rəqəmli kitabxana şəbəkəsinin məntiqi strukturu vahid sxemə əsaslanır. Məsələn, Rusiya Federasiyasında vahid sxem olaraq UOT və ABŞ Konqres Kitabxanasının təsnifat sistemindən istifadə olunur [2]. Kitabxananın quruluşu korporasiyanın həyata kecirdiyi biznes vasitəsilə vahid modeli əks etdirməlidir.

Korporativ rəqəmli kitabxana şəbəkəsinin subyekti istifadəçilər, nəşriyyatlar, kitabxanalar və rəhbərlikdir. İstifadəçilər şəbəkəyə daxil olmaq üçün qeydiyatdan keçirlər. Korporativ rəqəmli kitabxana şəbəkəsi onları "oxucu biletinin" elektron ekvivalenti vasitəsilə müəyyən edir, nəşriyyatlar və rəhbərlik hesabatlarının hazırlanması məqsədilə istifadəçilərin uçotunu aparır.

Korporativ rəqəmli kitabxana şəbəkəsinin hər bir üzvü – kitabxanalar və informasiya mərkəzləri şəbəkənin dizayn və quruluşuna, onun məntiqi və fiziki infrastrukturuna görə cavabdehlik daşıyırlar. Üzv kitabxanalar nəşriyyatlar və istifadəçilər üçün qaydalar müəyyənləşdirir və Korporativ Rəqəmli kitabxana şəbəkəsindən istifadənin intensivliyi haqqında statistik məlumatları rəhbərliyə təqdim edirlər. Rəhbərlik toplanmış statistik informasiyalardan toplanmış biliklərin təbliğı və texnoloji proseslərin tənzimlənməsi, metaverilənlər və sənəd bazasının kəmiyyət və keyfiyyət xarakteristikasının qiymətləndirilməsi məqsədilə istifadə edir.

Korporativ rəqəmli kitabxana şəbəkəsi istifadəçilər üçün korporasiyanın daxilində konkret sənədin və ya elm sahəsinin axtarışını təmin edən axtarış siteminə malik olur. Axtarış sistemi aşağıdakı axtarış səviyyələrini təklif edə bilər:

a) Aşağı səviyyəli - müəyyən parametrə görə axtarış;

b) Kompleks, müxtəlif biblioqrafik elementlər üzrə axtarış.

c) Naviqasiyalı, hipermətnli [1] naviqasiya modellərdən istifadə edərək axtarış.

Sənəd konkret üzv kitabxana tərəfindən şəbəkənin informasiya ehtiyatına daxil olduqda korporativ rəqəmli kitabxana şəbəkəsinin yoxlama sahəsinə düşür və sənədi fiziki və məntiqi idarə etməyə imkan verən mexanizmlər işə qoşulur. Fiziki idarəetmə üsulu korporativ rəqəmli kitabxana şəbəkəsi sahəsini formalaşdıran informasiya texnologiyasının infrastrukturunu optimallaşdırmağa imkan verir. Məntiqi lahiyələndirmə üsulu şəbəkənin strukturuna və məzmuna uyğun sənədlərin təsnifatlaşmasını təmin edir.

Rəqəmli kitabxana şəbəkəsi, həmçinin sənəd ehtiyatlarının, metaverilənlərin təhlükəsizliyini, yeniləşdirilməsini, aktuallığını təmin edən mexanizmə maikdir. Belə ki, şəbəkə İSO və SEC [1] standartlarına uyğun hadisələrin protokollaşdırılmasını, kənar "hücumların" təhlilini, kitabxanadan köhnəlmiş sənədin avtomatik olaraq silinməsini, sənədin eyni zamanda müxtəlif versiyasının mövcudluğunu, modifikasiyasını təmin edən, ilkin nəşrin ləğv olunmasını və müxtəlif növlü sənədlərin yoxlanılmasını həyata keçirir.

Korporativ rəqəmli kitabxana şəbəkəsi çoxsaylı verilənlərin müxtəlif növlərini idarə edir və burada sənədlər ilkin nəşr olunduqları formatda, adi formatda, kanonik formatda saxlanılır. Bəzi hallarda korporativ rəqəmli kitabxana şəbəkəsində kanonik forma saxlanılır, digərində isə formanın yaradılması üçün alətlər toplusundan ibarət olan assosiativ sənəd saxlanılır.

Hər bir sənədə çağırıcı parametr-identifikator, təkcə korporativ rəqəmli kitabxana şəbəkəsi üçün unikal olmayan identifikator qoşulur. Bu parametr adi kitabxanadan anoloji olaraq onunla fərqlənir ki, özü fərdi qaydada sənədlərin yoxlanılması və ünvanlanması vasitəsi kimi metaverilənlər daşıyıcısından ibarət deyil.

Siyahılar korporativ rəqəmli kitabxana şəbəkəsinin əsas arxitektur elementidir. Siyahıda tərkibin, icazənin, şərt və təlimatın məcmusu toplanmışdır. Adətən korporativ rəqəmli kitabxana şəbəkəsi siyahısına aşağıdakılar daxildir:

- Yoxlama üzrə siyahı: işçilərin siyahısı;
- Xəbərdarlıq üzrə və distriubutiv siyahı: müəyyən sənəd, sənədlər qrupu və ya verilənlər kateqoriyasının korporativ rəqəmli kitabxana şəbəkəsinə daxil olması və dəyişməsi haqqında bildiriş almaq istəyən istifadəçilərin siyahısı;
- Hadisənin siyahısı: kitabxanaçılar və rəhbərlik üçün vasitəsiz maraq doğuran sənədlərin siyahısı, sənəd nə vaxt istənilib, dəyişilib, köhnəlib, və sistemə daxil edilib, blokə edilib;
- Predmet siyahısı: predmetlər, istənilən sənədlə bağlı ola bilən acar söz və mövzular;
- Təhlükəsizlik sinfi siyahısı: təhlükəsizlik kateqoriyası siyahısı

**Nəticə.**

Korporativ rəqəmli kitabxana şəbəkəsinin yaradılması üçün aşağıdakı texnologiyalar tətbiq edilir:

- Verilənlər Bazasının İdarəetmə Sistemi [3]
- İşçi qrupunun fəaliyyətinin təşkili üsulları
- Worklof sinif sistemi
- Web texnologiya [3]

Korporativ rəqəmli kitabxana şəbəkəsi, Web texnologiya əsasında verilənlər bazasını idarəetmə sistemlərinin tətbiqi ilə yaradılır. Bunun nəticəsində kvazistruktur idarəedilməyə əsaslanan paylanmış formada şəbəkənin sənəd və metaverilənlər bazası yaradılır və onların idarəolunması həyata keçirilir. Korporativ şəbəkənin informasiya axtarış sistemi Web texnologiya və üç səviyyəli kliyent-server arxitekturasına əsaslanır və müxtəliv səviyyəli operativ informasiya axtarışını təmin edir.

## ƏDƏBİYYAT

*1. Основы информатики / Под. Ред. Г.В. Алехиной. Москва: Маркет ДС, 2009. 472 с.*

*2. Митчелл Э.М., Брайан Э.С. Каталогизация и организация электронных ресурсов. Москва, 2002. 234 с.*

*3. Qurbanov İ.A., Qurbanov A.İ., Abdullayeva R.A. İnformatika. Bakı: Təhsil NPM, 2010. 464 s.*

*4. Шрайберг Я.Л. Как создать свой сервер / Под ред. Л.А. Казаченковой. Москва: Либерия, 2000. 64 с.*

## CORPORATIVE DIGITAL LIBRARY NETWORK

**E.M.MAMMADOV, S.I.MAMMADOVA**

***SUMMARY***

*This article is dedicated to the digital library network as a modern information system covering a huge amount of files and databases with utmost security regardless of their geographical location. It is created on the basis of management systems used in web technologies. These systems are used to make up the network's own databases and to secure their management. Search engine of this network is based upon three-leveled client-server architecture and provides search function for different kinds of information.*

## КОРПОРАТИВНАЯ ЦИФРОВАЯ БИБЛИОТЕЧНАЯ СЕТЬ

**А.М.МАМЕДОВ, С.И.МАМЕДОВА**

***РЕЗЮМЕ***

*В статье излагается цифровая библиотечная сеть – современная информационная система как в форме распределений в географическом удаленном расстоянии, собранные в файловых и web серверах , имеющая базу данных, такие для обеспечения безопасности документов. Она создается путем применения веб-технологий на основе системы управления базами данных. В результате чего, создается сеть методанных, основанной квазиструктурному управлению в распределенной форме, и обеспечивается их управления. Поисковая информационная система корпоративной сети основывается к web-технологии и архитектуре трехуровневого клиент-сервера и обеспечивает поиск оперативной информации различного уровня.*

# ELEKTRON KİTABXANALARIN YARADILMASININ ƏSAS KONSEPSİYALARI

**S.İ.MƏMMƏDOVA**
***Bakı Dövlət Universiteti***

*Məqalədə elektron kitabxanalrın yaradılmasının əsas konsepsiyaları nəzərdən keçirilir. Eləcə də, elektron kitabxanaların təşkilinin metod, proses və iş üsulları geniş izah edilir.*

Elektron kitabxana anlayışı miqyasına, informasiya məzmununa, funksional model və məqsədinə görə geniş ahətə dairəsinə malik olub, rəqəmli informasiya ehtiyatlarının idarəetmə sistemini xarakterizə edir. Elektron kitabxanalar elektron nəşrlər və digər formatlarda olan materialların retrospektiv rəqəmsallaşdırılması nəticəsində yaranan rəqəmli məlumatlar bazası əsasında yaradılır [2]. Elektron kitabxananın yaradılması rəqəmli informasiyanın sistemli və etibarlı mühafizəsi ilə yanaşı, toplanmış informasiya ehtiyatı əsasında coğrafi uzaqlıqdan asılı olmayaraq "real vaxt" rejimində elektron xidməti təmin edir.

Elektron kitabxananın yaradılması düzgün planlaşdırmadan başlayır. Mükəmməl planlaşdırmanın işlənib hazırlanması müəssisəyə öz məqsədini müəyyən etməyə, lazımi vacib ehtiyatları toplamağa, stabil texnoloji prosesləri həyata keçirməyə və onun nəticələrini əvvəlcədən görməyə imkan verir. Elektron kitabxananın planlaşdırılmasında ilk növbədə elektron kolleksiyanın yaradılmasının hansı məqsədə xidmət edəcəyini müəyyənləşdirmək lazımdır. Cünki bu proses çox vəsait tələb edən layihədir və buna görə də layihənin hər bir mərhələsi üçün tələb olunan vəsaitin miqdarını və təyinatını əvvəlcədən tam müəyənləşdirmək lazımdır. Rəqəmsallaşdırılmanın əsas səbəbi istifadəçilər tərəfindən ən çox tələb olunan informasiya ehtiyatlarından istifadəni sadələşdirmək, oxucu tələbatını uzaq məsafədən ödəməkdir. Həmçinin rəqəmli kolleksiyalar istifadə olunmayan və ya pis vəziyyətədə olan ənənəvi kitabxana fondlarına diqqətin ayrılmasına və ondan istifadəyə xidmət məqsədi də daşıya bilər. Belə ki, kitabxananın nadir fondunda və ya arxivlərdə elmi işçilər üçün böyük maraq kəsb edən, lakin müntəzəm istifadəyə yaramayan, davamsız olan nadir və zərif materiallar saxlanıla bilər. Bu tip nadir fondun rəqəmsallaşdırılması isə bu kolleksiyalara yüksək səviyyədə çıxışı təmin edir.

Rəqəmli kolleksiyanın təyinatını müəyyən etdikdən sonra elektron kitabxananın yaradılması üçün aşağıdakı proseslər həyata keçirilməlidir:

- Rəqəmləşdiriləcək obyektlərin seçimi
- Müəllif hüquqlarının təmin edilməsi

- Obyektin rəqəmsallaşdırılması
- Rəqəmli obyektin elektron kitabxananın informasiya bazasına daxil edilməsi
- Metaverilənlərin yaradılması
- Istifadəçi interfeysinin yaradılması
- İstifadənin idarə edilməsi
- Rəqəmli kolleksiyaların və metaverilənlərin təhlükəsizliyinin təmin edilməsi.

Bu əsas proseslər praktiki olaraq lokal faktorlardan asılı olub, konkret sistemdə həyata keçirilən bütün rəqəmli layihələr üçün xarakterikdir. Rəqəmsallaşdırma prosesinə kolleksiyanın oxşarlığı və tipi, ölçüsü, sənədin vəziyyəti, rəqəmli fayl üçün tələb olunan keyfiyyəti, avadanlıqların mövcudluğu və rəqəmləşdirmə üçün sahə, texnikanın təsnifatı və s. təsir edir.

Rəqəmli layihənin planlaşdırılmasından sonra rəqəmləşdiriləcək fond seçilir. O, layihənin məqsədinə uyğun olmalıdır. Məsələn, əhalinin müəyyən qrupunun maraqlarına uyğun gəlməli və ya hər hansı əlamətdar hadisəni əhatə etməlidir [1]. Fondun rəqəmsallaşdırlması üçün fondun seçimi prosesində əsas məqam müəllif hüququnun müəyyən edilməsidir. Əgər kolleksiya ictimai əmlak deyilsə, bu zaman mülküyyətçinin müəllif hüquq qorunmalıdır. Bu məqsədlə kolleksiyaya çıxış və rəqəmləşdirmə haqqında icazə almaq lazımdır. Müəllifin fonda çıxışın səviyyəsini: tam açıq və müəyyən məhdudiyyətlərlə və lisenziya ilə olması müəlliflə mütləq razılaşdırılmalıdır. İstifadə lisenziya ilə olduqda kolleksiyaya daxil olma oxucunun "qeydiyyat adı/parol" və ya şəbəkə ünvanının autentifikasiyası vasitəsilə baş verməlidir.

Rəqəmsallaşdırma - kolleksiyanı təşkil edən obyektlərin fiziki xarakteristikası ilə müəyyən olunan mürəkkəb prosesdir [2]. Rəqəmsallaşdırma prosesində müəyyən miqdarda ayrı-ayrı rəqəmli obyektlər meydana çıxır. Onu da qeyd edək ki, rəqəmsallaşdırma prosesində nəzərə almaq lazımdır ki, işə başlamazdan əvvəl kitabxananın ixtiyarında tələb olunan texniki avadanlıqlar və obyektlər lazımi miqdarda mövcud olsun və bu işdə rəqəmləşdirmə texnologiyası ilə tanış olan ixtisaslaşmış mütəxəssislər iştirak etsin.

Rəqəmli obyektlər sistemə xüsusi proqram vasitəsilə elektron kitabxananın informasiya bazasına iki üsulla – növbəli və paket üsulu ilə daxil edilir.

Elektron kitabxanaya oxucular İnternet şəbəkəsi əsasında istifadəçi interfeysi vasitəsilə daxil olurlar. İstifadəçi interfeysi iki əsas funksiyanı –obyektlərin axtarışını və onların vizual oxunmasını təmin edir.

Elektron kitabxanalarda axtarış sistemləri metaverilənlər sxemlərinə əsaslanır. Yaxşı təşkil edilmiş zəngin ünsürlü mataverilənlərin sxemi geniş axtarışa imkan verir. Sadə metaverilənlər isə sadə axtarış funksiyasını yerinə yetirir.

İstifadənin idarə edilməsi rejimi elektron kitabxanaya çıxışın məhdudiyyətini müəyyən edir. Bu müəllif hüquqlarının qorunmasının təmin edilməsi məqsədi daşıyır. İstifadənin idarə edilməsi rejimi daha bir məqsəd-onlayn fonddan gəlirin əldə edilməsi məqsədini daşıya bilər. Belə ki,onun vasitəsilə elektron ticarət də həyata keçirmək mümkündür.

Qeyd edək ki, rəqəmli kolleksiyaların və metaverilənlərin təhlükəsizliyinin təmin edilməsi elektron kitabxananın davamlı fəaliyyəti üçün əsas şərtdir. Bunun üçün ilk öncə müasir texniki-proqram təminatı əsasında təhlükəsizlik siyasəti işlənilməlidir. Bu siyasət əsasında elektron kitabxanaya qarşı xaricdən edilən bütün "hücumların" qarşısı alınmalı, informasiya ehtiyatlarnın ehtiyat surətləri hazırlanmalıdır.

Elektron kitabxana daim yeniləşmə, inkişaf və profilaktik iş tələb edir [3]. Bu məqsədlə kitabxanaya bütün funksional istiqamətlərdə peşəkar mütəxəssislər-təsvirin işlənməsi, mətnin rəqəmsallaşdırılması üzrə mütəxəssis, kompüter şəbəkəsinin eksplutasiyası üçün sistem administratoru və proqramlaşdırıcılar, metaverilənlərin yaradılması və daxil edilməsi üçün kataloqlaşdırıcılar, bir neçə layihə rəhbəri, eyni zamanda istifadəçilərin kolleksiyaya cıxışına kömək və onlarla iş məqsədilə xidmət şöbəsi işçiləri tələb olunur. Elektron kitabxanaların yaradılması üzrə yaxşı layihə meneceri hərtərəfli biliklərə və yüksək ixtisaslaşmaya malik olmalı, eyni zamanda elektron kitabxana sistemlərindən yaxşı başı çıxmalı, layihəni idarə etməyi bacarmalı, maliyyələşdirmə və hesabat məsələlərini bilməlidir.

## ƏDƏBİYYAT

1. *Xələfov A.A., Qurbanov A.İ. Kitabxanaların kompüterləşdirilməsinin əsasları: Dərslik. Bakı:BUN, 2007. 200 s.*

2. *İsmayılova N.N. Ənəbi müəlliflər elektron kitabxanalar haqqında // Kitabxanaşünaslıq və informasiya: Elmi-nəzəri və praktik jurnal. Bakı: BUN, 2010. № 1. 128 s.*

3. *Земсков А.И., Шрайберг Я.Л. Электронная информация и электронные ресурсы. Москва, 2007. 528 с.*

4. *National Information Standards Organization. 2004. "A Framework for Building Good Digital Collections". Bethesda, MD.: National Information Standards Organization. Available: www.niso.org/ framework/ forumframe work. html. Accessed January 27, 2005.*

5. *Chapman, Stephen. Techniques for Creating Sustainable Digital Collections. Library Technology Reports 40, 2004, no.5 (September/October): 1-64.*

*6. Grahame Vicki and Tim McAdam. Managing Electronic Resources. Spec Kit 282.Washington DC: Association of Research Libraries Office of Leadership Services. 2004.*

## MAIN CONCEPTIONS FOR FORMATION ELEKTRON LIBRARIES

**MAMEDOVA S.İ.**

***SUMMARY***

*The article covers main conceptions for forming electron libraries. Processes, methods and facilities of work for formation of elektron libraries are investigated in this article.*

## ОСНОВНЫЕ КОНЦЕПЦИИ ДЛЯ СОЗДАНИЯ ЭЛЕКТРОННЫХ БИБЛИОТЕК

**МАМЕДОВА С.И.**

***РЕЗЮМЕ***

*В статье рассмотрена основные концепции для создание электронные библиотеки. А также подробно объясняется процессы, методы и средства работы для создания электронных библиотек.*

# NİKOLAY RUBAKİNİN YARADICILIĞINDA BİBLİOPSİXOLOGİYA NƏZƏRİYYƏSİ VƏ KİTABXANAŞÜNASLIQ

**E.L.ƏJDƏROV**
***Bakı Dövlət Universiteti***

*Nikolay Aleksandroviç Rubakinin bibliopsixoloji elmi irsi dünya kitabxanaşünaslığın inkişafına böyük metodolojı təsir göstərmişdir. Məqalədə N.A.Rubakinin bibliopsixolojı nəzəriyyəsi geniş şərh edilir.*

Beynəlxalq Bibliopsixoloqiya İnstitutunun yaradıcılarından biri olan Nikolay Aleksandroviç Rubakinin (1862-1946) elmi irisində ifadə olunan "bibliopsixologiya" anlayışı iki sözdən ibarətdir - "biblio" və "psixologiya". Əlbəttə, burada ilk növbədə kitabxanaşünaslıq kimi dərin bir elm sahəsi diqqət mərkəzinə gəlir. Azərbaycanda kitabxanaşünaslıq elminin banisi prof. A.Xələfov kitabxanaya belə bir tərif vermişdir: "Kitabxana - elm, informasiya, mədəniyyət, təhsil-tərbiyyə müəssisəsi kimi çap əsərlərinin və digər informasiya daşıyıcılarını toplayıb mühafizə edən, onların sistemli-ictimai istifadəsini təşkil edən, cəmiyyətin intellektual və mənəvi potensialının inkişafına xidmət göstərən sosial institutdur" [1, 245].

Məntiqlə yanaşdıqda prof. A.Xələfov kitabxanaya verdiyi tərifdə ilkin olaraq "elm" sözünü təsadüfi qeyd etmir. Məhz elmin gücü ilə bütün sahələrdə uğurlar əldə olunur. Kitabxana elmlər sisteminin ilkin mənbəyidir. Daima artan informasiya axını, sistemli olaraq məhz kitabxanalarda yerləşir və kitabxana işi fəaliyyəti vasitəsi ilə cəmiyyətin istifadəsinə verilir.

Cəmiyyətin inkişaf tarixinə nəzər saldıqda kitabxana işinin, kitabxanaşünaslığın inkişaf xəttini və səviyyəsini aydın görmək olar. Zaman-zaman daima yeniliklər və bununla əlaqəli müxtəlif yeni sahələr yaranır. Daha dəqiq desək, elmlər inteqrasiya və differensasiya etdikcə bu yeniliklər cilalanaraq daha yeni bir forma və məzmun alır. Kitabxanaşünaslıq elmi də bu inkişaf tarixində fəlsəfə, tarix, sosiologiya, riyaziyyat, iqtisadiyyat pedaqogika, psixologiya və s. elm sahələri ilə sıx əlaqədə inkişaf etməkdədir. Bu elm sahələrindən biri də psixologiyadır. Bu barədə prof.A.Xələfov yazır: "Kitabxanaşünaslıq insan şüurunun formalaşmasında kitabın və mütaliənin rolunu öyrənərkən psixologiyanın elmi metodlarına əsaslanır, onun elmi nəticələrindən, tövsiyələrindən geniş surətdə istifadə edir" [2, 256].

Yaşadığımız cəmiyyətdə istənilən bir fəaliyyət sahəsində daima insanlar arasında ünsiyyət əsas əlaqə, rabitə vasitəsidir. Bu ünsiyyət prosesində bir çox incə və mürəkkəb məqamlar üzə çıxır. İnsan və onun daxili aləmi, ətrafla münasibətləri və bu münasibətlərin xüsusiyyətləri psixologiya elminin tədqiqat

sahələrində üzə çıxır. Kitabxanaçı və oxucu, müəliflə oxucu, kitabxana və cəmiyyət arasında əlaqə ünsiyyət vasitəsi ilə yaranır. Bu mənada kitabxanaçı kadrların hazırlanmasında, kitabxana işi fəaliyyətində mövcud kollektivin təşkili və idarə olunmasında sözsüz ki, kitabxanaşünaslıq elmi psixologiya elminin metodlarından istifadə etməyə bilməz. Psixologiya və kitabxanaşünaslıq elminin bir-birinə olan inteqrasiyası da bu səbəbdən irəli gəlir. Prof.A.Xələfov isə bu prosesin qədim dövrlərdən başlandığını qeyd edir: "Psixologiya ilə kitabxana işi və kitabxanaşüanaslıq arasında əlaqə lap qədim dövrlərdən mövcud olmuş, getdigcə inkişaf edib təkmilləşmiş, xüsusi elmi fənn olan "Bibliopsixologiya və ya "Kitabxana psixologiyası" kimi yeni fənnlər meydana gəlib formalaşmışdır" [2, 256].

"Bibliopsixologiya" terminin ikinci əhəmiyyətli tərəfi "psixologiya" sözüdür. Psixologiya klassik mənbələrdə aşağıdakı kimi ifadə olunur: "Psixologiya beyində obyektiv aləmin subyektiv surəti kimi əmələ gələn psixikanın faktları, qanunauyğunluqları və mexanizmləri haqqında elmdir" [4,19].

İlk baxışdan elə görünə bilər ki, bibliopsixologiya oxucu və müəllif psixologiyasını araşdırır. Əslində məsələyə bu cür dar çərçivədə yanaşma səhv olardı, çünki oxucu və müəllif psixologiyası özü də cəmiyyətdə baş verən məsələlərlə dialektik vəhdətdə əlaqəlidir. Aydındır ki, tarixin gedişində oxucu zövqləri, tələbatları, maraqları, sorğuları, dünyagörüşü prinsipləri dəyişirsə, bu da öz növbəsində, müəlliflik və bütün kitabxana işinin mexanizmini dəyişir. Kitabxana işi öz fəaliyyətində təkcə oxucu və müəlliflə bağlı məsələləri əhatə etmir, onun təhsil, tərbiyyə, elmi informasiya təminatı və s. kimi funksiyaları da yerinə yetirir. Ona görə də bu və ya digər tərəflərin psixoloigyasını öyrənmək üçün bir başa kitabxana işi anlayışı ilə əlaqədar məsələlərin psixologiyası öyrənilməlidir. Əgər bibliopsixologiyanın mahiyyətini oxucu marağı ilə eyniləşdirsək, bu bibliopsixologiyanın mahiyyətini dar çərçivəyə sala bilər. Fəlsəfi məntiqlə qoyulan məsələyə yanaşdıqda isə maraqlı bir tərəf üzə çıxır. İstər təbiətdə, istər cəmiyyətdə bütün proseslər daima nisbi olaraq hərəkətdədir. Qeyd etdiyimiz fikrə istinad olaraq filosof Zeynəddin Hacıyevin fikrinə nəzər salaq: "Bizi əhatə edən dünyada hər şey daima hərəkətdədir" [5,169].

Məsələyə psixoloji aspektdən yanaşdıqda isə görmək olar ki, ümumi olaraq cəmiyyətdə baş verən bütün proseslərdə olduğu kimi, həmçinin kitabxana işi fəaliyyətində də psixi proseslər hər an, hər dəqiqə insanları müşahidə edir. Bu mənada bibliopsixologiya elminin tədqiqatçısı Nikolay Rubakin bibliopsixologiyanı iki istiqamətdə: daxili və vizual mənalarda izah edir: "Bibliopsixologiyanın daxili mənası: Bu mənada bibliopsixologiya psixoloqiyanın bir qolu kimi çıxış edir. Bibliopsixologiya sərbəst mövcud olmaq hüququna malikdir. Belə ki, pedaqoji psixologiya, hansı ki, onun obyektini uşağın psixologiyası və tərbiyyəsi təşkil edir. Bu mənada psixologiyanın bir qolu kimi bibliopsixologiya müstəqil sahədir [6,41].

Vizual məna barədə fikir bildirməzdən əvvəl qeyd edək ki, XIX-XX əsrlərdə yaşamış N.Rubakin bibliopsixoloji tədqiqatında "книжное дело" ifadəsini işlətmişdir. Azərbyacan dilinə tərcümə olunarkən bu ifadə "kitab işi" kimi səslənir. "Kitab işi" anlayışı ilə "kitabxana işi" anlayışını eyniləşdirmək səhv olardı. Kitab işi kitabın nəşri, yayılması, satışı, poliqrafiyası, nəşriyyat məsələlərini və s. əhatə edir. Əlbəttə, bu proseslər kitabxana işi fəaliyyətinin fonunda üzə çıxır. Lakin N.Rubakin bu fikirləri ilə kitab və kitabxana işi anlayışlarına aydınlıq gətirir: "Bəs kitab işi nədir? Bu iş heç də sakitçilikdə gedən bir proses deyil, bu heç də kitab tozunun, kitab kütləsinin udulması da demək deyil, bunu kitablar yığını kimi də başa düşmək olmaz. Bu iş coşqun, yəni bu proses ictimai-sosial, mübariz atmosfera ilə yaranır. Axı bizim məqsədimiz cəmiyyətimizi bilikli, dərrakəli, şüurlu etməkdir. Məgər kitab işini adi, ölü olan kitab yığını ilə eyniləşdirmək olarını? Ona görə də mən deyirəm: Bu iş həyatın özü və mübarizədir" [6, 608].

Kitab işini yüksək mənəvi dəyərlər çərçivəsində ortaya qoyan N.Rubakin "kitabxana" ifadəsini geniş və rasional analiz etmişdir: "Kitabxana - cəmiyyətin gözəl bir gələcəklə təminatı üçün güclü bir silahıdır, bu təkcə elmi bilikləri yayan müəssisə deyil, həm də cəmiyyətin sosial əhval-ruhiyyəsini təyin edən vasitədir. Əgər bu işi kitab yerinə yetirirsə, onda nəyə görə ümumilikdə kitabxana-kitabların assossiyası bu işdə rol oynamasın?" [6, 608].

Aydın oldu ki, N.Rubakinin düşüncəsində "Kitabxana" sosial-ictimai şüurun formalaşmasında böyük rol oynayan vasitə kimi qiymətləndirilmişdir. O, bir kitabı müəyyən biliyi, elmi özündə əks etdirən kitabxananın kiçik modeli kimi ortalığa qoyur və "nəyə görə də ümumilikdə kitabxana-kitabların asossiyası bu işdə rol oynamasın?" deyərək kitabxana işini diqqət mərkəzinə gətirmiş olur. Belə bir qənaətə gəlmək olar ki, "kitab işi" ifadəsini səsləndirərkən N.Rubakin kitabxana işinin fonunda tərkib hissə kimi rol oynayan prosesi nəzərdə tutur. Bu prosesdə fərdin psixologiyası ön plana keçirsə, kitabxana işində isə cəmiyyətin psixologiyası diqqət mərkəzinə gəlmiş olur.

N.Rubakinin dili ilə desək, vizual mənada bibliopsixologiya kitabxana işi və onunla bağlı məsələlərin psixologiyasını araşdıran elm kimi çıxış edir. Bu mənada N.Rubakin xüsusi olaraq qeyd edir ki: "Bibliopsixologiyanın vizual mənada xüsusi obyekti məhz kitab işi nəzərdə tutulur" [6, 41].

Cəmiyyətdə baş verən bütün psixi proseslərin tərkib hissəsi kimi "kitab" anlayışı bibliopsixoloji yanaşmada psixi prosesin son nəticəsi kimi qiymətləndirilir. N.Rubakin isə qeyd edir: "Söz, ifadə, kitab, kitablar yığını, bütün ədəbiyyat, bu mənada reaksiyanı yaradan amil kimi çıxış edir. Elə bil ki, öyrənilən kollektivə və şəxsiyyətə təsir edəcək amil, qıcıqlandırıcı-reaktiv rolunda çıxış edir" [6, 42].

Burada isə maraqlı və vacib olan bir cəhət ondadır ki, kitab da özündə cəm etdiyi məzmunla bərabər obyektiv aləmin tərkib hissəsi kimi çıxış edir.

Bir halda ki, fərd subyektdir, onu əhatə edən aləm isə həm obyekt, həm də qıcıqlandırıcı reaktivdir. İstənilən qıcıq mahiyyət etibarı ilə obyektiv aləmdən gəlir. Obyektiv aləmə cavab olaraq yaranan reaksiyaların kəmiyyət və keyfiyyət göstəricilərini reaksiya verənin xarakteristikası kimi ifadə edən N.Rubakin yazır: "Bibliopsixologiya elə məhz kitab işinin psixologiyası barədə elmdir, tədqiq edilən reaksiyalar, xarici əlamətlər əsasında öyrənən elmdir" [6, 42].

Yəni daha dəqiq desək, bibliopsixologiya kitabxana işi fəaliyyətində baş verən bütün prosesləri reaksiyalar, xarici əlamətlər əsasında tədqiq edir. Digər tərəfdən istərdim qeyd edim ki, kitabın yaranması N.Rubakinin yanaşmasında belə ifadə olunur: "Hamıya aydındır ki, kitabın yaranması ilk öncə danışıq (şifahi nitq) vasitəsi ilə başlanır, hansı ki, sistemli olaraq yazılır və bu şəkildə kristallaşır-maddiləşir" [6, 46].

Aydındır ki, bu cür yanaşmada N.Rubakinin kitabın yaranma prosesini sadədən mürəkkəbə doğru inkişaf prinsipini əsas meyar tutaraq analiz etmişdir. Burada ilkin səbəb kimi şifahi nitq əsas götürülür, həmçinin şifahi nitq özlüyündə reaksiya yaradan-qıcıqlandırıcı rolunda çıxış edir. Bu reaksiya isə əslində psixi prosesdir. İnsan nitqi psixoloji cəhətdən psixi prosesdir. Deyilənlə əlaqədar olaraq aşağıdakı cümləyə bir daha nəzər salaq: "Psixika obyektiv aləmin subyektiv inkasıdır" [4, 15].

İnsanın daxili "mən" dünyasında əks olunan obyektiv aləmin inkası kimi psixika özlüyündə zahiri-vizual tərəfdən nitqdə ifadə olunaraq özünü göstərir. Daha lakonik desək, bu cür səslənir, nitq psixikanın zahiri tərəfidir. Prof.Ə.Bayramovun fikirləri isə qeyd olunan mülahizəni daha da aydınlaşdırır: "Dar mənada isə psixi proses dedikdə duyğu, qavrayış, hafizə, təfəkkür, nitq, təxəyyül və s. kimi idrak proseslərini nəzərdə tutacağıq" [4, 9].

Başqa bir tərəfdən şifahi nitq formasını dəyişərək yazıya, əlyazma formasına keçid alır. Əlyazma isə çap məsulu-nəşr formasına keçid alır. Psixoloji yanaşmada bu formalar qıcıqlandırıcı rolunu daşıyır. Kitabxanaşünaslıq istiqamətində isə bu maddi daşıyıcı və mənəvi dəyərləri özündə əks etdirəcək informasiya daşıyıcısı və s. funksiyalarını yerinə yetirmiş olur. N.Rubakin isə maraqlı bir sualı ortaya qoyur: "Bu üç forma(nəşr, əlyazma, şifahi söz) arasında sərhəd varmı, birini digər ikisini öyrənmədən öyrənmək olarını?" [6, 47].

Şifahi nitq artıq yazı və nəşr formalarına keçdikcə psixi proses olan nitqin bir çox elementləri (intonasiya, deyiliş, vurğu, jestlər) öz mahiyyətini itirmiş olur. Bütün bu prinsipləri nəzərə alaraq N.Rubakin yazır: "Nəşr və əlyazma əsərlərini psixoloji nöqteyi nəzərdən öyrənmək üçün yalnız bunu şifahi danışıqdan ayırmadan öyrənmək lazımdır. Ona görə də bibliopsixologiyanın obyekti-nəşr, əlyazma və şifahi danışıqlar sayılır."[6, 47].

Hər hanısı bir nəşrin, kitabın yaranması, onun satışı, dövriyyəsi və s. kitabxana işi fəaliyyətində cəm olunan bütün proseslər özlüyündə bir əmək prosesidir. Nümunə olaraq özlüyündə əmək prosesi kimi mahiyyət daşıyan kitab

işi elə bir əmək prosesidir ki, burada insan əməyinin müxtəlif formaları ortaya çıxır. Bu proses zamanı isə istənilən kollektiv birləşərək vahid bir tam kimi fəaliyyət göstərir. Bu proses zamanı həm fərd, həm də kollektiv müxtəlif məsələləri həll edir. Yəni bu əmək prosesi zamanı başlanğıcdan sona qədər hər bir fərddə müxtəlif psixi hallar müşahidə olunmaqdadır. Digər tərəfdən, bu əmək prosesi zamanı hər bir işçinin psixoloji vəziyyəti və ümumilikdə kollektivin psixoloji halı mümkün deyil ki, məhsulda bir iz buraxmasın. Psixoloji tərəfin işin gedişində əsas göstərici kimi qiymətləndirən N.Rubakin qeyd olunanları bu fikri ilə təsdiq edir: "İşçinin psixologiyası və onun əməyinin psixologiyası bu əməyin nəticəsində və məhsulda konkret bir iz qoyur" [6, 48].

Əmək prosesi zamanı bütün işçilərin psixi vəziyyəti, bir-birinə olan psixoloji münasibətləri, rəhbərliyin kollektivə münasibətləri psixoloji baxımdan əmək məhsuldarlığının ilkin göstəricilərindən biridir. Bütün bu məsələlərin fonunda N.Rubakin yazır: "Kitab işi beləliklə əmək və əmək prosesidir. Kitab işinin psixologiyası isə bü cür əmək və prosesin psixologiyasıdır" [6, 49].

Tarixilik prinsipi baxımından diqqət etdikdə aydın olur ki, XIX-XX əsrlərdə elmin inkişaf səviyyəsi ilə bugünkü yeniliklər arasında böyük fərq var. Bu gün artıq şifahi, əlyazma, nəşr tipi kimi klassik sayılan qıcıqlandırıcılardan fərqli olaraq elektron nəşr tipi yaranmışdır. Bu elektron daşıyıcıların oxucuda, istifadəçidə yaratdığı təsir də özünəməxsus xüsusiyyətə malikdir.

Unutmaq olmaz ki, yaşadığımız həyat məkan, zaman, mühit kimi anlayışlarla daima hesablaşır. Həmçinin qoyulan məsələdə bu üç aspekti görmək olar. N.Rubakin bir əmək prosesi hesab etdiyi kitabxana işi prosesində hər bir işçini ayrılıqda, yəni daha dəqiq desək, işçinin işdə reaksiya və hərəkətini aydınlığı ilə öyrənməyi zəruri hesab edir. Həmçinin işçilərin birlikdə öyrənilməsini də qeyd edir. Nəticədə isə N.Rubakin yazır: "Bibliopsixologiyanın işi, vəzifələri-kitab işi işçilərinin hərəkətlərinin məkan, zaman, sosial mühitin müxtəlif aspektlərində, vəziyyətlərində obyektiv öyrənilməsidir " [6, 48].

Bibliopsixologiyanın mahiyyəti fərdin ətraf mühitə-obyektiv aləmə və obyektiv aləmin fərdə olan təsiri prosesində aydınlaşır. Obyektiv olaraq qeyd etmək olar ki, canlı insan istər oxucu, istər müəllif, istər kitabxanaçı-biblioqraf və s. istənilən bir şəxs ictimai-sosial mənsubiyyətindən asılı olmayaraq ətrafa verdiyi reaksiya əsasında, daha dəqiq desək, psixi münasibəti əsasında bibliopsixoloji dəyəri ortaya çıxartmış olur. Əvvəlcə bu dəyər söz şəklində yəni, şifahi formada ortalığa çıxır. Sonra maddi formalara (əlyazma, nəşr, elektron) keçir. Bu dəyərlər insanın gündəlik həyatında daima onu müşahidə etməkdədir. Diqqətlə analiz etdikdə isə aydın olur ki, bu dəyərlər sabit formada qalmır, daima yeniləşərək dövriyyə edir. Nəticədə isə istifadə edilərək öz dəyərini itirir. Bu dəyərləri kitabxana işi fəaliyyətinin yaranmasında əsas amil kimi qiymətləndirmək olar. N.Rubakin bu məsələrin fonunda bibliopsixologiyanın məzmununa aşağıdakıları daxil edir: 1) Nəşr, əlyazma, şifahi dəyərlərin yaran-

ma prosesi; 2) Onların dövriyyəsi, sosial mühitə ötürülməsi və onlara istiqamətləndirmə və cəlbolunma prosesləri; 3) Onların utilizasiyası prosesləri.

Məntiqlə baxsaq bibliopsixologiyanın həcmi əslində onun mahiyyətini tamlığı ilə aydınlaşdırır. Özlüyündə hər bir proses ayrılıqda geniş bir mövzudur. Bu üç proseslə birlikdə öz həcmini və çəkisini təyin edən bibliopsixologiya əslində mahiyyətini geniş mənada ifadə edir. Bibliopsixoloji nöqteyi-nəzərdən kitab və kitabxana işi məsələləri bir nöqtədə durmayan, daima hərəkətdə olan, dəyişən bir prosesdir. Bu prosesdə isə həm maddi, həm də mənəvi dəyərlər vəhdətdə hərəkət edirlər. Buna nümunə olaraq gündəlik həyatımıza müraciət edək. Götürək istənilən bir N müəllifli kitabı. Bu zaman insan-müəllif fikirləri və düşüncələrini obyektiv aləmdə gördüklərini dərk edib, müəyyən dünya görüşü prizmasında kağız üzərinə köçürdür. Sonra bu əlyazma nəşr tipinə keçir. Nəşr tipinə keçənə qədər isə nəşriyyat işi işçilərinin birgə fəaliyyəti əsasında maddiləşərək kitab halına keçir. Sonra isə bu kitab kitabxanalara, elektron kitabxanalara, kitab bazarına daxil olaraq dövriyyə edir. Müəyyən zamandan sonra isə bu kitab müxtəlif səbəblərə əsasən dövriyyədən çıxır. Bibliopsixoloji yanaşmada isə bu göstərdiyimiz nümunədə hər bir hissə müəyyən psixi təsirlərlə müşahidə olunur. Bu prosesin daxilində isə bir neçə xüsusiyyəti N.Rubakin aşağıdakı kimi xarakterizə edir: "İstənilən bir kitabın trayektoriyası kəsik-kəsik olur. Əldən-ələ keçir, şəxsdən şəxsə, sosial mühitə ötürülmə üçün müəyyən zaman tələb olunacaq. Müxtəlif keçidlərdən sonra hər hansı psixoloji bir iz qalır. Ötürənin psixologiyası qəbul edənin psixologiyasından müəyyən qədər fərqlənir. İnsanın insana yanaşma psixologiyası, kollektivin insana, insanın kollektivə yanaşması özü özlüyündə istənilən kitabın hərəkət trayektoriyasında bibliopsixoloji sement rolunu oynayır " [6, 51].

N.Rubakinin qeyd olunan fikirləri müasir dövrdə kitab marketinqi, piyar texnologiyalarının nəzəri əsasını təşkil edir. Göründüyü kimi, ilk baxışdan adi səslənən bibliopsixologiya daxilən böyük və mürəkkəb olan sistemli prosesi özündə cəm edir. Lakin diqqəti N.Rubakinin yuxarıda qeyd etdiyi "ötürən" və "qəbul edən" ifadələrinə yönəltmək istərdim. Mahiyyətə vardıqca aydın olur ki, bibliopsixologiya fəlsəfənin dialektika qanunu olan "əksliklərin mübarizəsi və vəhdəti" qanunu ilə müşahidə olunur. "Əksliklərin vəhdəti və mübarizəsi qanunu inkişaf prosesinin daxili mənbəyini və hərəkətverici qüvvəsini açır" [5, 193]. Yəni informasiyalaşmış cəmiyyətdə istənilən informasiya zamanın müəyyən kəsiyində daima dövrü olaraq bir mənbədən digərinə doğru istiqamətlənməkdədir. Bir mənbə ötürən, digəri isə qəbul edəndir. Eyni zamanda N.Rubakinin yanaşmasında bunu müəllif və oxucu, danışan və dinləyən, kitabı satan və alan və s. formalarda görmək olur. Lakin bu məsələlərin fonunda N.Rubakin kitabın fiziki mənada ötürülməsi ilə kitabın məzmununun ötürülməsi məsələlərini ortaya çıxarır və belə bir fikirlə müraciət edir: "Dinləmək çox çətin bir əməkdir. Ondan çətini isə oxuma prosesidir. İndi isə bizim qarşı-

mızda sual var: Görəsən, bu cür ötürülmə və keçid proseslərində nəşr, əlyazma, şifahi sözün məzmunu pozulur, yoxsa pozulmur?" [6, 52].

Təbii ki, bu sualın həlli böyük bir prosesin yekunu deməkdir. Böyük bir əmək prosesinin psixologiyasını öyrənən bibliopsixogiya elmində N.Rubakin bu prosesin iştirakçısı olan istənilən bir şəxsi "işçi" tituluna layiq görür. Belə ki, o, bu məsələ ilə bağlı qeyd edir: "Deməli, nəşr, əlyazma, şifahi sözün öz trayektoriyası boyunca hərəkəti prosesi zamanında iştirak edən bu və ya digər şəxsləri biz "kitab işinin işçiləri" adlandıracağıq. Onların sırasına müəllif, oxucu, yığıcı, redaktorlar, kitab satıcıları və s. daxil etmək olar" [6, 52].

Bu fikirlərdən belə qənaətə gəlsək ki, N.Rubakin kitab işinin işçiləri sırasına "kitabxanaçı"nı daxil etmirsə, əlbətdə bu qeyri-məntiqli hesab olunacaq. Çünki bir halda ki, nəşr, əlyazma, şifahi sözün öz trayektoriyası boyunca hərəkəti zamanı işitrak edən hər bir şəxsi nəzərdə tutursa, aydın məsələdir ki, bu hərəkət trayektoriyası həm kitabxanadan, həm də orada fəaliyyət göstərən kitabxanaçıdan yan keçə bilməz.

Göründüyü kimi, böyük bir əmək prosesi olan kitab və kitabxana işində iştirak edən istənilən fərdi N.Rubakin diqqətdən kənarda qoymur və məsələyə obyektiv yanaşır. O, insanı qeyd olunan məsələlərdə ön plana çəkir: "Bibliopsixoloji nöqteyi nəzərdən istənilən bir dəyərin öz trayektoriyası boyunca hərəkətində ən vacib məsələ insanın insana olan yanaşma psixologiyasıdır ki, bu isə böyük əhəmiyyət kəsb edir. Bütün kitab işi(kitabxana işi) bu cür yanaşmalardan yığılır, cəmlənir, ibarət olur " [6, 51].

Qeyd edilən fikrə istinadən demək olar ki, kitabxana işi fəaliyyəti zamanı insan faktoru bibliopsixoloq üçün ön plana keçir. Bu amil isə bibliopsixologiyanın əsas xüsusiyyətlərindən biri kimi çıxış edir. Eyni zamanda etriaf edək ki, bibliopsixologiyanın dirəklərindən biri olan "kitabxana işi" fəaliyyətində insan faktoru əsas diqqət edən tələb edən məsələlərdən biridir. Məhz kitabxana işi işçilərinin və rəhbərliyinin cəmiyyətlə qarşılıqlı fəaliyyəti əsasında kitabxana sosial institut statusuna malik olur. Cəmiyyətin mənəvi dəyərlərini sivil dərəcəyə çatdırmağa xidmət edən kitabxana işi fəaliyyətində hər bir şəxs böyük və bütöv bir canlı prosesin vacib bir hissəsidir. Hər bir fərdin-insanın bu işdə göstərdiyi münasibət bibliopsixologiya üçün əsas tədqiqat obyektidir.

Beləliklə, N.Rubakinin dili ilə desək, bibliopsixologiya həm də özlüyündə böyük bir əmək prosesi olan kitabxana işi fəaliyyətinin psixologiyasını öyrənən elmdir. Bu baxımdan bibliopsixologiyanı ətraflı araşdırdıqca bir çox məsələlər üzə çıxır. Ona görə də demək olar ki, kitabxanaşünaslığın müxtəlif fəaliyyət sahələrində bibliopsixologiyanın tədqiqatlarına xüsusi ehtiyac vardır.

## ƏDƏBİYYAT

*1. Xələfov A.A. Heydər Əliyev və Azərbaycanda kitabxana işi. Bakı: Azərnəşr, 2006. 312 s.*

*2. Xələfov A.A. Kitabxanaşünaslığa giriş: Dərslik. Bakı, 2001. 400 s.*

*3. Xələfov A.A. İnformasiya cəmiyyətinin formalaşmasında kitabxanaların vəzifələri // Kitabxanaşünaslıq və biblioqrafiya. Bakı, 2005. №2.152 s.*

*4. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya: Dərslik. Bakı, 2009. 620 s.*

*5. Hacıyev Z. Fəlsəfə: Dərslik. Bakı: Adiloğlu, 2001. 639 s.*

*6. Рубакин Н.А. Библиологическая психология. Москва: Академический Проект. Трикста, 2006. 800 с.*

## THE BIBLIOPSICHOLOGICAL THEORY IN NİKOLAY RUBAKİN,S CREATİVİTY AND LIBRARY STUDY

**E.L.AZHDAROV**

***SUMMARY***

*Nikolay Rubakin's bibliopsihological heritages is the scientific heritage of all the library society and world culture. The article considers Nikolay Rubakin's theory from bibliopsihological point of view. The beginning of the XIX century – the development of library science pushes N.A.Rubakin to deep analysis of readers psychology, library work and practice. The author makes an attempt to reflect a part of N.A. Rubakin's rich scientfic heritage.*

## БИБЛИОПСИХОЛОГИЧЕСКАЯ ТЕОРИЯ В ДЕЯТЕЛЬНОСТИ НИКОЛАЯ РУБАКИНА И БИБЛИОТЕКОВЕДЕНИЕ

**Э.Л.АЖДАРОВ**

***РЕЗЮМЕ***

*Библиопсихологическое наследие Николая Рубакина - это научное наследие всего библиотечного общества и мировой культуры. В статье рассматривается библиопсихологическая теория Н.Рубакина. Начало XIX века, развитие библиотековедческой науки подталкивает Н.Рубакина на глубинной анализ психологии читателя, книжного дела и библиотеческой практики. Была попытка отразить, часть большого научного наследиия Н.Рубакина.*

# XALQ ŞAİRİ BƏXTİYAR VAHABZADƏ KİTAB, KİTABXANA VƏ KİTABXANAÇI HAQQINDA

**G.SƏFƏROVA**
***magistrant***

Kitab ən qədim dövlərdən başlayaraq xalqın mühüm mədəniyyət mənbəyi və qüdrətli tərbiyə vasitəsi kimi qiymətləndirilmişdir. Çünki faydalı kitab həqiqətən milyonlarla insanın sədaqətli dostu və məsləhətçisi, hamisi və tərbiyəçisidir. İnsanlar kitab vasitəsilə həyatı və dünyanı öyrənmiş, təlim, tərbiyə almış, cəmiyyətin qanunauyğunluqlarını öyrənərək dərk etmiş, öz mənəvi aləmlərini zənginləşdirmiş və mədəni səviyyələrini yüsəltmişlər. Kitab ayrı-ayrı yaş və ixtisas qrupuna daxil olan bütün insanları bəşər mədəniyyəti xəzinəsi ilə ətraflı tanış edir, elm və texnikanın ən yeni nailiyyətlərinin əsas mənbəyi kimi oxucuların köməyinə çatır, dünyada baş verən hər cür hadisələri, ideyaları başa düşməkdə onların mənəvi yardımçısına çevrilir. Ötən əsrlərin və indiki dövrün misilsiz ixtira və kəşfləri, mühüm elmi-texniki, ictimai-sosial, ədəbi-bədii yenilikləri kitab vasitəsilə geniş xalq kütləsinə çatdırılır və səmərəli tətbiq olunur. Beləliklə, kitab ən mühüm məlumat mənbəyi kimi tarixin fəal daşıyıcısı rolunda çıxış edir [4].

Məhz buna görədir ki, müasir informasiya cəmiyyəti şəraitində respublikamızda kitab, kitabxana və kitabxanaçı problemlərinin tədqiqinə böyük diqqət yetirilir, fundamental tədqiqatlar aparılır. Belə tədqiqatların aparılmasında və təşkilində BDU-nun Kitabxanaşünaslıq kafedrası və bu kafedraya 50 ilə yaxın rəhbərlik edən, uzun illərdən bəri Azərbaycan elmi kitabxanaşünaslıq məktəbinin beşiyi başında duran, yeni milli ideologiyaya, Azərbaycançılıq ideologiyasına söykənərək, bu ideologiyanın əsas müddəalarına əsaslanaraq onu tədqiq edən Əməkdar elm xadimi, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, tarix elmləri doktoru, professor Abuzər Xələfovun xüsusi xidmətləri olmuşdur. Azərbaycan kitabxanaşünaslıq elminin banisi A.Xələfov milli kitabxanaşünaslığı yeni nəzəriyyə və ideyalarla zənginləşdirmişdir [3].

Əbəs yerə deyil ki, kitabın mühüm maddi daşıyıcı kimi insanın həyatında əsaslı rol oynaması, onların qorunması, qədim abidələrin bugünkü gündə də öz ululuğunu, aliliyini saxlaması Azərbaycan qanunvericiliyində də öz əksini tapmışdır. 1999-cu il 12 mart tarixli "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununda kitabxanaların ən mühüm vəzifələrindən biri kimi qeyd olunur: "Kitabxana xidmətinin vəzifəsi kitabxana sərvətlərinin, dünya ədəbiyyatı nümunələrinin etibarlı şəkildə toplanması, qorunması və gələcək nəsillərə çatdırılmasından, onların əhali arasında geniş təbliğindən, bəşəri də-

yerlərə yiyələnmək, müstəqil və yaradıcı düşünən vətəndaş yetişdirilməsinə fəal yardım etməkdən ibarətdir" [5].

Kitab, kitabxana və mütaliə sahəsində dəyərli fikirlər söyləyən, yaradıcılığında dönə-dönə bu məsələlərə toxunan görkəmli şəxsiyyətlərdən biri də Bəxtiyar Vahabzadədir. Xalq şairi Bəxtiyar Vahabzadə Azərbaycanın və Türk dünyasının filosof şairi, dramaturqu, istedadlı alim və publisisti olmaqla yanaşı, qeyrətli və cəsarətli ictimai xadim, sadə və səmimi insan kimi də məşhurdur. Bəxtiyar Vahabzadə poeziyası dünya, insan, sevgi və azadlıq haqqında çırpıntıların poeziyasıdır. Bu poeziya bir sözün, bir obrazın maqnit sahəsində keçmişi, bu günü və gələcəyi qovuşdurur, hər dəfə də dünyanın taleyinə bir nöqtədən bütün mənəvi qüdrətini insanların yolunda sərf etməyə hazır olan fədakar humanizm zirvəsindən yanaşır.

Bu fikirlərin təsdiqi olaraq Bəxtiyar Vahabzadə haqqında ABŞ-da çıxan, böyük nüfuza malik olan və tirajı milyonu aşan "Nyu-York Tayms" qəzetinin səhifələrində məqalə dərc edilmişdi. Belə bir qəzetin səhifələrində xalq şairimiz barədə belə yazının verilməsi Azərbaycan xalqı üçün şərəfdir. Çünki bu yazı ABŞ-da həm Azərbaycana, həm də şeirləri bu yaxınlarda ayrıca kitab halında amerikalı oxucuları ilə görüşmüş Bəxtiyar Vahabzadə şəxsiyyəti və sənətinə ehtiramın əlamətidir [5].

Bəxtiyar Vahabzadə xalqı, torpağı ilə bağlı bir məlum ünvana qarşı "vuruşurdu". Amma doğma dili ilə bağlı, o, iki cəbhədə "döyüşməli" olub: onun doğma dilini öz evində sıxışdıran rejimə qarşı və bir də "öz artilleriyasına" qarşı. Xalq şairini öz içimizdə öz dilimizə xor baxanlar daha çox əzirdi. Onun fikrincə milli dildən məhrum olunan insan üçün millət ruhu daşıya bilməyəcəyi, daşımaq istəmədiyi yükdən başqa heç nə deyil. Belə insan üçün mənəviyyat, tarix, kök əhəmiyyətsiz və hətta ikrahdan və ironik baxışdan başqa bir şeyə layiq olmayan məfhumdur.

B.Vahabzadənin zəngin irsini ətraflı şərh etmək üçün, ilk növbədə onun şeirə, sənətə, kitaba olan münasibətini müəyyənləşdirmək lazımdır. Xalq şairi hər bir əsərini qələmə almazdan əvvəl oxucusunu düşünüb, ona necə təsir etməyin yollarını arayır. Şairin qələmə aldığı bütün əsərləri oxucular tərəfindən diqqətlə oxunmuş, geniş dünyagörüşünə və güclü məntiqə malik bir şəxsiyyət kimi böyük hörmət qazandırmışdı. Xalq şairinin özünün mütaliə dairəsi geniş olmuş və o, hər bir əsərini yazarkən xeyli axtarışlar aparmış, bir fikir götürmək üçün yüzlərlə kitab oxumuşdu. Sözün ecazkar qüvvəsini və qüdrətini daim tərənnüm edən sənətkar kitabı, kitabxananı yüksək qiymətləndirmiş, insanın bilikli, ləyaqətli, ağıllı-kamallı insan kimi tərbiyələnməsində kitabı və kitabxananı birinci yerdə hesab etmişdir.

XX əsr poetik fikrinin görkəmli nümayəndəsi olan xalq şairi Bəxtiyar Vahabzadə irsində sözə, kitaba, mütaliəyə, elmə, maarifə çox yüksək qiymət verir, onların hər birinin gənc nəslin mənəvi tərbiyəsinə müstəsna təsirindən

bəhs edir. Şairin yaradıcılığına həsr olunmuş çoxsaylı elmi araşdırmalardan aydın olur ki, istedadlı alim və publisist əsərlərinin əksəriyyətində kitab, söz və mütaliə haqqında dəyərli fikirlərə geniş yer ayırmışdır.

Xalq şairi yüksək səviyyəli, ali mədəniyyətli və geniş dünyagörüşlü oxucu, eyni zamanda nəyi oxuyub-oxumamağı başa sala bilən mahir kitab təbliğatçısı olmuşdur. Xalqın bəxtiyar oğlu əsərlərində insanların tərbiyə və inkişafında elmin roluna böyük əhəmiyyət verir, elm öyrənməyin əvəzsiz mənbəyi olan kitabı və onun mütaliəsini, mənimsənilməsini yüksək qiymətləndirir.

Ensiklopedik biliyə malik şair daim kitabdan bəhrələnmiş, onun Azərbaycanın görkəmli şəxsiyyəti, xalq şairi kimi tanınmasında kitab və mütaliə əsaslı rol oynamışdır. 1952-ci ildə qələmə aldığı "Kitab" şeri Bəxtiyar Vahabzadə yaradıcılığının ən mühüm nümunəsidir.

*Kitab dostu, sirdaşıdır*
*Bu dünyada hər bir kəsin.*
*Elə insan varmı görən,*
*Çevirdiyi vərəqlərdə*
*Qəlbi əsib, titrəməsin?! [6]*

Şair oxuculara çatdırmaq istəyir ki, insanın mənəvi dünyasının zənginləşməsində mütaliə, kitab çox böyük əhəmiyyət kəsb edir. Kitabı özünün dostu, sirdaşı sayan Bəxtiyar Vahabzadə hər bir oxucunu mütaliə etməyə səsləyir. Şair burada elə bir məqama toxunmuşdur ki, həqiqətən insan oxuduğu ədəbiyyatla, kitabla birgə təsirlənir, özlüyündə həmin hadisəni yaşayır, bir anlığa əsərin məna dolu dünyasına qərq olur. Ümumiyyətlə, hər bir kitabın, xüsusilə elmi, elmi-kütləvi, xüsusi ədəbiyyatın mütaliəsi daha şüurlu, diqqətli, müqayisəli xarakterə malik olmalı, fəal idrak prosesindən keçməlidir. Xalq şairinə görə kitab cəmiyyətimizin inkişafına təkan verir, elmimizin, ədəbiyyatımızın, incəsənətimizin tərəqqisini təmin edir.

M.F.Axundov adına Milli Kitabxananın "Elmi əsərləri"nin çapdan çıxması münasibətilə yazdığı məktubunda görkəmli mütəfəkkirin kitaba necə hörmət bəslədiyinin, fəlsəfi baxışlarının, qeyri-adi yanaşma tərzinin şahidi oluruq. Məktubda yazır:

*Kitab işıq dolu bir laləzardır,*
*Kitab olan yerdə işıq da vardır.*
*Torpağa dönsə də onu yazan əl,*
*Ürəyi çırpınır hələ bu gün də.*

Şair burada bildirir ki, torpağa dönmüşlərin ürəyinin hərarətini öz ürəklərinin hərarətinə qatıb, qəlblərə nur paylayan kitabxanaçılara mən dərin münasibət bəsləyirəm.

Hər vaxt Bəxtiyar Vahabzadənin fikirlərini qiymətləndirən, onu ən hörmətli müəllimi hesab edən, kitabxanaşünaslıq elminin canlı epopepiyasını yaradan Əməkdar elm xadimi, "Şöhrət" ordenli, tarix elmləri doktoru, professor Abuzər Xələfov xalq şairini istər yaradıcılıq sahəsində, istər ictimai-siyasi xidmətində, istərsə də fəlsəfi duyumunda yüksək səviyyədə dəyərləndirir. Bu nöqteyi-nəzərdən prof.A.Xələfov öz mühazirələri zamanı qeyd edərək söyləmişdi ki, xalq şairinin M.F.Axundov adına Milli Kitabxanaya təbrik məktubunda yazdığı bir bəndlik şerində əsas iki məsələ diqqətə çəkilir: birincisi, kitabın ölməzliyinin ruhla bağlanması, ikincisi, kitabı insanın əsas amili, əsas maddi daşıyıcısı hesab etməsi. Burada əsas cəhət odur ki, "ölməzlik" fəlsəfəsi diqqətə çəkilmiş, kitaba hiss və fikirlərin müqəddəs ocağı, aqillik məbədi kimi baxılmışdır.

Sözə, kitaba, elmə dəyər verən, ömrünün çox hissəsini daim axtarışlarda keçirən şair 15 il ərzində yazılmış 9 poemadan yalnız 5-nin kitaba salınmasını xahiş etmişdi. Məhz bunların içərisində "Sadə adamlar" poeması əsaslı yer tutur. Xalq şairi bu poemada sadəlövh səhnələrlə yanaşı, kənd və şəhər problemlərinə toxunmaq, mədəniyyətin ən bariz nümunəsi olan kitabxanaların nəinki şəhər həyatında, hətta ucqar kənd həyatında vacibliyini göstərmək, bir sözlə, kənddə mədəniyyətin yüksəlməsi probleminin qoyuluşu və xarakter yaratmaq baxımdan bu sanballı əsəri saxlamağı mühüm bilmiş və hətta, onu şer və kitab külliyyatının I cildinə daxil etmişdir [6].

"Sadə adamlar" poemasında şair konkret həyat materialları əsasında əməyin poeziyasını tərənnüm etmişdir. Şair göstərmişdir ki, zəhmətin mənası, ləyaqəti vəzifənin böyük-kiçikliyində deyil, hər kəsin öz işinə olan sevgisindədir. Həmçinin bu əsər o dövr poeziyasına xas müəyyən sxematiklik əlamətlərindən xali deyildi. Bununla belə burada həyat hadisələrinə hissi- obrazlı münasibətin güclənməsi göz önündədir.

Xalq şairinin elmə gətirdiyi yeniliklərdən ən önəmlisi olaraq qeyd etməliyik ki, ilk dəfə olaraq ədəbiyyatşünaslıq sahəsində əsl kitabxanaçı qız obrazı yaratmışdı. Onun öz ixtisasını necə sevdiyini, ucqar kənd əhalisini daimi kitabxanadan istifadəyə cəlb etməsini, bir sözlə kitabxananı yüksək zirvələrə qaldıraraq onun insan həyatında əsaslı rol oynaması fikirlərini böyük məharətlə işlədiyinin şahidi oluruq.

Bəxtiyar Vahabzadənin kitaba, kitabxanaya, kitabxanaçılıq peşəsinə olan dərin hörməti, bu peşənin işçilərini dünyanın ən saf, təmiz ürəkli, öz vicdanı, qeyrəti ilə yaşayan insan hesab etməsi 1956-cı ildə qələmə aldığı "Sadə adamlar" poemasında böyük ustalıqla işlənmişdir.

*Yoxdur vəzifənin, işin, sənətin*
*Böyüyü, kiçiyi inan ki bizdə;*
*Vəzni, dərəcəsi hər bir hörmətin*
*Zəhmətlə ölçülür vətənimizdə.*

Daim kitab oxumaq, mütaliə etmək məsələlərini əsərlərində, çıxışlarında işıqlandıran xalq şairi buna xüsusi önəm verilməsini istəmişdir. Onun fikrincə, istər orta, istərsə də ali məktəblər proqram üzrə dərslik səviyyəsində məlumat verməklə kifayətlənməməlidir. Dərs proqramını ağacın kökünə bənzətsək, bu barədə əlavə məlumatın hərəsi bir tərəfə şaxələnən qol-budağa bənzətmək olar. Qol-budağı bilmədən kökü yaxşı dərk etmək mümkün olmadığı kimi əlavə məlumatsız da əsas proqramı tam mənada dərk etmək mümkün deyil. Əlavə məlumatı isə nə dərsliyin, nə də müəllimin əvvəlcədən müəyyən edilmiş proqram üzrə verməyə imkanı yoxdur. Burada müəllimin şərəfli vəzifəsi şagirdlərdə kitaba sevgi hissini aşılamaq olmalıdır.

Yadda saxlanılmalıdır ki, şəxsi mütaliənin verdiyini heç bir məktəb, heç bir müəllim verə bilməz. Buna görə də biz gənclərimizə kitaba böyük məhəbbət hissini hələ uşaqlıqdan aşılamalı, onların mütaliə qabiliyyətini artırmalıyıq. Bu işdə valideynlər məktəbə yaxından kömək etməli, onların mütaliəsinə nəzarət qoymalıdır. Şagird kitabı qiymət almaq xatirinə deyil, könüllü, öz şəxsi təşəbbüsü və sevgisi ilə oxumalıdır. Məktəb kitabxanaları, kütləvi kitabxanalar, şagirdlərin şəxsi kitabxanası, müxtəlif ədəbi gecələr, görüşlər bu məqsədə xidmət etməli, uşaqda kitaba marağı artırmalıdır [8].

Yekun olaraq söyləyə bilərik ki, Bəxtiyar Vahabzadə irsi bu gün də öz aktuallığını saxlayır, onun fəlsəfəsi xalqın müdrikliyindən və klassik irsimizdən gələn fəlsəfə olub gələcək nəsillər üçün bir örnək olaraq qalacaq.

## ƏDƏBİYYAT

*1. Xələfov A.A. İnformasiya cəmiyyətinin formalaşmasında kitabxanaların vəzifələri // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodik və təcrübi jurnal. Bakı: Bakı Universiteti nəşr-tı, 2005. №2. s.5-17.*

*2. Xələfov A.A. Müstəqillik illərində Azərbaycanda kitabxanaşünaslığın inkişafı // Elmi əsərlər. Bakı: MEK, 2009. №10. s.3-27.*

*3. "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu // Kitabxanaşünaslıq və biblioqrafiya.1999. №1. s.3-20.*

*4. Knyaz Aslan. Şəxsiyyətin fotmalaşmasında bədii ədəbiyyatın rolu: Monoqrafiya. Bakı:Bakı Universiteti Nəşriyyatı, 2008. s.56.*

*5. Stefon Kinzer. Qorxu və təhlükələrdən poetik ruh yenilməz / "Nyu-York Tayms" qəzetində xalq şairi B.Vahabzadə haqqında dərc edilmiş məqalə // Ədəbiyyat, 1997. 30 oktyabr. s.3.*

*6. Vahabzadə B. Əsərləri: I c. Bakı: Azərbaycan nəşr-tı, 2001.*
*7. Vahabzadə B. Foto-kitab. Bakı: Azərbaycan nəşt-tı, 1995. 128 s.*
*8. Vahabzadə B. Mütaliəyə sevgi olarsa (Orta məktəbdə ədəbiyyatın tədrisi) // Kommunist, 1978.16 mart. s.5.*

## BAKHTIYAR VAHABZADEH ABOUT THE BOOK, LIBRARY AND LIBRARIAN

**G.SAFAROVA**

***SUMMARY***

*The present article reflects Bakhtiyar Vahabzadeh's thoughts about the book, library, librarian and reading. The poet`s philosophical thoughts analized in this article as well. The poet's thoughts are of great importance in the contemporary age.*

## БАХТИЯР ВАХАБЗАДЕ О КНИГЕ, БИБЛИОТЕКЕ И БИБЛИОТЕКАРЕ

**Г.САФАРОВА**

***РЕЗЮМЕ***

*Данная статья посвящена мыслям великого поэта и философа Бахтияра Вахабзаде о книге, библиотеке, библиотекаре и чтении. Статья также освещает философические мысли поэта. Его рассуждения играют значимую роль в современное время.*

*KİTABXANA QURUCULUĞU*

# F.KÖÇƏRLİ ADINA AZƏRBAYCAN DÖVLƏT UŞAQ KİTABXANASI MÜASİR TİPLİ YENİ BİNADA

*Məqalədə bu yaxınlarda F.Köçərli adına Azərbaycan Dövlət Uşaq Kitabxanasının yeni tipli müasir binaya köçməsinə həsr olunmuş açılış mərasimi haqqında məlumat verilir.*

**2010-cu il sentyabrın 21-də Firudin bəy Köçərli adına Respublika Uşaq Kitabxanasının Səməd Vurğun küçəsi, 88 ünvanında yeni binasının açılışı olmuşdur. Respublika Uşaq Kitabxanasının yeni binası balaca oxucuların istifadəsinə verilmişdir.**

**F.Köçərli adına Respublika Uşaq Kitabxanası yeni ünvanda fəaliyyətə başlayan yeni inzibati binası Maliyyə Nazirliyi ilə üz-üzədir. Kitabxana "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"na uyğun olaraq yeni binaya köçürülüb, müasir səviyyədə təmir edilib, inventar və avadanlıqlarla təmin olunub. Kitabxanada nağıl otaqları, incəsənət otağı, böyük və kiçik oxu zalları, elektron resurslar bölməsi, multimedia, internet-resurs mərkəzləri yaradılıb.**

F.Köçərli adına Respublika Uşaq Kitabxanasının direktoru, Əməkdar Mədəniyyət İşçisi Fizurə Quliyeva tədbiri açaraq kitabxana və kitab sahəsinə göstərilən dövlət qayğısından söz açaraq, yeni binanın kiçikyaşlı oxucular və Nəsimi rayonunun bütün sakinləri üçün əvəzsiz hədiyyə olduğunu, bu günün balaca kitab həvəskarlarının yaddaşında əbədi qalacağını qeyd etdi.

Mədəniyyət və turizm naziri Əbülfəs Qarayev "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nın uğurla həyata keçirilməsindən, kitabxanaların müasirləşməsindən, kiçikyaşlı oxucuların istifadəsinə verilən yeni kitabxana binasının müasir tələblərə tamamilə cavab verməsindən danışdı, kitabxananın kollektivini və oxucuları təbrik etdi.

Biliklərə yiyələnməkdə kitabın və kitabxananın əvəzsiz rolunu qeyd edən Ə.Qarayev ölkənin ən yaxşı mədəniyyət ocaqlarından olan F.Köçərli adına Respublika Uşaq Kitabxanasında gənc nəslin təlim-tərbiyəsinə, dünyagörüşünün formalaşmasına, onların savadlı vətəndaşlar kimi yetişməsinə istiqamət verən sanballı layihələrin həyata keçiriləcəyinə əminliyini ifadə etdi.

Nəsimi rayon İcra hakimiyyətinin başçısı Nəsib Məhəməliyev ümummilli lider Heydər Əliyevin "Kitabxana xalq, millət üçün, cəmiyyət üçün

müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir" sözlərini xatırladaraq, ölkəmizdə gənc nəslin təhsil, təlim-tərbiyə sahəsində inkişafına, vətənpərvər ruhda böyüməsinə xüsusi diqqət yetirildiyini vurğuladı. Bu işdə kitabın və kitabxananın əhəmiyyətli rol oynadığını qeyd edən N.Məhəməliyev bilik məbədində rəhbərlik etdiyi rayonun mədəni, ictimai-siyasi həyatını əks etdirən tədbirlərin keçirilməsini arzuladı.

Sonra nazir Ə.Qarayev rəmzi qırmızı lenti kəsdi.

Tədbir iştirakçıları kitabxananın yeni binası ilə tanış oldular.

F.Köçərli adına Respublika Uşaq Kitabxanasının direktoru, Əməkdar Mədəniyyət İşçisi Fizurə Quliyeva mərasim iştirakçılarına məlumat verərək bildirdi ki, F.Köçərli adına Respublika Uşaq Kitabxanası 1965-ci il yanvarın 1-də yaradılmışdır.

Hazırda F.Köçərli adına Respublika Uşaq Kitabxanasının fondunda 250 minə yaxın ədəbiyyat (2010-cu il yanvarın 1-nə olan məlumata görə 238 min nüsxədən artıq) saxlanılır. İl ərzində buraya gələnoxucuların sayı təxminən 20 minə yaxındır (2010-cu il yanvarın 1-də 19 min 519 nəfər oxucu olmuşdur). Kitabxanada 8 şöbə, 4 bölmə, 2 oxu zalı oxucuların ixtiyarına verilmişdir. Kitabxananın 3 filialı isə Bakının müxtəlif rayonlarında fəaliyyət göstərir.

F.Köçərli adına Respublika Uşaq Kitabxanası respublikada fəaliyyət göstərən bütün uşaq kitabxanaları üçün metodik mərkəz və milli uşaq ədəbiyyatının saxlayıcısıdır.

F.Köçərli adına Respublika Uşaq Kitabxanası 1999-cu ildən Azərbaycan Kitabxanaçılar Çəmiyyətinin üzvüdür.

Yeni binanın otaqlarını iştirakçılara nümayiş etdirən Fizurə Quliyeva məlumat verərək qeyd etdi ki, kitabxana şənbə günlərindən başqa hər gün səhər saat 9.00-dan axşam 17.30-a qədər işləyir.

Xidmət şöbəsi öz işini abonement və oxu zalları vasitəsilə həyata keçirir. Abonement şöbəsi Azərbaycan və rus bölmələri üzrə məktəbəqədər, kiçik, orta və böyük yaş qrupu üzrə oxuculara xidmət edir. Oxu zalından bütün oxucular istafadə edə bilər. Oxucular istədikləri hər bir materialın fotosurətini pullu xidmət vasitəsi ilə almaq imkanına da malikdirlər.

F.Köçərli adına Respublika Uşaq Kitabxanasının Elmi metodika şöbəsi ölkəmizdə fəaliyyət göstərən bütün rayon uşaq kitabxanaları üzrə elmi-metodik mərkəzdir. Şöbə rayon uşaq kitabxanalarına əməli və metodik köməklik göstərir, zona seminar-müşavirələri keçirir, onları kitabxana-informasiya sahəsində olan yeniliklərlə tanış edir.

Kütləvi işlər və incəsənət şöbəsi əlamətdar tarixi günlər təqvimi üzrə keçirilən kitab sərgilərinin, görüşlərin, ədəbi-bədii gecələrin, teatr tamaşalarının müzakirələrinin, oxucu konfranslarının, kitab bayramlarının, festivalların, kitab təqdimatlarının və digər maraqlı tədbirlərin təşkilatçısıdır. Uşaq kitabxa-

nasında keçirilən bütün tədbirlər haqqında www.clb.az web-saytının xəbərlər səhifəsində müntəzəm olaraq məlumat verilir.

Avtomatlaşdırma şöbəsi kitabxananın əsas qurumlarından biridir. Şöbənin fəaliyyəti sayəsində hər bir İnternet istifadəçisi kitabxananın web səhifəsinə daxil olaraq onun elektron kataloqundan və digər eləektron resurslarından istifadə edə bilər. Uşaqlar saytdakı Elektron nəşrlər düyməsini basmaqla müxtəlif nağılllların elektron variantını oxuya bilərlər.

Kitabxananın məlumat-biblioqrafiya şöbəsinin əməkdaşları elektron kartotekanın köməkliyi ilə lazım olan müxtəlif mövzularda və formalarda ədəbiyyat siyahıları hazırlayırlar. Bu siyahılarda əks olunan məlumat günümüzün əsas tələblərini özündə ifadə etdirir.

1988-ci ildən F.Köçərli adına Respublika Uşaq Kitabxanasının nəzdində "Ədəbiyyat dərnəyi" fəaliyyət göstərir. Dərnək öz məşğələlərində klassik və müasir Azərbaycan ədəbiyyatının ən yaxşı nümunələrini təhlil edir. Burada xüsusilə orta məktəb dərsliklərinə düşməyən sənət əsərlər haqqında uşaq oxuculara daha ətraflı məlumat verilir.

Qeyd edək ki, F.Köçərli adına Respublika Uşaq Kitabxanasının yeni binasının açılışına həsr olunmuş xüsusi buklet, eləcə də 2006-cı ildən kitabxananın təsisçiliyi ilə nəşr edilən "Göy qurşağı" uşaq jurnalı iştirakçılara paylanmışdı. 32 səhifədən ibarət olan "Göy qurşağı" jurnalının hər nömrəsində əlamətdar tarixi günlər, bayramlar, görkəmli şəxsiyyətlər barədə söhbət açılır, eləcə də uşaqların ilk qələm təcrübələri olan şeirlər, hekayələr, çəkdikləri rəsmlər dərc olunur. Jurnalda həm də kitabxanaya yeni daxil olan kitablar haqqında oxuculara müntəzəm məlumat verilir. Uşaqların intellektual səviyyələrinin artırılmasına xidmət göstərən məntiqi suallarla zəngin olan əyləncəli səhifə və rubrikalar jurnalı daha da maraqlı və oxunaqlı edir.

Direktor Fizurə Quliyeva dedi ki, "Biləyən" kitabxananın muktimedia zalından kiçik yaşlılar, ibtidai sinif müəllimləri istifadə edə bilərlər. Burada onlar Azərbaycan, rus, ingilis və digər dillərdə nağıllar və hekayələr oxuya, İnternetdən istifadə etməklə maraqlarına uyğun materiallardan bəhrələnə bilərlər.

Kitabxananın "Nağıl otağı"nda "Danışan nağıl kitabları"na qulaq asmaq, nağıl qəhrəmanları ilə canlı ünsiyyət yaratmaq mümkündür. Bu otaqda həm də Böyük Britaniyanın OXFAM Beynəlxalq humanitar təşkilatı F.Köçərli adına Respublika Uşaq Kitabxanasının oxu zalında bir çox kitabların, qəzetlərdə dərc olunmuş maraqlı hekayələrin, hağılların audio kasetlərindən ibarət xüsusi fond da təşkil etmişdir.

Direktor onu da xatırlatdı ki, kitabxanaya uşaqların yazılışı valideynlərinin şəxsiyyət vəsiqəsi və uşağın doğum haqqında şəhadətnaməsi əsasında həyata keçirilir. Amma yaddan çıxarmaq olmaz ki, oxucular tərəfindən itirilmiş, yararsız hala salınmış kitablar dəyərinin 10 qat müqabilində cərimə olu-

nur. Axı kitablar bizim yaxın dostumuz və sirdaşımızdır! Onları göz bəbəyi kimi qorumaq lazımdır ki, dostluğumuz əbədi olsun!

* * *

*Tədbirdə tanınmış ədəbiyyat və mədəniyyət xadimləri, uşaq yazarları, ictimaiyyət və KİV nümayəndələri iştirak edirdilər.*

* * *

*Ümumrespublika elmi-praktiki konfransı respublika kütləvi informasiya vasitələrində geniş işıqlandırılmış, Azərbaycan Dövlət Agentliyi – AzərTac-ın saytında (www.azertag.com), bir sıra qəzetlərdə, televiziya kanallarında, eləcə də digər çap və elektron mediada ətraflı məlumat verilmişdir.*

**Knyaz ASLAN**

## LIBRARY'S CREATIVE: AZERBAIJAN STATE CHILDREN LIBRARY NAMED BY F.KOCHERLI AT THE NEW BUILDING OF MODERN TYPE

**Knyaz ASLAN**

***SUMMARY***

*At this article is given information about a opening ceremony is devoted of Azerbaijan State Children Library named by F.Kocherli is moving at the new building of modern type.*

## БИБЛИОТЕЧНОЕ СТРОИТЕЛЬСТВО: АЗЕРБАЙДЖАНСКАЯ ГОСУДАРСТВЕННАЯ ДЕТСКАЯ БИБЛИОТЕКА ИМЕНИ Ф.КОЧЕРЛИ В НОВОМ СОВРЕМЕННОМ ЗДАНИИ

**Князь АСЛАН**

***РЕЗЮМЕ***

*В статье рассказано об открытии Азербайджанской Государственной Детской библиотеки имени Ф.Кочерли в новом современном здании.*

# M Ü N D Ə R İ C A T


| | | |
|---|---|---|
| **A.A.XƏLƏFOV** | **BAŞ REDAKTORDAN** ................................... | 7 |
| **A.A.XƏLƏFOV** | **CƏMİYYƏT VƏ MƏDƏNİYYƏT**…………... | 8 |
| **Knyaz ASLAN** | **İNFORMASİYA CƏMİYYƏTİ ŞƏRAİTİNDƏ GƏNCLƏRƏ KİTABXANA XİDMƏTİNİN MÜASIR PROBLEMLƏRİ**……………………………… | 15 |
| **S.M.RZAYEV** | **KİTABXANAÇILAR KÜTLƏVİ MÜTALİƏNİN TƏŞKİLATÇISIDIR**……… | 26 |
| **Ə.M. RÜSTƏMOV** | **ELEKTRON KİTABXANA RESURSLARININ FORMALAŞDIRILMA METODOLOGİYASININ BƏZİ MƏSƏLƏLƏRİ** ……………………………….. | 34 |
| **E.Y.ƏHMƏDOV** | **MƏKTƏB KITABXANALARININ İNKİŞAF PERSPEKTİVLƏRİ**………………. | 43 |
| **M.Ə.MƏMMƏDOV** | **KİTABXANALARIN BEYNƏLXALQ ƏLAQƏLƏRİNDƏ QEYRİ-HÖKÜMƏT TƏŞKİLATLARININ İŞTİRAKI**……………. | 51 |
| **P.F.KAZIMİ** | **ƏBDÜLQƏNİ NUXƏVİ KİTABXANASI**....... | 59 |
| **A.A.CƏFƏROV** | **RESPUBLİKA ELMİ KƏND TƏSƏRRÜFATI KİTABXANASINDA OXUCULARA KİTABXANA XİDMƏTİNİN MÜASIR VƏZİYYƏTİ VƏ İINKİŞAF İSTİQAMƏTLƏRİ**……………………………. | 67 |
| **N.N.İSMAYILOVA** | **KİTABXANA İŞİNİN KOMPÜTERLƏŞDİRİLMƏSİNİN PRİORİTET İSTİQAMƏTLƏRİ**………….. | 76 |

| | | |
|---|---|---|
| **E.M.MƏMMƏDOV, S.İ.MƏMMƏDOVA** | **KORPORATİV RƏQƏMLİ KİTABXANA ŞƏBƏKƏSİ……………………………………** | 83 |
| **S.İ.MƏMMƏDOVA** | **ELEKTRON KİTABXANALARIN YARADILMASININ ƏSAS KONSEPSİYALARI…………………………..** | 87 |
| **E.L.ƏJDƏROV** | **NİKOLAY RUBAKİNİN YARADICILIĞINDA BİBLİOPSİXOLOGİYA NƏZƏRİYYƏSİ VƏ KİTABXANAŞÜNASLIQ…………………….** | 91 |
| **G.SƏFƏROVA** | **XALQ ŞAİRİ BƏXTİYAR VAHABZADƏ KİTAB, KİTABXANA VƏ KİTABXANAÇI HAQQINDA…………………………………….** | 99 |
| **Knyaz ASLAN** | **F.KÖÇƏRLİ ADINA AZƏRBAYCAN DÖVLƏT UŞAQ KİTABXANASI MÜASİR TİPLİ YENİ BİNADA………………………….** | 105 |

# C O N T E N T S

| | | |
|---|---|---|
| **A.A.KHALAFOV** | **FROM EDİTOR-İN-CHİEF…………………..** | 7 |
| **A.A.KHALAFOV** | **THE SOCIETY AND THE CULTURE……..** | 8 |
| **Knyaz ASLAN** | **MODERN PROBLEMS OF THE LIBRARYSERVICE TO YOUNG IN THE CONDITIONOF INFORMATION SOCIETY……………………………………..** | 15 |
| **S.M.RZAYEV** | **OF THE LIBRARIES AS THE ORGANIZORS OF A MASS READING……** | 26 |
| **A.M.RUSTAMOV** | **SOME METHODOLOGICAL QUESTIONSOF FORMING THE RESOURCES OF DIGITAL LIBRARIES…..** | 34 |
| **E.Y.AHMEDOV** | **THE PERSPECTIUES OF SCHOOL LIBRARIES……………………………………** | 43 |
| **M.A.MAMMADOV** | **PARTICIPATION OF NON-GOVERNMENT ORGANIZATION IN INTERNATIONAL RELATIONS OF LIBRARIES……………….** | 51 |
| **P.F.KAZIMI** | **LIBRARY OF ABDULGANI NUKHAVANI....................................................** | 59 |
| **A.A.JAFAROV** | **THE CONTEMPORARY CONDITION AND DEVELOPMENT DIRECTIONS OF LIBRARY SERVICE FOR READERS IN REPUBLICAN SCIENTIFIC AGRICULTURAL LIBRARY………………..** | 67 |
| **N.N.ISMAYILOVA** | **FOREGROUND DIRECTIONS OF COMPUTERIZATION OF LIBRARIANSHIP……………………………….** | 76 |
| **E.M.MAMMADOV, S.I.MAMMADOVA** | **CORPORATIVE DIGITAL LIBRARY NETWORK………………………………………** | 83 |

| | | |
|---|---|---|
| **S.İ.MAMEDOVA** | **MAIN CONCEPTIONS FOR FORMATION ELEKTRON LIBRARIES……….....................** | 87 |
| **E.L.AZHDAROV** | **THE BIBLIOPSICHOLOGICAL THEORY IN NİKOLAY RUBAKİN,S CREATİVİTY AND LIBRARY STUDY……………………..** | 91 |
| **G.SAFAROVA** | **BAKHTIYAR VAHABZADEH ABOUT THE BOOK, LIBRARY AND LIBRARIAN………..** | 99 |
| **Knyaz ASLAN** | **LIBRARY'S CREATIVE:AZERBAIJAN STATE CHILDREN LIBRARY NAMED BY F.KOCHERLI AT THE NEW BUILDING OF MODERN TYPE……………………………** | 105 |

## С О Д Е Р Ж А Н И Е

| | | |
|---|---|---|
| **А.А.ХАЛАФОВ** | **ОТ ГЛАВНОГО РЕДАКТОРА………………** | 7 |
| **А.А.ХАЛАФОВ** | **ОБЩЕСТВО И КУЛЬТУРА………………...** | 8 |
| **Князь АСЛАН** | **СОВРЕМЕННЫЕ ПРОБЛЕМЫ БИБЛИОТЕЧНО -ИНФОРМАЦИОННОЙ ОБСЛУЖИВАНИЕ ЮНЫМ ЧИТАТЕЛЯМ В УСЛОВИЯХ ИНФОРМАЦИОННОГО ОБЩЕСТВА…** | 15 |
| **С.М.РЗАЕВ** | **БИБЛИОТЕКИ КАК ОРГАНИЗАТОРЫ МАССОВОГО ЧТЕНИЯ………………….** | 26 |
| **А.М.РУСТАМОВ** | **НЕКОТОРЫЕ МЕТОДОЛОГИЧЕСКИЕ ВОПРОСЫ ФОРМИРОВАНИЯ РЕСУРСОВ ЭЛЕКТРОННЫХ БИБЛИОТЕК……………………………….** | 34 |
| **Е.Ю.АХМЕДОВ** | **ПЕРСПЕКТИВЫ РАЗВИТИЯ ШКОЛНЫХ БИБЛИОТЕК………………………………….** | 43 |
| **М.А.МАМЕДОВ** | **УЧАСТИЕ НЕПРАВИТЕЛЬСТВЕННЫХ ОРГАНИЗАЦИЙ В МЕЖДУНАРОДННЫХ СВЯЗЯХ БИБЛИТЕК.......................................................** | 51 |
| **П.Ф.КАЗЫМИ** | **БИБЛИОТЕКА АБДУЛГАНИ НУХАВИ….** | 59 |
| **А.ДЖАФАРОВ** | **СОВРЕМЕННОЕ СОСТОЯНИЕ БИБЛИОТЕЧНОГО ОБСЛУЖИВАНИЯ ЧИТАТЕЛЕЙ В РЕСПУБЛИКАНСКОЙ НАУЧНОЙ СЕЛЬСКОХОЗЯЙСТВЕН-НОЙ БИБЛИОТЕКЕ И НАПРАВЛЕНИЯ РАЗВИТИЯ……………………………………** | 67 |

| | | |
|---|---|---|
| Н.Н.ИСМАИЛОВА | ПРИОРИТЕТНЫЕ НАПРАВЛЕНИЯ КОМПЬЮТЕРИЗАЦИИ БИБЛИОТЕЧНОГО ДЕЛА…………………. | 76 |
| А.М.МАМЕДОВ, С.И.МАМЕДОВА | КОРПОРАТИВНАЯ ЦИФРОВАЯ БИБЛИОТЕЧНАЯ СЕТЬ…………………… | 83 |
| С.И.МАМЕДОВА | ОСНОВНЫЕ КОНЦЕПЦИИ ДЛЯ СОЗДАНИЯ ЭЛЕКТРОННЫХ БИБЛИОТЕК………………………………… | 87 |
| Э.Л.АЖДАРОВ | БИБЛИОПСИХОЛОГИЧЕСКАЯ ТЕОРИЯ В ДЕЯТЕЛЬНОСТИ НИКОЛАЯ РУБАКИНА И БИБЛИОТЕКОВЕДЕНИЕ………………….. | 91 |
| Г.САФАРОВА | БАХТИЯР ВАХАБЗАДЕ О КНИГЕ, БИБЛИОТЕКЕ И БИБЛИОТЕКАРЕ…….. | 99 |
| Князь АСЛАН | БИБЛИОТЕЧНОЕ СТРОИТЕЛЬСТВО: АЗЕРБАЙДЖАНСКАЯ ГОСУДАР-СТВЕННАЯ ДЕТСКАЯ БИБЛИОТЕКА ИМЕНИ Ф.КОЧЕРЛИ В НОВОМ СОВРЕМЕННОМ ЗДАНИИ………………… | 105 |

## M Ü Ə L L İ F L Ə R İ N   N Ə Z Ə R İ N Ə !

***"Kitabxanaşünaslıq və informasiya" elmi-nəzəri və praktik jurnalının redaksiyasına təqdim edilən elmi məqalələr göstərilən qaydalar əsasında tərtib edilməlidir:***

***1) Format – A4; Sətirlərarası interval – 1,0;***
***Yuxarıdan 2,5 sm; Aşağıdan 2,5 sm; Soldan 3,5 sm; Sağdan 1,5 sm.***
***Məqalələrin həcmi 1 çap vərəqindən artıq olmamalıdır.***
***2) Şrift dəsti:***
***Azərbaycan dilində – Times New Roman***
***İngilis dilində – Times New Roman***
***Rus – Times New Roman***
***Şriftlərin ölçüsü 12 (Word 2003).***
***3) Hər bir elmi məqalənin ingilis və rus dillərində xülasələri olmalı, burada məqalənin ingilis və rus dillərində adı da öz əksini tapmalıdır.***
***4) Elmi məqalələr və xülasələr kompüterdə çap olunmuş şəkildə disklə birlikdə təqdim olunmalıdır. Disklər geri qaytarılmır.***
***5) Müəllif haqqında aydın məlumat verilməkli, ad, ata adı, soyad açıq yazılmalı, işlədiyi və ya oxuduğu müəssisənin adı tam şəkildə yazılmalıdır.***
***6) Hər bir elmi məqaləyə 2 mütəxəssis rəy verməlidir.***

*Nəşriyyat redaktorları: Afiqə Cəfərova (Azərbaycan mətni)*
*Nərgiz Əliyeva (İngilis mətni)*
*Yafəs Quliyev (rus mətni)*
*Jurnal Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydə alınmışdır.*
*Şəhadətnamə № 3135. 16.03.2010.*

*Yığılmağa verilmişdir: 15.10.2010.*
*Çapa imzalanmışdır: 25.10.2010.*
*Formatı 70x100⅛*
*Həcmi 7.5 ç.v.*

*Bakı şəhəri, Az1148., Z.Xəlilov küçəsi, 23*
*Bakı Universiteti Nəşriyyatının mətbəəsi*